Xalqın qəzeti!

# Xalq qəzeti

№ 202 (30318) 19 sentyabr 2023-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## Günün sözü

**Prezident İlham Əliyev:**

**Dağlıq Qarabağ münaqişəsi həll olunub. Dağlıq Qarabağın qondarma statusu ilə bağlı və ya buna bənzər hər hansı müzakirələrə qayıdış yoxdur. Yeganə yol qalıb – Azərbaycan qanunlarına tabe olmaq, "parlament"i buraxmaq. Ancaq o təqdirdə hər hansı bir amnistiyadan söhbət gedə bilər.**

# Azərbaycanın Qarabağda növbəti hədəfləri

## İşğalçı qoşun ərazimizdən çıxarılmalı, qondarma rejim buraxılmalıdır




**Dünən Xarici İşlər Nazirliyində Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov və xarici işlər nazirinin müavini Fariz Rzayevin iştirakı ilə ölkəmizdə akkreditə olunmuş diplomatik korpus üçün brifinq keçirilib.**

Xarici diplomatların nəzərinə çatdırılıb ki, Azərbaycanın cəlb olunmuş beynəlxalq tərəfdaşlar vasitəsilə həyata keçirdiyi bütün səylərə baxmayaraq, Ermənistan və onun Azərbaycanın suveren ərazilərində qurduğu qondarma rejim normallaşma prosesinə xələl gətirməyə və gərginliyin azaldılmasına yönəlmiş bütün təklifləri rədd etməyə davam edir. Əksinə, Azərbaycan qarşı tərəfin israrla davam etdirdiyi təxribatçı addımlarla üzləşir. Qarabağ bölgəsində qondarma "prezident seçkiləri" bunun bariz nümunəsidir. Azərbaycanın bütün mesajlarına baxmayaraq, Ermənistan tərəfi öz yolundan dönmədi.

*(ardı 4-cü səhifədə)*

# "Humanitar böhran" avantürası məngənədə

**Görək Ermənistan rəhbərliyi və dünya ermənipərəstləri bundan sonra nə deyəcək, nədən danışacaqlar? Görək, qarşıdakı müddətdə Qarabağdakı separatçı rejimi qorumaq üçün hansı oyunlara əl atacaqlar? Hərçənd, bu kəsimin "axtarışlarının", həyasızlıqlarının bitib-tükənmək bilmədiyi aşkardır. İndilik durum belədir: Qarabağda onsuz da olmayan humanitar böhran şousunu davam etdirmək üçün əsas yoxdur. Ağdam–Əsgəran–Xankəndi və Laçın–Xankəndi yolları humanitar məqsədli yüklərin daşınması üçün açıqdır. Beynəlxalq Qırmızı Xaç Komitəsinin yük avtomobilləri hər iki istiqamətdə hərəkət edərək, Qarabağın erməni əhalisi üçün daşımalar həyata keçirirlər.**

Mövzu ətrafında söhbət açarkən ilk vurğulanmalı məqam Azərbaycanın prinsipial mövqeyinin təmin olunmasıdır. Məlum olduğu kimi, ölkəmiz sözügedən yolun eyni anda açılmasını tələb edirdi. Nəzərə alaq ki, ancaq Laçın–Xankəndi yolunun açıqlığı separatizmi düşüncələrdə, bir növ, leqallaşdırırdı. Hazırda isə Ağdam–Xankəndi yolu da açıqdır ki, bu, bölgənin erməni əhalisinə yardımın həm də Azərbaycan ərazisi vasitəsilə göstərilməsi deməkdir.

*(ardı 3-cü səhifədə)*

# Ərdoğanın yeni təşəbbüsü nə vəd edir?



**Regionda hər zaman sülh və əmin-amanlıq istəyən, Mustafa Kamal Atatürkün "Yurdda sülh, cahanda sülh" prinsipinə uyğun siyasət yürüdən Türkiyə Cümhuriyyəti, onun Prezidenti Rəcəb Tayyib Ərdoğan yeni təşəbbüs irəli sürüb. O, Qarabağ məsələsi ilə bağlı Azərbaycan, Türkiyə, Ermənistan və Rusiya liderləri səviyyəsində dördtərəfli görüşün keçirilməsini təklif edib.**

Cənab Ərdoğan bu barədə sentyabrın 16-da BMT Baş Assambleyasının sessiyasında iştirak etmək üçün Nyu-Yorka yola düşməzdən öncə İstanbulda keçirdiyi mətbuat konfransında deyib: "Bəli, əvvəllər nəzərdə tutulduğu kimi, üçtərəfli formatda görüş keçirilməsi bizim prioritetimizdir. Amma biz, həmçinin dördtərəfli formatda görüşməyi təklif etdik. Bu təklifi çatdırdıq. Yəni mən özüm, Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan baş naziri Nikol Paşinyan. Mən dedim ki, gəlin görüşək, atılacaq addımları birlikdə müzakirə edək. Amma indiyədək bu təklifə müsbət və ya mənfi cavab almamışıq. Biz bu məsələni daha sonra Prezident İlham Əliyevlə müzakirə edəcəyik və hadisələri diqqətlə izləyəcəyik".

*(ardı 3-cü səhifədə)*

# İranın "ikibaşlı dostluq" siyasətinin perspektivsizliyi

Səhifə ⇨ 6

# Qeyri-neft ixracında dinamik artım



**Respublikamızda xarici ticarət dövriyyəsi və ixrac əməliyyatlarının getdikcə genişləndirilməsi ölkələrarası münasibətlərin, iqtisadi əlaqələrin inkişafında mühüm amillərdən biridir. Bununla bağlı rəqəmlərə diqqət yetirəndə həm də aydın görünür ki, ixracın strukturunda qeyri-neft məhsullarının, o cümlədən ərzaq mallarının çəkisi getdikcə artır. Məlumat üçün bildirək ki, son illər ölkəmizdə qeyri–neft sektorunun davamlı inkişafı ilə bağlı reallaşdırılan tədbirlər nəticəsində bu sahədə rəqabətqabiliyyətli məhsulların istehsalı xeyli artıb.**

*(ardı 7-ci səhifədə)*

# Dünya nəhəngi "Maersk" Azərbaycanı seçib



Səhifə ⇨ 8

# Hirkan Milli Parkı ümumdünya sərvətidir

## Bu günlərdə UNESCO onun bu dəyərini təsdiqlədi



**Bu günlərdə respublikamıza daha bir xəbər yayıldı: Azərbaycanın qədim Hirkan meşələri relikt və endemik zənginliyinə və landşaftına görə UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Bu barədə qurumun Ümumdünya İrs Komitəsinin Səudiyyə Ərəbistanının Ər-Riyad şəhərində keçirilən 45-ci sessiyasında qəbul olunub.**

*(ardı 9-cu səhifədə)*

# Paşinyançılar mer seçkisində Rusiyayönümlü qüvvələri üstələsələr də...

Səhifə ⇨ 11

## Bəstəkar Arif Məlikovun 90 illik yubileyi və Milli Musiqi Günü münasibətilə Azərbaycan musiqi ictimaiyyətinə təbrik

Azərbaycan musiqi ictimaiyyətini, bütün musiqisevərləri 18 sentyabr – Milli Musiqi Günü münasibətilə təbrik edirəm.

Bu mədəniyyət bayramı Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1995-ci ildən hər il ölkəmizdə dahi bəstəkarımız Üzeyir Hacıbəylinin doğum günündə təntənə ilə qeyd edilir.

Builki Milli Musiqi Günü həm də Azərbaycan mədəniyyətinin ən parlaq simalarından biri, görkəmli bəstəkar, SSRİ və Azərbaycan Respublikasının Xalq artisti Arif Məlikovun 90 illik yubileyinin qeyd edilməsi ilə əlamətdardır.

Arif Məlikov Azərbaycan mədəniyyətinin yetirdiyi sənətkarlar nəslinin parlaq yaradıcılıq ənənələrini ləyaqətlə davam etdirmiş və milli musiqi salnaməmizə yeni səhifələr yazmışdır. Bəstəkarın musiqinin ən müxtəlif janrlarında yaratdığı əsərlər Azərbaycan mədəniyyətinin qızıl fonduna daxildir.

Mövzu zənginliyi və rəngarəngliyi, milli musiqi ənənələri ilə yeni düşüncənin vəhdətində formalaşan özünəməxsus üslub, dolğun məzmun, obrazların dərin emosional-psixoloji və fəlsəfi ifadəsi Arif Məlikov yaradıcılığının səciyyəvi xüsusiyyətidir.

Arif Məlikov bütün həyatı boyu Azərbaycana bağlı, onu ürəkdən sevən böyük şəxsiyyət idi. Əsl ziyalılıq və vətəndaşlıq mövqeyi, öz xalqına bağlılığı və dövlətinə sədaqəti ona ümumxalq məhəbbəti qazandırmışdır.

Bəstəkarın şah əsəri görkəmli türk şairi Nazim Hikmətin librettosu əsasında yaratdığı "Məhəbbət əfsanəsi" baletidir. XX əsr dünya balet musiqisinin incilərindən sayılan, yarım əsrdən artıq bir dövrdə məşhur teatr səhnələrini bəzəyən bu əsər musiqi mədəniyyətimizin möhtəşəm nailiyyətlərindəndir.

İlk dəfə 1961-ci ildə Sankt-Peterburqun Mariinski Teatrında səhnələşdirilmiş "Məhəbbət əfsanəsi" baleti sonralar 60-dan çox ölkədə nümayiş etdirilərək, müəllifə dünya şöhrəti qazandırmışdır.

Sevindirici haldır ki, bəstəkarın yaradıcılığının zirvəsi hesab olunan "Məhəbbət əfsanəsi" baleti uzun fasilədən sonra Heydər Əliyev Fondunun dəstəyi ilə bu gün yenidən müəllifin Vətənində səhnəyə qoyulur.

Arif Məlikovun yaradıcılıq irsi Azərbaycan xalqının mədəni sərvətidir. Zamanın yüksək sənət qarşısında irəli sürdüyü tələblərə cavab verən, insanları mənəvi kamilliyə səsləyən Arif Məlikov musiqisi əbədi yaşayacaqdır.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 18 sentyabr 2023-cü**

## "İtkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması üçün milli və beynəlxalq səylərin artırılması" mövzusunda beynəlxalq konfransın iştirakçılarına

**Hörmətli konfrans iştirakçıları!**

Sizi silahlı münaqişələr zamanı itkin düşmüş şəxslər mövzusuna həsr edilmiş beynəlxalq konfransda salamlayıram.

İtkin düşmüş şəxslər məsələsi Azərbaycanın üzləşdiyi ən ağır problemlərdən biridir və konfransın mövzusu ölkəmiz üçün xüsusi aktuallıq kəsb edir. Birinci Qarabağ müharibəsi zamanı Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi nəticəsində 3890 vətəndaşımız itkin düşmüşdür. İtkin düşmüş şəxslərin ümumi sayından 872 nəfərin əsir-girov götürülməsi və ya vaxtilə işğal altında olmuş ərazilərdə qalmasına dair təkzibedilməz məlumatlar mövcuddur.

Etibarlı məlumatlara əsasən, itkin düşmüş şəxslər Ermənistan tərəfindən işgəncələrə məruz qalmış, qətlə yetirilmiş və Azərbaycanın əvvəllər işğal olunmuş ərazilərində kütləvi məzarlıqlarda basdırılmışdır.

İtkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi məsələsi daim Azərbaycan dövlətinin diqqət mərkəzində olmuşdur. 1993-cü ildə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası yaradılmış və bu illər ərzində səmərəli fəaliyyət göstərmişdir.

2020-ci ildə Azərbaycanın torpaqlarının işğaldan azad edilməsi Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması üçün yeni imkanlar açdı. Lakin Ermənistan tərəfindən ərazilərimizin minalarla və partlamamış hərbi sursatlarla çirkləndirilməsi kütləvi məzarlıq yerlərinin müəyyən olunması, ekshumasiya işlərinin aparılması prosesinə ciddi maneələr yaradır.

Vətən müharibəsindən dərhal sonra Dövlət Komissiyasının imkanlarının gücləndirilməsi istiqamətində mühüm addımlar atılmış, işğaldan azad edilmiş ərazilərdə kütləvi məzarlıqların yerlərinin müəyyən olunması, zəruri qazıntı və ekshumasiya işlərinin aparılmasına başlanılmışdır. Son iki ildə işğaldan azad edilmiş ərazilərdə aparılmış qazıntılar nəticəsində 10 kütləvi məzarlıq aşkar edilmişdir. Aparılmış təxirəsalınmaz tədbirlər nəticəsində itkin düşmüş 15 nəfərin eyniləşdirilməsi mümkün olmuş və bu barədə ictimaiyyətə məlumat verilmişdir. Bu gün daha 10 nəfərlə bağlı əlavə məlumat təqdim ediləcək.

Mən taleyi müəyyən olunmuş itkin şəhidlərimizin ailələrinə dərin hüznlə başsağlığı verir, onlara səbir diləyirəm. 30 il əvvəl itkin düşmüş vətəndaşlarımızın taleyinin aydınlaşdırılması ciddi ictimai hadisə olmaqla yanaşı, həm də Azərbaycan dövlətinin öz vətəndaşına verdiyi dəyərin bariz nümunəsidir. Mən itkin ailələrini əmin edirəm ki, Vətən uğrunda döyüşlərdə itkin düşmüş bütün şəxslərin taleyinin aydınlaşdırılması üçün səylərimizi əsirgəməyəcəyik.

İtkin düşmüş şəxslər məsələsi postmünaqişə dövründə bütün aidiyyəti görüşlərdə, Ermənistanla aparılan danışıqlarda, xüsusilə Brüssel və Vaşinqton platformalarında tərəfimizdən xüsusi qabardılır. Təəssüf ki, Ermənistan beynəlxalq humanitar hüquqdan irəli gələn öhdəliklərini kobud şəkildə pozaraq itkin düşmüş şəxslərin taleyi və kütləvi məzarlıqların dəqiq yeri haqqında məlumatları Azərbaycan tərəfinə təqdim etmir. Bunun səbəbləri aydındır. Ermənistan hesab edir ki, bununla törətdiyi növbəti hərbi cinayətlərin, vəhşiliklərin üstü açılacaq. Beynəlxalq ictimaiyyət itkin düşmüş şəxslərin taleyinə və kütləvi məzarlıqlara dair məlumatların Azərbaycan tərəfinə təqdim edilməsi məqsədilə Ermənistana təzyiq göstərməlidir. Bu, sırf humanitar məsələdir və onun siyasiləşdirilməsi yolverilməzdir.

İtkin düşən şəxslərin taleyinin müəyyənləşdirilməsi Ermənistan–Azərbaycan münasibətlərinin normallaşdırılması, barışıq baxımından da vacibdir. Bu sahədə əməkdaşlıq effektiv etimad quruculuğu tədbirlərindən biri ola bilər.

Silahlı münaqişələr zamanı itkin düşmüş şəxslər məsələsi qlobal problemdir. Azərbaycan bu məsələyə beynəlxalq müstəvidə diqqətin artırılması istiqamətində ciddi addımlar atmışdır. Ölkəmiz iki ildən bir BMT Baş Assambleyasında itkin düşmüş şəxslər mövzusunda qətnamə irəli sürür. Hesab edirik ki, BMT sistemində itkin düşmüş şəxslərlə bağlı xüsusi mexanizmin yaradılmasına ehtiyac var.

Əminəm ki, konfrans beynəlxalq ictimaiyyətin diqqətinin itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması kimi ağrılı məsələyə cəlb olunmasına öz töhfəsini verəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, konfransın işinə uğurlar diləyirəm.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 18 sentyabr 2023-cü**

## Xaçmaz rayonunun Gəndob–Xaçmaz–Yalama–Rusiya Federasiyası ilə dövlət sərhədi (20 km)–Hülövlü–Sərkərli–Alıcqışlaq–Qədmalıqışlaq–Rəhimoba avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Səkkiz min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini birləşdirən Gəndob–Xaçmaz–Yalama–Rusiya Federasiyası ilə dövlət sərhədi (20 km)–Hülövlü–Sərkərli–Alıcqışlaq–Qədmalıqışlaq–Rəhimoba avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.5-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 11,0 (on bir) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 18 sentyabr 2023-cü**

## "Dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi və Azərbaycan Respublikası Prezidentinin "Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında" 2018-ci il 13 mart tarixli 3787 nömrəli, "Dövlət qulluqçularının aylıq vəzifə maaşlarının müəyyən edilməsi və "Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 mart tarixli 3787 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" 2019-cu il 18 iyun tarixli 1268 nömrəli sərəncamlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 mart tarixli 1611 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi və Azərbaycan Respublikası Prezidentinin "Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında" 2018-ci il 13 mart tarixli 3787 nömrəli, "Dövlət qulluqçularının aylıq vəzifə maaşlarının müəyyən edilməsi və "Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 mart tarixli 3787 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" 2019-cu il 18 iyun tarixli 1268 nömrəli sərəncamlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 mart tarixli 1611 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 3, maddə 199; 2023, № 1, maddə 49, № 6, maddə 785) 1 nömrəli Əlavə – "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində, Azərbaycan Respublikasının Xüsusi Tibb Xidmətində və Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidmətində qulluq keçən dövlət qulluqçularının aylıq vəzifə maaşları"nın 1.6-cı bəndinə "şöbə müdiri," sözlərindən sonra "Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi," sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 18 sentyabr 2023-cü**

## Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 440; 2006, № 3, maddə 229, № 6, maddə 498; 2007, № 2, maddələr 86, 101, № 3, maddələr 217, 227, № 7, maddə 714, № 9, maddə 867, № 10, maddə 948, № 12, maddə 1242; 2008, № 1, maddə 9, № 3, maddələr 173, 179, № 6, maddə 499, № 8, maddələr 717, 723; 2009, № 2, maddə 66, № 6, maddələr 419, 421, 422; 2010, № 2, maddə 80, № 3, maddə 183, № 10, maddə 850; 2011, № 2, maddə 85; 2012, № 11, maddə 1078; 2013, № 3, maddə 236, № 8, maddə 901; 2014, № 9, maddə 1027; 2016, № 5, maddə 854, № 6, maddələr 1029, 1073; 2017, № 5, maddə 840, № 8, maddələr 1519, 1521; 2018, № 7 (I kitab), maddələr 1445, 1486, № 11, maddə 2287; 2019, № 1, maddə 76, № 4, maddə 655, № 6, maddə 1027, № 7, maddə 1211, № 8, maddə 1405; 2020, № 4, maddə 423, № 6, maddə 708; 2021, № 2, maddələr 121, 133, № 7, maddə 744, № 9, maddə 982; 2022, № 1, maddə 27, № 4, maddə 303; 2023, № 1, maddə 50, № 4, maddə 480, № 6, maddə 784) ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.9.9-1–1.9.9-5-ci yarımbəndlər müvafiq olaraq 1.9.9-2–1.9.9-6-cı yarımbəndlər hesab olunsun və aşağıdakı məzmunda 1.9.9-1-ci yarımbənd əlavə edilsin:

"1.9.9-1. Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi;".

2. 2.1.2-ci yarımbəndin 8-1– 8-5-ci abzasları müvafiq olaraq 8-2–8-6-cı abzaslar hesab olunsun və həmin yarımbəndə aşağıdakı məzmunda 8-1-ci abzas əlavə edilsin:

"8-1. Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 18 sentyabr 2023-cü**

# Kuba ilə Azərbaycan arasında siyasi əlaqələr yaxşı səviyyədədir



**Milli Məclisin Sədri Sahibə Qafarova Kuba Respublikasına işgüzar səfəri çərçivəsində bu ölkənin Xalq Hakimiyyəti Milli Assambleyasının Sədri Xuan Esteban Lazo Hernandeslə görüşüb.**

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Assambleyanın Sədri Kuba Respublikasında keçirilən G77 və Çin Sammitində iştirakına görə Sahibə Qafarovaya təşəkkürünü bildirib. Qeyd edib ki, Azərbaycanla Kuba arasında dostluq münasibətləri mövcuddur. Bu il Kuba Respublikasının vitse-prezidenti Salvador Antonio Valdes Mesanın Azərbaycana səfəri zamanı yüksək səviyyəli qonaqpərvərlik göstərilməsi bunun əyani sübutudur. Qeyd olunub ki, son illər Kubadan Azərbaycana rəsmi səfərlər artıb. Bu il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 31-ci ildönümü tamam olub. Azərbaycan və Kubanı ənənəvi dostluq münasibətləri birləşdirir. Ölkələrimiz arasında siyasi əlaqələr yaxşı səviyyədədir. O, Azərbaycanın beynəlxalq təşkilatlar çərçivəsində Kubaya dəstəyinin ölkəsi tərəfindən çox yüksək qiymətləndirildiyini xüsusi vurğulayıb.

Bu il Azərbaycanda Heydər Əliyevin 100 illiyinin qeyd olunduğu diqqətə çatdırılıb və Kuba Respublikasının keçmiş rəhbəri Fidel Kastro ilə ulu öndər Heydər Əliyev arasındakı dostluq münasibətləri xatırlanıb. Görüşdə 1970-80-ci illərdə Azərbaycanda kubalı tələbələrin təhsil aldığı qeyd edilərək, bunun xalqlarımız arasında dostluq münasibətlərinin göstəricisi olduğu diqqətə çatdırılıb. Həmçinin, bildirilib ki, Azərbaycanın Kubada səfirliyinin açılması bu ölkədə məmnunluqla qarşılanıb və bunun münasibətlərin inkişafına təkan verəcəyi deyilib.

Kuba hökumətinin Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduğu nəzərə çatdırılıb, ikitərəfli münasibətlərin dərinləşməsində səhiyyə, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlıq üçün geniş imkanların mövcudluğu qeyd olunub. Görüş zamanı Kuba parlamentinin də, öz növbəsində, bu məsələdə öz dəstəyini əsirgəməyəcəyi diqqətə çatdırılıb. Parlamentlərarası əlaqələri inkişaf etdirmək məqsədilə parlamentlərin dostluq qruplarının qarşılıqlı səfərlərinin təşkil olunması, əlaqələrin genişləndirilməsi, komitələr arasında münasibətlərin inkişafının mümkünlüyü vurğulanıb.

Göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən Sahibə Qafarova Kubanın evsahibliyi etdiyi sammitin əhəmiyyətini qeyd edərək bildirib ki, G77 çoxtərəfli əməkdaşlıq və üzv dövlətlərin qarşılıqlı dəstəyi üçün mühüm platformadır. Eyni zamanda, bu sammit ikitərəfli münasibətlərə dair məsələlərin müzakirəsi üçün yaxşı fürsətdir. O, bu səfərin ölkələrimiz və xalqlarımız arasında dostluq münasibətlərinin daha da möhkəmləndirilməsinə və genişlənməsinə töhfə verəcəyinə əminliyini bildirib.

S.Qafarova bildirib ki, Azərbaycan və Kuba beynəlxalq təşkilatlarda, o cümlədən, BMT və Qoşulmama Hərəkatında həmişə bir-birini dəstəkləyirlər. O cümlədən Kubanın Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində irəli sürdüyü təşəbbüsləri həmişə dəstəklədiyi qeyd edilib.

Parlamentin Sədri qarşı tərəf, həmçinin regionda mövcud olan vəziyyət, Azərbaycanın sülh təşəbbüsləri, Ermənistanın hərbi-siyasi təxribatları barədə də geniş məlumat verib.

**Əliqismət BƏDƏLOV**
**XQ**

# "Humanitar böhran" avantürası məngənədə

## Ağdamdan Xankəndiyə "sülh daşınmalıdır"

(əvvəli 1-ci səhifədə)

Bəli, ölkəmizin qətiyyətli davranışı ənənəvi stereotipləri sıradan çıxarır. Onu da nəzərə alaq ki, yalnız Laçın–Xankəndi yolunun fəaliyyət göstərməsi, eyni zamanda, bölgənin Ermənistana məxsusluğu baxışını da formalaşdırırdı. Onilliklər ərzində də belə olmuşdu. İndi isə o yolda Azərbaycana məxsus sərhəd nəzarəti tətbiq edilir. Yəni, BQXK-nin Ermənistan tərəfdən gələn humanitar yardımı da həmin sərhəd postunda keçərək ünvanına yetişir. Separatçı rejimin Ağdam–Xankəndi yoluna düzdükləri beton plitələr isə artıq yoxdur. Bu, həmin rejimin özünün də yoxa çıxarılması yolunda son dərəcə əhəmiyyətli hadisədir.

Əvvəldəki sualımızı bir qədər fərqli formada ünvanlayaq: Bundan sonra nə olmalıdır? Cavabı Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev verir: "Maskalar düşür, reallıq qalır"! Azərbaycanda boz zonalara yer yoxdur!" Laçın–Xankəndi və Ağdam–Xankəndi yolunun eyni anda BQXK-nin yük avtomobilləri üçün açılması ilə bağlı X sosial şəbəkəsində paylaşım edən Prezidentin köməkçisi ölkəmizin əsas hədəfini açıqlayır. O hədəfi ki, Ermənistan rəhbərliyi və dünya ermənipərəstləri ölkəmizin ona çatmağını əngəlləmək üçün müxtəlif "arqumentlər" uydurmaqdadırlar.

Bəli, Qarabağda humanitar böhran şousu da diqqəti əsas məsələlərdən yayındırmaq yönümlü uydurmadır. H. Hacıyev elə bu səbəbdən də bildirir: "Bütün beynəlxalq ictimaiyyət bir daha şahidi oldu ki, blokada deyilən bir şey yox idi, ancaq Ermənistan və qeyri-qanuni marionet rejimi, lobbi qrupları və bəzi qərbli korrupsioner siyasətçilər və qərəzli KİV tərəfindən xalqı yanıltmaq, manipulyasiya etmək və çaşdırmaq məqsədi ilə humanitar məsələlərin siyasiləşdirilməsi var idi!"

Qarabağda humanitar böhran yoxdursa və məsələ tamamilə bitibsə, o zaman qarşıda iki yol görünür: ya sülh, ya da müharibə. Məsələni bu qədər konkret qoymağımızda səbəb var. Birincisi, onsuz da bölgə müstəvisində bıçaq sümüyə dirənib. İrəvan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın şərtlərinə məhəl qoymur, öz qoşunlarını Qarabağdan çıxarmır. İkincisi, Ermənistan hərəkətləri ilə ərazidəki separatçı rejimin legitimliyi ilə bağlı təəssürat formalaşdırır. Məsələn, baş nazir Nikol Paşinyanın sözügedən rejimdən söz açarkən "seçkili hakimiyyət" fikrini dilə gətirdiyi məlumdur. Yəni, bir tərəfdən Azərbaycanın Qarabağ da daxil olmaqla ərazi bütövlüyünü tanıyan Nikol digər tərəfdən, belə yolverilməz leksikondan istifadə edir. Üçüncüsü, Paşinyan, ümumən, Azərbaycan – Ermənistan münasibətlərinin nizamlanması üzrə danışıqların predmetinə, sülh gündəliyinə yad ritorikadan yararlanır. Daim anti-Azərbaycan motivli hərəkət və davranışlar gerçəkləşdirir, bu və ya digər yollarla çalışır ki, beynəlxalq ictimaiyyətin ölkəmizə qarşı antipatiyası formalaşsın, vəziyyətdən istifadə edərək reallıqları dəyişsin.

Qarabağ ermənilərinə humanitar yardımın daşınması təmin edilirsə, o zaman Ermənistan rəhbərliyinin və dünya ermənipərəstlərinin "Laçın dəhlizinin açılması"na dair beynəlxalq müstəvidə qaldırdıqları məsələ də əhəmiyyətini itirməkdədir. Nəzəri cəhətdən düşünülə bilər ki, yerli əhali sıxıntı çəkmirsə, deməli, nəyə görə həmin



yol taybatay açıq olmalıdır? Qarabağ Azərbaycanın ərazisidirsə, hansı məntiqlə Laçın yolunda Azərbaycanın sərhəd nəzarəti tətbiq edilməməlidir? Edilməlidir və edilir də.

Digər yandan, artıq Qarabağ ermənilərinə qarşı etnik təmizləmə və soyqırımı kimi iddialar da əhəmiyyətini itirməkdədir. Erməniпərəstlərin Luis Moreno Okampo, Xuan Mendes kimi dələduz hüquq ekspertlərinin, o cümlədən, Bob Menendez kimi erməni əsilli həyat yoldaşının sözü ilə ABŞ Senatında müzakirələr təşkil edən senatorların da "xidmətlərindən" imtinası şərtdir. Paşinyan administrasiyasının sözügedən şəxslərin dediklərini beynəlxalq platformalarda təbliğini dayandırması da, həmçinin.

Daha vacib bir məqam var. Ağdam–Xankəndi yolunun açılmasını həm də Qarabağ ermənilərinin Azərbaycana reinteqrasiyasının başlanğıcı kimi qiymətləndirmək mümkündür. Onlar ölkəmizin tamhüquqlu vətəndaşı olaraq özlərini göstərməlidirlər. Bu andan başlayaraq həmin erməni sakinlər üçün geriyə sayım başladı. Ya barələrində "hökm" çıxarılmış separatçıların qurduqları məkrli planlarda alətə çevrilməmək, Azərbaycanın yurisdiksiyasında yaşamaq, yaxud bölgəni tərk edib getmək. Üçüncü yol yoxdur.

Bəli, zaman gerçəkliklə üzləşmə zamanıdır. Ən böyük gerçəklik isə sülhdür. Qalır məsələnin dərk edilməsi. Sülh isə Qarabağdakı separatçı rejimin tamamilə sıradan çıxması ilə mümkündür. Cənab H.Hacıyev sülh müqaviləsinin 2023-cü ilin sonunadək imzalanacağına ümid etdiyini bildirib. Mövcud xüsusda beynəlxalq vasitəçilərin fəaliyyətinə toxunan Prezidentin köməkçisi onların işini yüksək qiymətləndirdiyini bildirməklə, Azərbaycan–Ermənistan nizamlanması prosesinin qaldığı yerdən davamının zəruriliyinə eyham vurur. O, danışıqların hər bir formasının ümumilikdə özünəməxsus şəkildə unikallığını və Bakı ilə İrəvan arasında ən problemli məsələlər üzrə dialoqların aparılmasına kömək etdiyini diqqətə çatdırır: "Beynəlxalq vasitəçilərin fəaliyyətinə gəlincə, biz onların Azərbaycan–Ermənistan münasibətlərinin normallaşmasına verdiyi töhfəni yüksək qiymətləndiririk. Azərbaycan hələ də cari ilin sonuna qədər sülh müqaviləsinin imzalanacağına ümid edir və Ermənistanın siyasi rəhbərliyini əsas addımı atmağa çağırırıq. Ermənistan sülh müqaviləsinə imza ataraq Azərbaycanın ərazi bütövlüyünü, ölkəmizin Qarabağ iqtisadi rayonu da daxil olmaqla, rəsmi şəkildə tanısın, gələcəkdə Azərbaycanın daxili işlərinə qarışmaqdan çəkinmək barədə üzərinə öhdəlik götürsün".

Sonda bir daha bildirək ki, Ağdam–Xankəndi yolunun fəaliyyətə başlaması Azərbaycanın ciddi uğuru və direnişinin nəticəsidir. Heç şübhəsiz, bu, Ermənistan rəhbərliyi üçün ciddi siqnal olmalıdır. Paşinyan administrasiyası bilməlidir ki, dünya erməniпərəstlərinin, müxtəlif maraqlı qütblərin mənasız dəstəyinə bel bağlayıb avantürist niyyətlər gerçəkləşdirməyin heç bir faydası olmayacaq. Nikol və tərəfdarları onu da yaxşı anlamalıdırlar ki, bundan sonra danışıqlar prosesində hansısa manipulyasiya, yeni nələrinsə qondarılması sonda çox qorxduqları güc tətbiqinə əsas yaradacaqdır. Çünki Azərbaycanın öz ərazisinin separatçılıq meydanı kimi istifadəsinə dözmək limiti bitib.

***Ə.CAHANGİROĞLU***
***XQ***



# Ərdoğanın yeni təşəbbüsü nə vəd edir?

## *Dördtərəfli görüşün keçirilməsi təklifi region dövlətlərinin və xalqlarının mənafeyinə uyğundur*

(əvvəli 1-ci səhifədə)

Qeyd edək ki, sentyabrın 11-də Türkiyə Prezidenti ilə Ermənistan baş naziri arasında telefon danışığı olmuşdu. Telefon danışığı zamanı Türkiyə–Ermənistan münasibətləri və regional məsələlər müzakirə edilmişdi. Türkiyə Cümhuriyyəti cumhurbaşqanlığının kommunikasiya müdirliyinin bununla bağlı yaydığı məlumatda qeyd olunurdu ki, görüşdə Türkiyə–Ermənistan münasibətləri və regional məsələlər müzakirə edilib. Görüş zamanı iki lider regionda daimi sülh və sabitliyin bərqərar olmasının region ölkələrinin inkişafına və rifahına töhfə verəcəyini vurğulayıb və bu istiqamətdə diplomatik səyləri davam etdirəcəklərini bildiriblər.

Qeyd etdiyimiz kimi, Türkiyə regionda hər zaman sülh və sabitliyin tərəfdarı olub. Ankaranın siyasətinin qayəsində bu dayanır. Eyni zamanda, Türkiyə Azərbaycanın təşəbbüslərini də dəstəkləyib. Bunun ən bariz nümunəsi Vətən müharibəsindən sonra ölkəmizin irəli sürdüyü 3+3 formatının (Azərbaycan, Ermənistan, Gürcüstan, İran, Rusiya, Türkiyə) dəstəklənməsini göstərmək olar. Bu, Cənubi Qafqazda uzunmüddətli sülhün və təhlükəsizliyin yaradılması, onun qorunub-saxlanması və çoxtərəfli əməkdaşlıq əsasında iqtisadi inkişafa nail olunması üçün yeni unikal əməkdaşlıq platforması idi. Rusiya Prezidenti Vladimir Putin bu təşəbbüsü birmənalı şəkildə dəstəkləməklə Moskvanın öz geosiyasi və geoiqtisadi maraqlarını Ermənistanın təcavüzkar siyasətinin girovuna çevirmək istəmədiyini nümayiş etdirmişdi. Regionda öz maraqlarını qoruyub saxlamağa çalışan Tehran da belə səmərəli təklifi dəstəkləyərək, çoxtərəfli əməkdaşlığın İrana verə biləcəyi dividendlərin səviyyəsini düzgün qiymətləndirmişdi. Təəssüf ki, Gürcüstan–Rusiya münasibətlərində mövcud olan problemlər, həmçinin İranın ölkəmizə qarşı yürütdüyü qeyri-dost siyasət bu platformada əməkdaşlıq imkanlarını minimuma endirdi. Ancaq region ölkələri arasında əməkdaşlıq tarixi zərurətdir.

Vaxtilə İngiltərə və Fransa yüzillik müharibə aparıblar. "Qoca qitə" XX əsrdə iki dünya müharibəsinin əsas savaş meydanı oldu. Sonra Avropa ölkələri müharibələrin problemlərin həllinin çıxış yolu olmadığını anladılar. Belçika, Almaniya Federativ Respublikası, Niderland, Lüksemburq, Fransa və İtaliya 1951-ci ildə sonradan genişlənməklə Avropa İttifaqına çevrilən Avropa Kömür və Polad Birliyini yaratdılar. Müharibədən çıxmış Cənubi Qafqazı da məhz belə bir tale gözləməlidir. Ermənistan özünün destruktiv mövqeyindən əl çəkməli, İran qeyri-dost davranışdan geri durmalı və Cənubi Qafqazın çiçəklənən regiona çevrilməsinə əngəl olmamalıdırlar. Azərbaycanın irəli sürdüyü 3+3 formatının, habelə Türkiyə Prezidentinin dördtərəfli formatda görüş keçirilməsi təklifinin mahiyyətində də bu dayanır.

ABŞ-ın qurucularından olan Benjamin Franklinin Böyük Britaniya ilə sülh müqaviləsi imzalandıqdan sonra dediyi sözlər bu gün də aktualdır: "Yaxşı müharibə və pis sülh heç vaxt olmayıb. Sülh hər zaman ən yaxşı seçimdir, millətlərin sərbəst inkişafı üçün tamamilə ideal bir vəziyyətdir". Bəli, indi Türkiyə və Azərbaycanda da regionda sülhün əldə olunması istiqamətində səylər göstərirlər. Bu məqsədlə müxtəlif təşəbbüslərlə çıxış edirlər. Ümumən, müzakirə hər zaman yaxşılığın əlamətidir. İnsanlar susduğu zaman silahlar "dilə" gəlir. Müzakirələrin aparılması mümkün toqquşmaların qarşısının alınması deməkdir. Cənab Ərdoğanın təşəbbüsünə bu nöqteyi-nəzərdən yanaşılmalı və Ermənistan rəhbəri orada iştirakdan imtina etməməlidir.

Bundan əlavə, region ölkələri öz problemlərini özləri həll etməlidir. Fransanın timsalında kənardan moderatorluq etməyə çalışanlar regionda sülhdə bizim qədər maraqlı ola bilməzlər. Rəsmi Paris Ermənistanı qızışdıraraq, açıq-aşkar destruktiv rol oynayır. Təəssüf ki, son vaxtlar ABŞ-də da ona qoşulanlar tapılıb. Bu baxımdan cənab Ərdoğanın təklifinin müsbət olduğu göz önündədir. Əgər rəsmi İrəvan suları bulandırmaq istəmirsə, sülhdə səmimidirsə, bu həqiqəti anlamalıdır.

***

Bu istiqamətdə fikirlərini "Xalq qəzeti" ilə bölüşən Türkiyənin Azərbaycandakı sabiq hərbi attaşesi, ehtiyatda olan general-mayor Yücel Karauz bildirib ki, 2023-cü il sentyabrın 10-da Azərbaycanın Vətən müharibəsindəki qələbəsinin və üçtərəfli bəyanatın imzalanmasının 34 ayı tamam



oldu. Onun sözlərinə görə, ötən 34 ayda Azərbaycan sülhə, diplomatiyaya, insanlığa, mərhəmətə uyğun olaraq qalib dövlət kimi, məsələnin tənzimlənməsi üçün Türkiyə ilə əl-ələ verərək, bütün mümkün təşəbbüsləri edib: "Fəqət ötən 34 ay ərzində məsələ daha dolaşıq, daha çox ölkənin və beynəlxalq təşkilatın cəlb olunduğu hala gəlib. Bu vəziyyətdə məsələnin həlli mümkün görünmür. Çünki çoxtərəfli problemin həlli mümkün deyil. Hər dövlət özünün imperialist mənafeyini və mənfəətini güdüb siyasət yürüdərək məsələyə yanaşır. Burada nə erməniləri, nə də Ermənistanı düşünürlər. Burada yeganə məqsəd yüz illərdir yeritdikləri siyasətin davamı olaraq, status-kvonu saxlamaqdır".

Y.Karauz deyib ki, buna görə də Türkiyə Prezidentinin dördtərəfli platformada görüş keçirilməsi, məsələni tezliklə həll etmək üçün yeni təşəbbüslə çıxış etməsi doğru-düzgün çıxış yoludur: "Təbii ki, şəxsi mənfəətlərinə görə, bu varianta qarşı çıxan region və regiondan kənar dövlətlər, qruplar olacaq. İlk növbədə, ABŞ buna qarşı çıxacaq. Vaşinqton İrəvanla birgə keçirdiyi hərbi təlimlərlə Cənubi Qafqazda möhkəmlənməyə doğru daha bir addım atıb. İndi burada mövcudluğunu daimi hala gətirməyə çalışır. Burada da ABŞ-nin marağı Ermənistan və ermənilər deyil, Rusiyanı cənubdan necə deyərlər, mühasirəyə almaq, Moskvanı narahat edəcək vəziyyət yaratmaq və sonrakı həmləleri üçün strateji üstünlüyü təmin etməkdir. Fransa erməniрərəst dövlət kimi özünü dünyanın sahibi zənn edir. İkinci Dünya müharibəsindən sonra yaradılan BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvü qalan 185 ölkəni dövlət hesab etmir. Fransa Avropa İttifaqında da belə düşüncələrin yaranmasına yol açıb".

Müsahibimiz hesab edir ki, digər ən önəmli faktorlardan biri də İrandır. Onun fikrincə, Tehran bu platformaya çox şiddətli reaksiya göstərəcək: "İrandan verilən açıqlamalar, Azərbaycan torpaqlarının işğalda olduğu 30 ilə yaxın vaxt ərzində, həmçinin işğaldan sonra ədalətsiz mövqe nümayiş etdirdiyi, əl altından işlər gördüyü ortadadır. Dolayısı ilə İran dördtərəfli platformanın uğursuz olması üçün əlindən gələn hər cür fəaliyyəti göstərəcək".

Ehtiyatda olan general-mayor hesab edir ki, əslində, ən düzgün çıxış yolu Azərbaycan və Ermənistanın aralarındakı problemi beynəlxalq hüquq çərçivəsində Türkiyə və Rusiyanın vasitəçiliyi ilə ədalətli şəkildə həll etməsi, davamlı sülh əldə etmələridir: "Bunun olmayacağı, üçtərəfli saziş yerinə yetirilməyəcəyi təqdirdə, təbii ki, Azərbaycanın səbrinin bir həddi var. Ondan sonra Azərbaycan öz məsələsini özü həll edəcək. Burada itirən Ermənistan və erməni xalqı olacaq. Çünki səfalət, pərişanlıq, əhalinin sayının azalması, orduya getmək istəməyən və Laçın yolu ilə Qarabağı tərk edən gənc erməni gənclərinin ruhunu çox yaxşı ifadə edir".

Yücel Karauz Ərdoğanın Nyu-Yorkdan qayıtmasından sonra dördtərəfli platformada görüşün keçirilməsi üçün diplomatik fəallığın artacağını düşünür: "Türkiyə hər zaman olduğu kimi, Azərbaycanın ərazi bütövlüyünü müdafiə etməkdə, qardaş ölkənin haqq və mənfəətləri haradadırsa, orada dayanmaqda davam edəcək".

***

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri Fərid Şəfiyev isə qəzetimizə açıqlamasında deyib: "Türkiyə Prezidentinin təklifi ondan irəli gəlir ki, region ölkələri öz talelərini məhz özləri həll etməlidirlər. Paşinyan bu yaxınlarda Ərdoğana zəng etmişdi. O, çox güman ki, Türkiyə liderindən proseslərə təsir göstərməyi xahiş edib. Məncə, dördtərəfli görüşün keçirilməsi təklifi buradan irəli gəlib. Eyni zamanda Ərdoğan daha sonra Rusiya barədə danışıb. Reallıq bundan ibarətdir ki, Rusiyanın sülhməramlı qüvvələri Qarabağda yerləşib. Rusiyasız burada nəyisə müzakirə etmək bir qədər çətindir".



F.Şəfiyev qeyd edib ki, Azərbaycanın Qərb ölkələrinin prosesə töhfəsini qəbul etmədiyini demək mümkün deyil: "Biz Şarl Mişellə, ABŞ ilə çox sıx işləmişik. Vaşinqtondan Yuri Kimin verdiyi son bəyanat isə göstərir ki, onlar daha çox Ermənistanın mövqeyini dəstəkləyirlər. Senatda olan çıxışlar, xüsusilə birtərəfli ittihamlar ABŞ-nin neytral vasitəçiliyini şübhə altına alır".

Qeyd edək ki, sentyabrın 17-də İrəvanda jurnalistlərin suallarını cavablandıran Nikol Paşinyan Ərdoğanın dördtərəfli görüşlə bağlı təşəbbüsünə münasibət bildirərkən, məsələnin mürəkkəb olduğunu deyib. Fərid Şəfiyev buna əsaslanaraq güman edir ki, Paşinyan dördtərəfli görüşün keçirilməsində maraqlı deyil: "Ermənistan baş naziri Rusiya ilə görüşmək istəmir. Hər halda ermənilər müəyyən dərəcədə şou göstərirlər ki, onların Rusiya ilə əlaqələri pozulub və Qərbin müdaxiləsinə ehtiyac var. Ona görə də mən Paşinyanın dördtərəfli görüş formatını qəbul edəcəyinə şübhə ilə yanaşıram".

Türkiyə Prezidentinin təklifinə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun Avro-Atlantika Təhlükəsizliyi Mərkəzinin aparıcı elmi işçisi Sergey Markedonov da münasibət bildirib. O, özünün teleqram kanalında yazıb: "Bu gün vəziyyət fərqlidir.



Ermənistan zəifdir və ruhdan düşüb, Qərb və Rusiya Qarabağ uğrunda Dnestryanı və ya Abxaziyadan az rəqabət aparırlar. Amma eyni zamanda, Moskva Ankaradan və Azərbaycan–Türkiyə tandemindən 2022-ci ilə nisbətən daha çox asılıdır. Deyək ki, siyasi-iqtisadi mənada Türkiyənin fikri bir-iki il əvvəlkinə nisbətən daha çox nəzərə alınmalıdır. Qərbin Rusiyasız Qafqaza həqiqətən ehtiyacı var, lakin Vaşinqton və Brüssel Qafqazı NATO-dakı müttəfiqləri olan Türkiyəyə vermək də istəmirlər".

Rusiyalı analitik qeyd edib ki, əvvəllər Qarabağla bağlı danışıqların eksklüziv formatı var idi. Rusiya bu formatda (Minsk qrupu nəzərdə tutulur-S.H.) təmsil olunurdu. Bu gün isə Rusiya öz eksklüzivliyini böyük ölçüdə itirib. Markedonovun fikrincə, bütün bunlar Türkiyənin xeyrinə oynayır və bu şəraitdən istifadə etməmək Ankara üçün günah olardı.

***Səxavət HƏMİD***
***XQ***

Xarici diplomatlar üçün brifinq

# Azərbaycanın Qarabağda növbəti hədəfləri



(əvvəli 1-ci səhifədə)

Brifinqdə, həmçinin bildirilib ki, Türkiyə, Pakistan, Ukrayna, Böyük Britaniya, Gürcüstan, Moldova, Rumıniya, Macarıstan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Almaniya, ABŞ, İran, habelə Birləşmiş Millətlər Təşkilatı, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və Avropa İttifaqı kimi beynəlxalq təşkilatlar bəyanat verərək qondarma və qanunsuz "seçkiləri" pisləyib, onun legitimliyini tanımayıb.

Tədbirdə beynəlxalq hüququ dəstəkləyən və Ermənistan tərəfinin bu qanunsuz, qeyri-legitim və təxribat xarakterli addımına qarşı açıq şəkildə çıxış edən bütün dövlətlərə və beynəlxalq təşkilatlara təşəkkür ifadə olunub.

Diqqətə çatdırılıb ki, son bir neçə ay ərzində cəlb olunmuş bir sıra tərəfdaşlar, xüsusilə də Rusiya Federasiyası, ABŞ və Avropa İttifaqı vasitəsilə Ağdam–Xankəndi və Laçın–Xankəndi yollarından eyni zamanda istifadə etməklə erməni sakinlərə yüklərin çatdırılmasına yönəlmiş səylər davam etdirilib.

Vurğulanıb ki, heç bir istisna olmadan bütün tərəfdaşlar bütün diplomatik müzakirələr zamanı Laçından və Ağdamdan eyni zamanda keçidin mövcud vəziyyətin legitim və ağlabatan həll yolu olduğunu təsdiqləyiblər;

Qeyd etmək lazımdır ki, eyni zamanda keçid üçün çağırışlar ABŞ Dövlət Departamentinin, Rusiya XİN-in, Avropa İttifaqı Şurasının Prezidentinin mətbuat katibinin verdiyi bəyanatlarda, habelə ATƏT-in Daimi Şurasının 12 sentyabr tarixli görüşü zamanı çıxışlarda səsləndirilib.

Sentyabrın 12-də uzun müddət davam edən müzakirələrdən və yubanmalardan sonra Rusiya Qızıl Xaç Cəmiyyətinin yük avtomobilinin Ağdamdan Xankəndiyə keçidinin təmin olunduğu diqqətə çatdırılıb. Qeyd edilib ki, bunun aylardır müzakirə olunan eyni zamanda keçidlərin həyata keçirilməsi üçün bir təkan olacağı ilə bağlı bütün cəlb olunmuş tərəflərin ortaq gözləntisi olsa da, bu ümidlər bir daha boşa çıxdı.

Brifinqdə, həmçinin aşağıdakı məqamlara diqqət çəkilib.

Sentyabrın 10-da ABŞ və digər tərəfdaşlar ilə yüksək səviyyəli təmaslar zamanı Azərbaycan tərəfi Laçından keçid zamanı Azərbaycanın milli sərhəd və gömrük nəzarət tələblərinin yerinə yetirilməsilə BQXK tərəfindən Laçın və Ağdamdan eyni zamanda keçid variantında sadiq olduğunu bir daha bildirib.

Sentyabrın 11-də BQXK tərəfindən yüklərin daşınmasına dair müvafiq müraciətlər aldıqdan qısa müddət sonra Azərbaycan tərəfi sözügedən yüklərin müraciətlərdə göstərildiyi kimi keçidinə şərait yaradılmasına hazır olduğunu bildirib və BQXK-dan eyni zamanda keçidin təşkil olunacağı tarix və vaxtın bildirilməsini sorğu edib. Buna cavab olaraq BQXK Azərbaycan tərəfinə bildirib ki, ermənilər tərəfindən yüklərin qəbul edilməsi və BQXK konvoylarının təhlükəsizliyinin təmin edilməsinə dair "yaşıl işıq" yoxdur.

Azərbaycan cəlb olunmuş beynəlxalq tərəfdaşların müraciətlərini davamlı və xoş niyyətlə cavablandıraraq Laçın və Ağdamdan eyni zamanda keçid üçün müxtəlif variantları nəzərdən keçirsə də, Ermənistan tərəfi davamlı şəkildə razılaşmalardan geri çəkildi və yeni bəhanələr irəli sürdü.

Ermənistan tərəfinin sözügedən yolların açılmasına davamlı etirazı yalnız siyasi xarakter daşıyır və hər hansı "humanitar böhran" məsələsilə heç bir əlaqəsi yoxdur.

Bu xüsusda, ABŞ Senatında bu yaxınlarda keçirilən ictimai dinləmə erməni lobbisini razı salmaq üçün təşkil edilmiş şoudan savayı bir şey deyildi. Təəssüf ki, Dövlət Departamentinin nümayəndəsi də erməni lobbiçilərinin təşviq etdiyi birtərəfli anti-Azərbaycan bəyanatlarına qoşulub.

Gömrük nəzarəti tələbləri də daxil olmaqla Azərbaycan qanunvericiliyinə riayət etməklə Laçın və Ağdam yollarından eyni zamanda keçid məsələsi artıq bir neçə həftədir ki, ABŞ tərəfi ilə müxtəlif səviyyələrdə müzakirə edilib. Bu səbəbdən, indiki çıxılmaz vəziyyətin səbəbi ABŞ tərəfi üçün aydındır. Buna baxmayaraq, ABŞ Senatında verilən ifadə saxta erməni fikirlərini təkrarlayıb;

İyulun 15-də liderlərin Brüssel görüşündə və sentyabrın 1-də Azərbaycan Respublikası Prezidenti ilə ABŞ Dövlət katibi arasında telefon danışığında müzakirə edildiyi kimi, Azərbaycan həmişə hər iki yolun ardıcıl və paralel istifadəsini asanlaşdırmağa hazır olub. Lakin bir neçə aydır ki, erməni tərəfinin həllə biganəliyi, humanitar yardımın davamlı siyasiləşdirilməsi, separatizm və ayrılmaya rəvac verməsi səbəbindən baş tutmayıb. Digər səbəb isə Azərbaycanı tamamilə əsassız olan qondarma humanitar böhran yaratmaqda ittiham etmək idi. Təəssüf ki, bəzi ölkələrin siyasi dairələrinin bəzi üzvləri özlərini bu saxta ittihamlarla əlaqələndiriblər.

Sentyabrın 17-də Ermənistan tərəfinin Ağdam–Xankəndi və Laçın–Xankəndi yollarından paralel keçidlə malların qəbuluna razılıq verməsinə dair BQXK-dan ilkin məlumat aldıq. Bu gün BQXK-nın keçidlə bağlı şifahi notasını aldıqdan sonra saat 7-də biz BQXK-nın iki avtomobilinin biri Ağdam-Xankəndi, digəri isə Laçın-Xankəndi yolu ilə eyni vaxtda keçidini təşkil edə bildik ki, bu da Azərbaycana qarşı "blokada" ittihamlarının heç bir əsası olmadığını nümayiş etdirdi.

Eyni zamanda, yüklərin çatdırılması məsələsi Ermənistanın Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü hədəf alan hərbi və siyasi təxribatlarının artması hallarından təcrid olunmayıb.

On min nəfərdən çox erməni silahlı qüvvələri qanunsuz olaraq Azərbaycan Respublikasının ərazisində yerləşməkdə davam edir. Yüzdən çox tank və digər zirehli texnika, yaylım atəşli raket sistemləri də daxil olmaqla, iki yüzdən çox ağır artilleriya qurğusu, onlarla müxtəlif radioelektron mübarizə sistemi və iki yüzdən çox minaatan sistem hal-hazırda Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində yerləşdirilib.

Ermənistan öhdəliklərinə zidd olaraq bu qüvvələri texniki, hərbi, logistik və maliyyə dəstəyi ilə təmin edir. Azərbaycan ərazisindəki silahlı birləşmələr birbaşa Ermənistanın dövlət büdcəsindən maliyyələşdirilir. Ermənistan 4-cü bəndində erməni silahlı qüvvələrinin Rusiya Federasiyasının sülhməramlı kontingentinin yerləşdirilməsinə paralel olaraq çıxarılması tələbinin açıq şəkildə ifadə olunduğu 10 noyabr 2020-ci il üçtərəfli Bəyanatını nümayişkaranə şəkildə pozur;

Azərbaycanın suveren ərazilərində qeyri-qanuni yerləşdirilmiş radioelektron mübarizə sistemlərindən istifadə xüsusi narahatlıq doğurur. 13 iyul, 24 iyul, 27 iyul, 21 avqust, 1 sentyabr tarixləri də daxil olmaqla son bir neçə ay ərzində, Azərbaycan Hava Yollarının mülki təyyarələrilə yanaşı, xarici dövlətlərin mülki təyyarələri də radioelektron müdaxiləyə məruz qalıb;

Son günlər həm Azərbaycan və Ermənistan arasında delimitasiya olunmamış sərhəd boyunca, həm də Qarabağ bölgəsində hərbi mühəndislik işlərinin və digər hərbi quruculuq fəaliyyətinin artması ilə müşayiət olunan hərbi təxribatların intensivləşməsi müşahidə olunur. Ermənistan açıq şəkildə növbəti hərbi hücum etmək üçün yeni səngərlər qazır, istehkamlar qurur, şəxsi heyət və texnika toplayır.

Ermənistan Azərbaycan ərazisində yeni minalar basdırmağa davam edir. Qeyd etmək lazımdır ki, ötən ilin avqustundan etibarən 2021-ci ildə Ermənistanda istehsal olunmuş 2728 mina aşkarlanıb və zərərsizləşdirilib. Bunların 1119-u Azərbaycan və Ermənistan arasında sərhəd ərazisində, Kəlbəcər və Laçın rayonlarında, 1609-u isə Qarabağ iqtisadi rayonunun ərazisində aşkarlanıb.

Laçın sərhəd-buraxılış məntəqəsinin yaradılmasının səbəblərindən biri sözügedən qeyri-qanuni hərbi fəaliyyətin və qaçaqmalçılığın qarşısının alınması olub.

Azərbaycan ərazilərində qanunsuz qondarma rejimin yaradılmasının ildönümünə dair Ermənistanın baş naziri tərəfindən verilmiş "təbrik məktubu" Ermənistanın Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü tanıması ilə bağlı əvvəl səsləndirilmiş bəyanatların qeyri-səmimi olduğunu bir daha sübut edib.

Əksinə, Ermənistan rəhbərliyinin son bəyanatları və fəaliyyəti əvvəlki bəyanatları əsaslı şəkildə heçə endirib.

Ermənistan tərəfindən Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün sözdə tanınmasına baxmayaraq, onun müxtəlif beynəlxalq təşkilatlar yanında akkreditə olunmuş diplomatik missiyaları qeyri-qanuni qondarma rejim adından sənədlər yaymaqda davam edir.

Azərbaycanın suverenliyi və ərazi bütövlüyü istənilən ölkəninki qədər vacibdir. Azərbaycan dünyanın istənilən ölkəsi kimi beynəlxalq hüquqda əks edilmiş bütün vasitələrlə öz suverenliyini və ərazi bütövlüyünü müdafiə etmək hüququna malikdir.

Bu vacib məqamda Ermənistanı öz təhlükəli yolundan döndərməyə məcbur etmək həmişəkindən daha mühümdür və daha çox tələb olunur.

Ermənistan və onun Azərbaycanın suveren ərazilərində bütün mümkün ideoloji, siyasi, hərbi, maliyyə və digər vasitələrlə qoruyub saxladığı xunta vaxt qazanmağa yönəlmiş köhnə taktikaya arxalanmağın heç bir nəticə verməyəcəyinə dair beynəlxalq ictimaiyyətin vahid və aydın mövqeyi ilə üzləşməlidir.

Azərbaycan Ermənistandan hərbi quruculuq fəaliyyətini dayandırmasını, revanşist planlardan əl çəkməsini, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü pozmağı dayandırmasını və Azərbaycanın Qarabağ bölgəsində separatizm və terrorizmi dəstəkləməkdən əl çəkməsini tələb edir.

Bununla yanaşı, Azərbaycan Ermənistan silahlı qüvvələrinin şəxsi heyətinin dərhal çıxarılmasını, Ermənistana tabe qondarma rejimin hərbi və qondarma "hökumət" strukturlarının aradan qaldırılmasını və Azərbaycan ərazilərində qanunsuz yerləşdirilmiş Ermənistan silahlı qüvvələrinin tərk-silah edilməsini tələb edir. Bu halda, qondarma rejimin "nümayəndə"lərinə amnistiya tətbiq edilə bilər.

**XQ**

# Şeyxülislam Allahşükür Paşazadə Polşaya dəvət edilib



**Sentyabrın 18-də Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə ölkəmizdə səfərdə olan Polşanın baş müftisi Tomasz Miskievicz ilə görüşüb.**

A.Paşazadə Polşa ilə Azərbaycan arasında mədəni-mənəvi əlaqələrdən bəhs edərək, polyak əsilli Roma Papası II İohan Pavel barədə xatirələrini bölüşüb. A.Paşazadə ulu öndər Heydər Əliyevin dəvəti ilə Vatikan rəhbərinin ilk dəfə Azərbaycana səfərini böyük önəm daşıyan hadisə kimi dəyərləndirib. Bunun ardınca Azərbaycanın dini konfessiya rəhbərlərinin Vatikana səfərinə toxunub, hazırda Müqəddəs Taxt-Tacla münasibətlərin yüksələn xətt üzrə inkişaf etdiyini vurğulayıb.

Polşanın Baş müftisi Tomasz Miskievicz Polşada 100 minlik müsəlman icmasının fəaliyyəti, XIV əsrdən Polşada məskunlaşan türk kökənli etnik azlıqlar olan tatarların öz çoxəsrlik tarixi və dini-mədəni irsini qoruması yönündə səylərindən ətraflı bəhs edib. Azərbaycanla əlaqələrə, o cümlədən, dini-mənəvi sahədə münasibətlərin dərinləşməsinə yüksək dəyər verən baş müfti şeyxülislamı Polşaya səfərə dəvət edib.

**XQ**

# İsrail ilə müdafiə sahəsində əməkdaşlıq yüksək səviyyədədir



**Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan İsrail Dövlətinin Müdafiə Nazirliyinin Baş direktoru Eyal Zamirin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən XQ-yə bildirilib ki, general-polkovnik Z.Həsənov Azərbaycan–İsrail münasibətlərinin hazırkı yüksək səviyyəsindən məmnunluğunu ifadə edib.

Səmimi görüşə görə minnətdarlığını bildirən E.Zamir mövcud əməkdaşlığın daha da genişləndirilməsi baxımından belə görüşlərin və qarşılıqlı səfərlərin vacibliyini diqqətə çatdırıb.

Görüşdə Azərbaycan ilə İsrail arasında müdafiə sahəsində əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

**XQ**

# XİN: Ağdam–Xankəndi və Laçın–Xankəndi yollarından paralel istifadəyə hazırıq

**Azərbaycanla əlaqələndirilmiş şəkildə Laçın–Xankəndi və Ağdam–Xankəndi yollarından paralel istifadə edilməsi təklifi uzun müddətdir ki, Azərbaycan tərəfindən irəlilədilir və müxtəlif səviyyələrdə geniş müzakirə olunurdu. Təəssüf ki, əldə edilmiş razılıqlara və beynəlxalq tərəfdaşların çağırışlarına baxmayaraq, Ermənistan və onun tərəfindən Qarabağ bölgəsində yaradılmış qondarma rejim belə keçidin təşkilinə mane olurdu.**

Bunu XİN-in mətbuat katibi Ayxan Hacızadə Ağdam–Xankəndi və Laçın–Xankəndi yollarından, eyni zamanda istifadə ilə bağlı yerli medianın sualını cavablandırarkən deyib.

"Bu gün BQXK Azərbaycan tərəfinə müraciət edərək qarşı tərəfin sentyabrın 18-də Ağdam–Xankəndi və Laçın–Xankəndi yollarından paralel olaraq yüklərin qəbuluna razı olduğu barədə ilkin məlumat verib. Yaxın zamanlarda BQXK tərəfindən Azərbaycan tərəfinə bu barədə rəsmi nota təqdim edilməsi gözlənilir. Əvvəllər də qeyd edildiyi kimi, Azərbaycan tərəfi ölkəmizin qanunvericiliyinin tələblərinə riayət olunmaqla, Ağdam–Xankəndi və Laçın–Xankəndi yollarından paralel istifadənin təşkilinə hazırdır", – deyə Ayxan Hacızadə qeyd edib.

**XQ**

# Jurnalistlərimiz VIII Xəzər Media Forumunda

**Azərbaycan nümayəndə heyəti Rusiya Federasiyasının Həştərxan şəhərində keçirilən VIII Xəzər Media Forumunda iştirak edir.**



Səfər çərçivəsində nümayəndə heyəti ümummilli lider Heydər Əliyevin adını daşıyan parkda ulu öndərin abidəsini ziyarət edib.

Forum çərçivəsində nümayəndə heyətlərinin rəhbərlərinin görüşü keçirilib. Görüşdə Azərbaycan nümayəndə heyətinin rəhbəri, Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Forum gedişində təşkil olunan konstruktiv və məhsuldar müzakirələrin bu sahədə yeni əməkdaşlıq münasibətlərinin qurulması, mövcud münasibətlərin daha da möhkəmləndirilməsi və gələcəkdə birgə layihələrin həyata keçirilməsində xüsusi əhəmiyyət daşıdığını vurğulayıb, media savadlılığının artırılması, peşəkar media nümayəndələrinin hazırlanması, dezinformasiya ilə mübarizəyə diqqət çəkib.

**XQ**

# Ümummilli liderin təhsil islahatları

**Təməli hələ XIX əsrin sonlarında "Realnı" və "Üsuli –Cədid" məktəbləri ilə qoyulan təhsil sistemi sonrakı illərdə daha da inkişaf etdirilərək müasir səviyyəyə çatdırılıb. Əgər 70-80-ci illərdə yaranan zəngin təhsil ənənələri olmasaydı, bu gün ən qabaqcıl ölkələrdəki təhsil sistemləri ilə rəqabətə girə bilərdikmi? Əsla, yox! Bu uğurlar isə 30 ildən artıq bir müddətdə Azərbaycana rəhbərlik edən mahir siyasətçi Heydər Əliyevin müstəsna xidmətlərinin məhsuludur. Onun Azərbaycana rəhbərlik etdiyi dövr zəngin tariximizin ən parlaq səhifələrindən olmaqla, bütöv bir epoxadır– tariximizin Heydər Əliyev epoxası.**



Zaman insanları daim sınağa çəkir, bərkə-boşa salır. Heydər Əliyevin yüksək dövlət vəzifələrindən müvəqqəti uzaqlaşdırılması onun başladığı və uzun illər boyu həyata keçirdiyi quruculuq işlərinin dayanması ilə nəticələndi. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra təbii şəkildə meydana çıxan çətinliklər həyatın bütün sahələrində olduğu kimi, təhsilə də öz mənfi təsirini göstərməyə bilməzdi. Səksəninci illərin sonları, 90-cı illərin əvvəllərində respublikada həyat bir növ donmuşdu. Bu, bir tərəfdən yaranan tarixi situasiya ilə bağlı idisə, digər tərəfdən ölkəni idarə edən insanların mövcud şəraitdən baş çıxara bilməməsi səriştəsizliyi və təcrübəsizliyi ilə əlaqədar idi. İllər boyu ağır zəhmət bahasına əldə olunan nailiyyətlər, milli-mənəvi dəyərlər bir göz qırpımında yoxa çıxdı. Cəmiyyətdə elmə, təhsilə maraq azaldı. Mədəniyyətimizi, təhsilimizi ayaq üstə saxlayan ümumbəşəri, dünyəvi dayaqlar sındırıldı.Nəticədə Azərbaycan cəmiyyəti dünyada gedən mütərəqqi proseslərdən təcrid edilərək tənəzzülə yuvarlandı.

Ən dəhşətlisi bu idi ki, həmin dövrün üzdəniraq rəhbərləri dialektik qanunların tam ziddinə olaraq, səriştəsizlikləri ucbatından gələcəyi deyil, keçmişi idealizə edir, tarixin təkərini geri fırlatmağa çalışırdılar. Onların bu "donkixotluğu" ona gətirib çıxartdı ki, təhsil sistemi millətini sevən vətənpərvərlər tərbiyə etmək kimi missiyasından məhrum olundu, bunun yerini isə yabancı mədəniyyətlər, xalqın əxlaq tərzinə zidd mənəviyyatlar tutdu.

Yeri gəlmişkən, bu gün ölkəmizin az qala bütün dini konfessiyalar, saysız-hesabsız təriqətlər və sektalar üçün poliqona çevrilməsi səbəblərini də məhz o illərdə atılan səhv addımların izində axtarmaq lazım gəlir. Nə yaxşı ki, cəmiyyəti getdikcə dərinləşən tənəzzüldən xilas etmək üçün tale dövlətin idarəetmə sükanını yenidən xilaskarlıq missiyası yerinə yetirməyə yeganə qadir ola biləcək tarixi şəxsiyyətə – Heydər Əliyevə həvalə etdi.

Kim nə deyirsə-desin, tarixdə şəxsiyyətlərin rolu danılmazdır. Materialist dünyagörüşünün əksinə olaraq tarixi bəzən şəxsiyyətlər yaradırlar. Elə böyük insanlar, şəxsiyyətlər yetişir ki, onlar tarix səhnəsindən çıxaraq nəinki təkcə bir xalqın, bir millətin, bütövlükdə, bəşəriyyətin aparıcısına, tarixin hərəkətverici qüvvəsinə çevrilə bilirlər. Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı, XX əsrin sonunda öz xilaskarlıq missiyasını yerinə yetirməsi nəinki ölkəmizi böhran və depressiya girdabına yuvarlanmaqdan xilas etdi, həm də onun dünya birliyinə inteqrasiyasını təmin etdi. Və bu minvalla ölkədə həyat öz məcrasına düşdü, ictimai-siyasi sabitlik bərqərar olundu, elmin, təhsilin, mədəniyyətin inkişafı başlandı. Həmin dövrdə təhsili milli tərəqqinin aparıcı amilinə çevirmək üçün ciddi islahatlara ehtiyac duyulurdu. Bu cahanşümül missiyanı da yerinə yetirməyi Heydər Əliyev böyük cəsarətlə öz üzərinə götürdü.

Beləliklə, 1993-cü ilin ikinci yarısından başlayaraq, Azərbaycan təhsilinin qarşısında yeni üfüqlər açıldı. Təhsil sistemi həm struktur, həm də məzmun etibarı ilə yeniləşməyə başladı. Yeni pedaqoji təfəkkür özü ilə təzə ab-hava gətirdi. Təhsilə yeniləşmiş münasibətin səciyyəvi xüsusiyyətlərindən biri də insan amilinin qabardılması, önə çəkilməsi oldu. Nəticədə isə müstəqil düşüncə qabiliyyətinə malik, milli, mənəvi, əxlaqi dəyərləri özündə təcəssüm etdirən əsl vətənpərvərlər yetişdirilməyə başlandı. 1999-cu ildə Heydər Əliyevin müvafiq sərəncamı ilə hazırlanan "Təhsil sahəsində islahatın Dövlət Proqramı" həm məzmun, həm də formaca daha mükəmməl, daha mütərəqqi və daha səmərəli təhsil sistemi yaratmaq yolunda atılan yeni addım oldu. Heydər Əliyevin imzaladığı "Təhsil sisteminin təkmilləşdirilməsi barədə" Fərman da məhz bu reallıqdan irəli gələn və çox vaxtında atılan addım oldu. Həmin fərmanda keyfiyyət məsələsinə xüsusi yer ayrılmış, keyfiyyətə nəzarətin müasir mexanizminin hazırlanması bir vəzifə kimi qarşıya qoyulmuşdu. 2001–2002-ci dərs ilinin "Təhsildə keyfiyyət ili" kimi şərtləndirilməsi də həmin zərurətdən irəli gəlmişdi.

Heydər Əliyevin ən böyük xidmətlərindən biri də milli hərbi kadrların yetişdirilməsi sahəsində göstərdiyi tarixi səylərdir. Onun şəxsi təşəbbüsü və bilavasitə iştirakı ilə respublikamızda ilk orta və ali hərbi təhsil sistemi yaradıldı. Bundan başqa, azərbaycanlı gənclər sistemli şəkildə Sovet İttifaqının başqa respublikalarında təhsil almaq üçün ali hərbi məktəblərə göndərildi. Heydər Əliyevin bu sahədəki siyasətinin mahiyyətinə və əhəmiyyətinə zamanında yetərincə qiymət verilmirdi. Yalnız müstəqillik əldə olunandan, Qarabağ hadisələri baş verdikdən sonra bu müdrik dövlət rəhbərinin nə qədər uzaqgörən olduğu dərk edildi. Və qürurverici haldır ki. bu gün Azərbaycanın milli ordusuna rəhbərlik edən yüksək rütbəli zabit heyətinin əksəriyyəti ulu öndər Heydər Əliyevin yaratdığı həmin məktəblərin yetirmələridir.

Təhsilimizin bu gününü nəzərdən keçirərkən reallıqlar tam əminliklə deməyə əsas verir ki, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə təhsil sahəsində həyata keçirilən köklü islahatların məqsədi təkcə hərtərəfli biliyə və savada malik insanlar yetişdirmək deyil, həm də müstəqil, demokratik, açıq cəmiyyət quruculuğu işində fəal iştirak edən, Azərbaycanın dünya birliyinə inteqrasiyasını daha da dərinləşdirməyə qadir olan şəxsiyyətlər tərbiyə etməkdir. Çünki adi vətəndaşlardan tutmuş prezidentlərədək hamı təhsil ocağının məhsuludur.

***Valeh MİRZƏ***

# Göyçayda "Heydər Əliyev və ekologiya" mövzusunda konfrans

**Göyçay Rayon Heydər Əliyev Mərkəzində "Heydər Əliyev və ekologiya" mövzusunda konfrans keçirilib.**



"Heydər Əliyev İli" çərçivəsində keçirilən məclisdə rayon icra hakimiyyətinin (RİH) başçısı Natiq Ağayev, Milli Məclisin deputatı Məzahir Əfəndiyev, 8 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin rəis əvəzi Asif Məcidov, RİH başçısının şəhər və kənd inzibati ərazi dairələri üzrə nümayəndələri, bələdiyyə sədrləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Konfransı giriş sözü ilə açan RİH-in başçısı N.Ağayev Azərbaycan xalqının və dövlətçiliyinin inkişafında misilsiz xidmətləri olan ulu öndərin Azərbaycana rəhbərliyi dövründə ölkədəki ekoloji



vəziyyətin həmişə xüsusi diqqət mərkəzində olduğunu, ətraf mühitin mühafizəsi ilə bağlı proqramçılar üzrə əsaslı tədbirlər görüldüyünü bildirib.

Çıxış edənlər dahi şəxsiyyətin rəhbərliyi ilə ölkədə ekoloji vəziyyətinin yaxşılaşdırılması, yaşıllıq zolaqların genişləndirilməsi, su ehtiyatlarının çirklənməsinin qarşısının alınması ilə bağlı həyata keçirilən tədbirlərin son 20 ildə onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıblar.

Sonda ümummilli liderin həyat və fəaliyyətinə həsr edilmiş film nümayiş edilib.

Konfrans "Təmiz ölkəm" ümumrespublika təmizlik aksiyası çərçivəsində Göyçay çayının şəhər ərazisindən keçən hissəsində təmizliklik-abadlıq işləri ilə yekunlaşıb.

***İlqar HƏSƏNOV***
***XQ***

# Folklor İnstitutunun yubiley nəşri




**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilən "Heydər Əliyev və Azərbaycan xalq mədəniyyəti" kitabı "Elm və təhsil" nəşriyyatında işıq üzü görüb.**

Kitab "Heydər Əliyev İli" çərçivəsində AMEA Folklor İnstitutunun təşkilatçılığı ilə mayın 15-də keçirilmiş "Heydər Əliyev və Azərbaycan xalq mədəniyyəti" mövzusunda respublika elmi konfransının materialları əsasında hazırlanıb.

Kitabın elmi redaktoru akademik Muxtar Kazımoğlu-İmanov, tərtibçisi isə filologiya üzrə fəlsəfə doktoru, dosent Fidan Qasımovadır.

**XQ**



# Şanxay Əməkdaşlıq Təşkilatının nümayəndələri Heydər Əliyev Fondunda

**Bakıya səfər edən Şanxay Əməkdaşlıq Təşkilatının Qonşuluq, Dostluq və Əməkdaşlıq üzrə Çin Komitəsinin nümayəndə heyəti Heydər Əliyev Fondunda olub.**

Komitənin sədr müavini xanım Cuy Li qurumlar arasında mövcud əməkdaşlıq və həyata keçirilən layihələrdən danışıb.

Görüşdə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu ilə Şanxay Əməkdaşlıq Təşkilatı, eləcə də Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyası arasında əlaqələrin iki ölkə arasında münasibətlərin genişlənməsinə töhfə verdiyi bildirilib.

Xanım Cuy Li gələcəkdə Heydər Əliyev Fondu ilə gənclər, səhiyyə və mədəniyyət sahələrində ardıcıl layihələrin həyata keçirilməsində maraqlı olduqlarını qeyd edib.

Qonaq Azərbaycana səfərindən məmnunluğunu ifadə edib, eləcə də Heydər Əliyev Mərkəzi ilə tanışlığın onlarda böyük təəssürat yaratdığını bildirib.

Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Fondun Çin Xalq Respublikası ilə əlaqələrə, o cümlədən, Şanxay Əməkdaşlıq Təşkilatı və Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyası ilə əməkdaşlığa verdiyi önəmi diqqətə çatdırıb. Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin gənclər sahəsində birgə layihələrdə iştirakı, eləcə də Heydər Əliyev Mərkəzində Çin mədəniyyəti və incəsənəti sahəsində sərgilərin təşkilinin mümkünlüyü nəzərdən keçirilib.



# Kazanda ulu öndərin 100 illiyinə həsr olunmuş fotosərgi

**Bu günlərdə XIX Kazan Beynəlxalq Müsəlman Filmləri Festivalı çərçivəsində ümummilli lider, görkəmli dövlət xadimi Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş fotosərgi açılıb.**

Bundan əlavə, "Mir" kinoteatrında "Heydər Əliyev – əfsanə insan" sənədli filmi (CBC TV-nin istehsalı) "Festivalın xüsusi tədbiri" kimi nümayiş etdirilib.

Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Festivalın xüsusi tədbiri"-nin açılışında festivalın icraçı direktoru, "Tatarkino"nun rəhbəri Milyauşa Aytuqanova, kinofestivalın münsiflər heyətinin üzvü, azərbaycanlı rejissor və prodüser Fariz Əhmədov, Tatarıstan Azərbaycan Milli Mədəni Muxtariyyətinin regional ictimai təşkilatının sədri Bəhram Mustafayev və digər rəsmi şəxslər iştirak ediblər.

Ulu öndərin 100 illik yubileyinin təkcə Azərbaycanda deyil, ölkə hüdudlarında kənarda da qeyd edilməsi həyata keçirilir. "Azərbaycanfilm" kinostudiyası Kazan Film Festivalının rəhbərliyinə də Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlərin təşkili təklifi ilə müraciət edib.

"Tatarkino"nun rəhbəri Milyauşa Aytuqanova təkliflə əlaqədar fikirlərini səsləndirib: "Festival çərçivəsində filmin nümayişinə və fotosərgi təşkil etməyə məmnuniyyətlə razılaşdıq. Rusiya ilə Azərbaycan arasında ənənəvi olaraq isti münasibətlər inkişaf edib. Bunda isə Heydər Əliyev əsas rol oynayıb. Rəmzi xarakter daşıyır ki, Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər sentyabrın 5-dən 9-dək keçiriləcək Kazan Film Festivalının ilk tədbirinə çevrildi.

"Mir" kinoteatrında tematik fotosərgi və filmin nümayişini təşkil etməyimiz böyük şərəfdir. Üstəlik, Tatarıstanda 20 minə yaxın Azərbaycan diasporu yaşayır".

Fotosərgidə tanınmış mədəniyyət xadimləri, eləcə də siyasətçilərlə görüşlərdən arxiv fotoları təqdim olunur.

***XQ***

# İranın “ikibaşlı dostluq” siyasətinin perspektivsizliyi

## Yaxud bu ölkə Azərbaycan və Türkiyə ilə mövqe ortaqlığından niyə qaçır?

**Azərbaycan müstəqillik qazanandan bugünədək ortaq tarix və dəyərlər daşıdığı qonşu İrana münasibətində həmişə səmimi olub, bu ölkə ilə dostluq, qardaşlıq əlaqələrinə sonadək sadiq qalıb. Hətta son illərdə İranın ölkəmizlə bağlı siyasətində dövlətçilik maraqlarımıza zidd çalarlar görünsə də, Azərbaycan buna dözümlə, səbrlə yanaşıb. Rəsmi Bakı bütün səviyyələrdə İranın maraqlarını həssaslıqla nəzərə alıb.**

Amma son illərdə İranın Azərbaycana qarşı arzuolunmaz münasibəti özünü açıq-aşkar büruzə verməyə başladı. Bu, əsasən İkinci Qarabağ müharibəsi günlərində göründü. Belə məlum oldu ki, Azərbaycanın öz ərazilərini Ermənistanın 30 illik işğalından azad etməsi, sən demə, İranın ürəyincə deyilmiş. Hətta rəsmi Tehran tərəfindən belə iddialar irəli sürüldü ki, guya, Azərbaycan regiona İsraili, ABŞ-ni gətirir. Bu məsələyə aydınlıq gətirən Azərbaycan Prezidenti İlham Əliyev Qarabağa səfərlərindən birində Arazqırağından “Hanı burda İsrail?!” deyə sual etməli oldu.

İran artıq 3 ilə yaxındır ki, Zəngəzur dəhlizinin açılması məsələsində də Azərbaycana qarşı bədxahlıq sərgiləyir, çox ciddi “tormozlayıcı” amil rolu oynayır. Hətta məsələ o həddə çatıb ki, İran Ermənistanla sərhədi özünün “qırmızı xətti” elan edib. Bu da azmış kimi, İran Qarabağ separatçılarına gizli dəstək verir, Ermənistanda revanşist qüvvələrlə sıx əməkdaşlıq edir. İranda Azərbaycan səfirliyinə hücum edilməsinin biganəliklə qarşılanması isə bu ölkə rəhbərliyinin qonşuluq siyasəti prinsiplərinə saygısızlığı kimi dəyərləndirildi.




İranın Azərbaycana qarşı düşmənçilik səviyyəsinə yüksəlmiş münasibətləri, nəhayət Azərbaycanın maraqlarına biganə qala bilməyən, daim onun yanında olan qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanı da dilə gətirdi. Türkiyə lideri son bəyanatlarının birində açıq etiraf etdi ki, Zəngəzur dəhlizi Ermənistanla bağlı bir problem deyil. O qəti şəkildə bildirdi ki, bu məsələyə birbaşa qonşu, dindaş, indiyədək qardaş hesab etdiyimiz İran mane olur: “Zəngəzur dəhlizi İranla bağlı bir problemdir. Burada İranın belə bir davranış nümayiş etdirməsi həm Azərbaycanı, həm də bizi üzür. Əslində onları da üzməlidir. Arzu edirəm ki, qısa zamanda bu problemi həll edək. Buna müsbət yanaşsalar, bu gün həm quru yolu, həm də dəmir yolu ilə Türkiyə–Azərbaycan–İran bir-biri ilə bütövləşər və bəlkə də “Pekin–London xətti” açılmış olar”.

Beləliklə, İranın Ermənistan sevgisi böyük bir layihəni, belə demək caizsə, böyük bir nəqliyyat şəbəkəsini və təbii ki, maliyyə kanalını uf demədən “tormozladı”. İranın erməni sevgisini şiddətləndirən türk düşmənçiliyi nəinki Zəngəzur dəhlizinin açılmamasına, hətta Çindən Avropaya uzanan bir yolun işə düşməsinə də əngəl oldu.

Bütün bunlara baxmayaraq, son aylarda İranla münasibətlərdə bir yaxınlaşma meylinin olması da nəzərdən qaçmır. Bunu zəruri edən səbəblər də az deyil. İran bizim tarixi qonşumuzdur, Ermənistana dəstək, lazım gələndə silah versə də bu ölkədə 40 milyona qədər soydaşımız yaşayır. Din və dil qardaşlarımızdan uzaq düşməyin ziyanının da fərqindəyik.

Beləcə, rəsmi Bakı yenidən İrana xoş niyyət sərgilədi. İttihamları, umu-küsüləri gəliş-gedişlər, qarşılıqlı görüşlər əvəzlədi. İranın XİN başçısı Bakıya gəldi, Azərbaycan Prezidenti İlham Əliyev onu qəbul etdi. Xarici İşlər nazirimiz Ceyhun Bayramovla İran XİN başçısı Hüseyn Əmir Abdullahian arasında təmaslar sıxlaşdı. İranın baş prokuroru ilk xarici səfərlə Azərbaycana gəldi.

Amma son günlərin hadisələri göstərir ki, İran yenə öz ampluasını dəyişmək niyyətində deyil. Abdullahian İranın ərəb dilində “Əl-Vefak” qəzetinə müsahibəsində yenidən köhnə avazını təkrarlayaraq, “Regionda İranı Ermənistanla birləşdirən tarixi marşrutun məhdudlaşdırılmasına, yaxud bağlanmasına yol verməyəcəyik” deyib. Bu marşrut, əlbəttə, Zəngəzur dəhlizidir ki, İran məhz onu özünün “qırmızı xətti” adlandırıb. İran bu qədər təmaslara, gəliş-gedişlərə, Azərbaycanın nümayiş etdirdiyi xoş məramlara baxmayaraq, yenə də Zəngəzur dəhlizinə birmənalı yox deyir.

Belə olan halda, Azərbaycan da son vaxtlar Zəngəzur dəhlizinə alternativ yollar haqqında danışmağa başlayıb. Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin bu günlərdə TASS-a müsahibəsində bu məsələ geniş şərh olunub. Onun sözlərinə görə, Azərbaycan regionda bütün nəqliyyat kommunikasiyalarının açılmasına səy göstərir. Zəngəzur dəhlizinin açılması, ilk növbədə, 3 onillik ərzində Azərbaycana qarşı işğalçı siyasət nəticəsində regiondakı nəqliyyat-logistika arxitekturasından kənarda qalan Ermənistanın özü üçün faydalıdır.

Amma Ermənistan müxtəlif bəhanələrlə öz öhdəliklərini yerinə yetirməkdən imtina edirsə və təcrid vəziyyətində qalmaqda davam edir. Bakı isə gözləmək niyyətində deyil və artıq regionun digər ölkələri ilə alternativ layihələr üzərində fəal iş aparır. Biz öz logistika tələbatlarımızı Ermənistan hakimiyyətinin şıltaqlığına bağlamaq fikrində deyilik və regional tərəfdaşlarımızla irəliyə doğru hərəkət edəcəyik.

İndi Azərbaycanın “alternativ layihələr” barədəki danışması Ermənistanı vəlvələyə salıb. Orada”Bakının müharibəyə başlayacağı” ilə bağlı vahiməyə düşüblər. İran isə özünün Azərbaycan ərazisi olan Şərqi Zəngəzur üzərindən İrana yeni bir yol açmaq barədə Bakı ilə imzaladığı sənədi unudub. Bakı bu yolu da inşa etmək və işə salmaq istəyir.

Alternativ marşrut da İranla bağlıdır. Keçən ilin mart ayında Azərbaycanla İran arasında memorandum imzalanıb. Həmin sənədə görə, Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının – dəmir və avtomobil yolunun İran üzərindən həyata keçirilməsi nəzərdə tutulur. Bu məqsədə nail olmaq üçün Araz çayı üzərində ikisi avtomobil və ikisi dəmir yolu üçün olmaqla, ümumilikdə, 4 körpünün, eləcə də rabitə və enerji təminatı infrastrukturunun tikintisi nəzərdə tutulub. Həmin körpülər Ermənistanın dövlət sərhədinə 5 km məsafədə olacaq. Azərbaycan bununla bağlı bütün xərcləri öz üzərinə götürüb.

Bu memorandum rəsmi Bakının İrəvana əlavə təzyiq vasitəsidir, yəni “Zəngəzur dəhlizini açmasanız, dəhliz İran ərazisindən keçəcək və bununla Ermənistan oyundankənar vəziyyətdə qalacaq”. Ancaq sonrakı aylarda İran Azərbaycanla münasibətləri gərginləşdirmək siyasətini seçdi və imzalanan memorandum arxa plana keçdi. Münasibətlərin normallaşması zəminində həmin memoranduma qayıdış mümkündür.

Bütün hallarda Ermənistan Zəngəzur dəhlizini açmasa, bu, Azərbaycan üçün böyük problem olmayacaq. Amma Ermənistan özü yenə təcrid vəziyyətində qalacaq. Artıq bütün yollar bu istiqamətə yönəlib. Görək bu məsələdə İranın mövqeyi dəyişəcəkmi? Bakının ardıcıl dostluq, səmimilik jestləri qarşılığında İran ikibaşlı siyasətə son qoyacaqmı? Bu ölkənin anti-türk meyllərdən uzaqlaşıb Azərbaycan və Türkiyə ilə mövqe ortaqlığı sərgiləməsinə kim və nə mane olur? Ölkəmizin İranla münasibətlərinin qonşuluq prinsipləri məcrasına qayıtması bu suallara veriləcək cavablardan asılı olacaq.

**Paşa ƏMİRCANOV**
**XQ**

### Ekspert rəyi



**Yeganə HACIYEVA**
**politoloq**

İran Azərbaycanla münasibətlərini formalaşdırarkən bir neçə vacib amili nəzərə alır: bunlardan biri ölkə daxilində etnik çoxluğun türklərdən – azərbaycanlılardan ibarət olmasıdır. Bu isə Azərbaycanla münasibətlərin formalaşmasında fərqli məqamlar yaradır. Məsələ bundadır ki, İran daxilində, xüsusilə güc və təhlükəsizlik strukturlarındakı, eləcə də dini-radikal və sair kimi qruplara yaxın rəsmilərin Azərbaycanla bağlı siyasəti həmişə arzuedilən səviyyədə olmur. Onlar daha radikal açıqlamalar verirlər və İran hakimiyyət nümayəndələrinin nə deməsindən asılı olmayaraq, bu mühafizəkar qrupların rəhbərləri olan məmurlar həmişə özlərinin radikallıqları ilə seçilirlər.

Onu da qeyd edim ki, 44 günlük Vətən müharibəsindən sonra İranın Ermənistanla yaxınlaşması Tehranın Cənubi Qafqazla bağlı maraqlarına ciddi zərbə vurub. Məsələ bundadır ki, İran Ermənistanla yaxınlaşmasını sırf Türkiyənin 44 günlük müharibədən sonra regional güc kimi ortaya çıxması ilə əsaslandırdı və bu əsasda İrəvana yaxınlaşdı. Amma bu yaxınlaşma İranı bir sıra məsələlərdə ciddi problemlərlə üz-üzə qoydu.

Bunlar nədən ibarətdir? Məsələ ondadır ki, bu gün üçün Ermənistan İranla həmsərhəd olkə kimi İranın konfrantasiyada olduğu ölkələrin hərbi qruplarını öz ərazisinə cəlb edib. Məsələn, Avropa İttifaqının mülki missiyası Ermənistandadır. Onların kəşfiyyatçılardan ibarət olduğu hamıya, ilk növbədə isə, İrana bəllidir. Əslində Aİ-nin regionda İranın maraqlarının əleyhinə kəşfiyyat aparması heç kimə sirr deyil. Bura onu da əlavə edək ki, Aİ missiyasında həm də Kanada Müdafiə Nazirliyinin silahlı hərbi polisi də təmsil olunur.

Bundan da vacibi ABŞ-ın İranla sərhəddə Ermənistanla birgə hərbi təlimlər keçməsidir. Əslində bu təlimlər nə Azərbaycana, nə də Türkiyəyə qarşı deyil, birmənalı olaraq İrana qarşıdır. Yəni, İran əslində bunu bilir. Amma daxilində Azərbaycana qarşı nifrətdən strategiya kimi istifadə edən radikal qruplar neqativ açıqlamalarını davam etdirirlər. Təbii ki, bütün bunlar İranın milli maraqlarına ziddir. İran məhz buna görə son həftələrdə Azərbaycanla yaxınlaşma mesajları verir. İran fərqindədir ki, bu gün Cənubi Qafqazda məhz Ermənistandan, bu ölkədəki xarici hərbçilərdən ehtiyat etməlidir.

Amma İrandakı radikal qruplar Azərbaycan əleyhinə fəaliyyəti davam etdirirlər. İran, eyni zamanda, Azərbaycanın ünvanına hədə-qorxuları davam etdirir və hesab edir ki, bunlar nəticəsiz qalacaq. Bu səbbədən də burnundan uzağı görməyən İran rəsmiləri mütəmadi olaraq ermənilərin xoşuna gəlmək üçün Azərbaycana qarşı müəyyən fikirlər səsləndirirlər.

### Ekspert rəyi



**Tural İSMAYILOV,**
**politoloq**

İran rəsmilərinin Azərbaycan əleyhinə verdiyi açıqlamalar heç bir səmimiyyətə sığmır, son vaxtlarda isə, ümumiyyətlə, əndazəni aşır. İran guya Azərbaycanla münasibətləri normallaşdırmaqda maraqlı olduğunu söyləyir. Digər tərəfdən isə, qəribə, ağlasığmaz açıqlamalarla vəziyyəti daha da gərginləşdirməyə çalışır.

Bütün bunlar onu göstərir ki, hətta münasibətlərin ən yaxşı göründüyü dövrdə belə İrana güvənə bilmərik və bunda haqlıyıq.

Əslində İranın siyasi rəhbərliyinə də yaxşı məlumdur ki, Zəngəzur dəhlizinin açılması və ümumiyyətlə, Azərbaycanın regionda həyata keçirmək istədiyi layihələrin heç biri hansısa bir formada İranın maraqlarına qarşı deyil. Məqsəd, eyni zamanda, İranla Ermənistan arasındakı qovşaqların bloklanması, yaxud pozulması da deyil.

İran məntiqli düşünsəydi və siyasi proseslərə rasional yanaşsaydı, Azərbaycanın təklif etdiyi variantları ən məqbul hesab edərdi. Amma görürük ki, İranın Azərbaycanın təkliflərinə qarşı belə irrasional mövqeyi, qeyri-səmimi yanaşması artıq uzun müddətdən bəri davam edir. Hətta münasibətlər yaxşılaşsa belə, İran Zəngəzur dəhlizi ilə bağlı məsələdə sırf Ermənistanın hamisi qismində çıxış edir, türk dünyasının coğrafi baxımdan birləşməyini, kommunikasiya, logistika imkanlarının yaranmasını həzm etmir. Bu prosesi sabotaj etmək üçün İran rəsmiləri müxtəlif dövrlərdə belə bəyanat-şantajlar səsləndirirlər.

---

**Son zamanların ən çox müzakirə edilən, Rusiyada isə hətta, həyəcan və narazılıqla qarşılanan ABŞ –Ermənistan birgə hərbi təlimləri artıq başa çatmaq üzrədir. ABŞ ordusunun Avropa və Afrikadakı komandanlığının təşkil etdiyi “Eagle Partner 2023” birgə təlimlərinin açılış mərasimi İrəvan yaxınlığındakı Zar təlim mərkəzində baş tutub. Elə ona görə də Ermənistan mətbuatı neçə gün idi ki, “Artsax” məsələsini arxa plana keçirərək, səhər-axşam “zar-zar zarıldayırdı”.**

# Ermənistan mətbuatı neçə gündür ki, ah-vay edir

## İrəvan KTMT-nin “Sarsılmaz qardaşlıq” təlimini necə sarsıtdı?

Ömrü boyu mif uydurmaqla, saxta sənədlər düzəltməklə məşğul olan haylar indi də “Zar mifi” yaradırlar. Elə bilirlər ki, ABŞ əsgərləri dünyanın o biri başından gələrək özgə torpaqlarında yaradılmış bu dövlətin bütün problemlərini həll edəcəklər. Habuki, bir az ağıllı olsalar, onların istənilən probleminin Bakının həll edə biləcəyini anlayarlar. Özləri bilərlər. O, “Zar”, o, 85 amerikalı hərbçi, o da İrəvanın xirtdəyinədək problemlər bataqlığı. Yeri gəlmişkən, həmin bataqlığın qurudulması üçün 9 günlük təlimlərdə 175 erməni hərbçisi də iştirak edirdi.

Bu təlimlərin tarixçəsinə baxanda görürük ki, İrəvanla Vaşinqton arasında bu barədə ilk razılaşma ötən əsrin sonunda – 2000-ci ildə əldə edilmişdir. Bu, o zaman idi ki, hətta Rusiya Prezidenti Vladimir Putin də hansısa tədbirdə “Moskvanın NATO-ya üzv olması barədə düşündüklərini” demişdi. Çünki artıq SSRİ-nin mövcud olmadığına görə Moskva ABŞ ilə münasibətləri normallaşdırmaq, NATO ilə əməkdaşlıq etmək barədə fikirlər səsləndirirdi. İndi isə NATO ilə Kreml, sözün həqiqi mənasında, “qanlı bışaq”dırlar.



Yeri gəlmişkən, ABŞ hərbçilərinin Cənubi Qafqazda hərbi təlim keçirməsi, hətta İkinci Qarabağ müharibəsindən sonra da qeydə alınmışdı. Mətbuatda oxuyuruq: “ABŞ Silahlı Qüvvələrinin 173-cü desant briqadası və 18-ci hərbi polis briqadasına məxsus avadanlıqlar Rumıniyanın Konstança şəhərindən Poti limanına gətirilib. “Agile Spirit 2021” adlı hərbi təlim iyulun 26-da başladı (28 İyul 2021-ci il). Xatırladaq ki, həmin təlimlərdə NATO üzvünü və 16 tərəfdaş ölkəni təmsil edən 2000-dən çox hərbçi iştirak edir. Gürcü mənbələrinin məlumatına görə, hərbi təlimlərdə iştirak edən ABŞ hərbçilərinin sayı 700 nəfərdir. Təlimin iştirakçıları arasında Türkiyə və Azərbaycan da var. Məlum olduğu kimi, Ermənistan bu mühüm tədbirdə əvvəlki illərdəki kimi iştirak etməyəcək”.

Ermənistan həmin təlimlərdə nə üçün iştirak etmirdi? Çünki Azərbaycan və Gürcüstandan fərqli olaraq, Ermənistan Rusiyanın təşəbbüsü ilə yaradılmış Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü idi. Yəni bir hərbi təşkilatın üzvünün digər hərbi təşkilatın nəinki təlimlərində, hətta, adi tədbirlərində belə iştirak etməsi qətiyyən yolverilən hal deyil.

Bu gün Zarda keçirilən birgə təlimlərin “ilkin izlərini”nin yeddi il əvvələ gedib çıxdığını da qeyd etməliyik. Belə ki, 2016-cı ildə Gürcüstana verilmiş dəstəklə bağlı Ağ Evin saytında təqdim olunan hesabatda oxuyuruq ki, Birləşmiş Ştatlar “Agile Spirit” təlimlərini NATO-ya biləşdirib. Bu münasibətlə Çexiyanın Ermənistandakı səfiri Bedrix Kopeçkinin İrəvanda verdiyi bir açıqlama yaddaqalan olmuşdu. Səfir açıqlamasında NATO-nun Ermənistanla əməkdaşlıq üçün hazır olduğunu, lakin İrəvanın hansı sahələrdə əməkdaşlığa hazır olması ilə bağlı təşəbbüsün Ermənistan tərəfindən gəlməli olduğunu bildirmişdi.

Yəni Ağ Evdə Ermənistanın Rusiyaya xəyanət edəcəyi günü gözləyirdilər. Həmin gün gəldi, Ermənistan bilavasitə Moskvanın nəzarəti altında fəaliyyət göstərən KTMT-dən imtina etdi, İrəvanda Rusiyanın bayraqları yandırıldı, Vladimir Putinin Ermənistan ərazisinə gələcəyi təqdirdə onun həbs olunacağı bildirildi, İkinci Qarabağ müharibəsinin sonunda bilavasitə Vladimir Putinin təşəbbüsü ilə hazırlanıb təsdiq edilmiş üçtərəfli Bəyanatın müddəalarına əməl ermədi və nəhayət, İrəvan yaxınlığında ABŞ hərbçiləri ilə birlikdə hərbi təlim keçirdilər. Buna dağ, daş dözə bilməzdi, Moskva dözdü. Amma, dözdüsə də, 2000-ci ildə dediyi “Biz NATO-ya üzv olmaq barədə düşünürük” ifadəsi kimi, bu dözüm də sadəcə boğazdan yuxarı deyilmiş sözlərdən ibarətdir.

Yeri gəlmişkən, müasir Rusiyanın ən yaxın müttəfiqlərindən olan Belarusdan gələn məlumatda bildirilir ki, Kreml Ermənistanın ABŞ hərbçiləri ilə müştərək təlim keçirməsindən narahat deyil. Elə ötən əsrin son onilliyində də Kreml Krımın Ukrayna ərazisi olduğuna etiraz etmirdi. Qərəz, Belarus Təhlükəsizlik Şurasının dövlət katibi Pavel Muraveyko deyib ki, Zarda keçirilən təlimlər iki il əvvəl planlaşdırılmışdır: “Deyə bilərəm ki, bu tədbirlər dünən, srağagün planlaşdırılmayıb. Bu, NATO-nun ikiillik tədbirlər silsiləsinin tərkib hissəsidir. Sadəcə, erməni həmkarlarımız iki il əvvəl öz üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirirlər. Biz öz təşkilatımızda (KTMT nəzərdə tutulur– İ.M.) bu fakta çox sakitliklə baxırıq. Həm də bu fakt bizə, haradasa, üz-üzə gəldiyimiz rəqibi ( NATO nəzərdə tutulur– İ.M.) daha yaxşı öyrənmək imkanı verir. Odur ki, bu təlimi keçirmək məsuliyyəti ermənilərin üzərinə məhz bu il düşüb”.

Cənab Pavel Muraveyko əlavə edib ki, erməni hərbçilərinin KTMT-nin bu il sentyabrın 1-dən 6-dək Belarusda keçirilən “Sarsılmaz qardaşlıq” adlı hərbi təlimlərinin növbəti mərhələsində iştirak etməməsinin – ola bilsin ki, müəyyən səbəbləri var. Biz bunu tənqid edilməli hal kimi qiymətləndirmirik. Bundan başqa, təşkilat daxilində bu təlimlərə istiqamətlənmiş fikir mübadiləsi, qarşılıqlı informasiya mübadilələri aparılmışdır. Yəni, erməni tərəfi həmin müasir “priyom”lar zamanı qazanılan təcrübəni öyrənərək və mühüm məqamların videogörüntülərini əldə edərək işlənib hazırlanmış nəticələr barədə bizi də məlumatlandıracaq”. Bir o qaldı ki, Ermənistan ABŞ hərbçiləri ilə təlimlərə casusluq məqsədilə qatılıb.

Sonda bu fakta azərbaycanlı ekspertin münasibətini də bildirək. Siyasi şərhçi Abutalıb Səmədov Ermənistan – ABŞ birgə hərbi təlimləri barədə mətbuata verdiyi müsahibədə deyib ki, bu cür addımları rəsmi Moskva İrəvana bağışlamayacaq: “Rusiyanın Ermənistana qarşı müəyyən cəza addımları atmaq imkanı kifayət qədərdir. Sözügedən təlimlərin Azərbaycan üçün heç bir ziyanı yoxdur. Çünki elə də ciddi hərbi təlim deyil. Əksinə, müsbət cəhətləri ola bilər. İlk növbədə, Azərbaycanın Qarabağda keçirməyi planlaşdırdığı antiterror əməliyyatlarında rus sülhməramlıları Azərbaycanla birgə iştirak edə bilərlər. Bu addım da Ermənistanın keçirdiyi hərbi təlimlərə çox yaxşı cavab ola bilər. Ermənistan hakimiyyətinin buraxdığı səhvlərdən Azərbaycan hər zaman ustalıqla istifadə edib. Heç şübhəsiz ki, bu addım da düzgün qiymətləndiriləcək və Qarabağdakı silahlı birləşmələr qısa müddətdə tərksilah olunacaqlar”.

***İ.QAÇAYEV***
***XQ***

---

# BQXK avtomobilləri Xankəndiyə çatdırılıb

**Beynəlxalq Qızıl Xaç Komitəsi ilə əldə olunan razılığa əsasən sentyabrın 18-də səhər saatlarında Ağdam-Xankəndi yolunda komitəyə məxsus avtomobillərin keçidi təmin olunub.**

XQ xəbər verir ki, BQXK-nın iki minik və bir yük avtomobili Ağdam-Xankəndi yolu ilə Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərinə gedib. Avtomobillərdə aparılan yükün Qarabağda yaşayan erməni əsilli şəxslərə çatdırılması nəzərdə tutulub.



***

Həmin gün Laçın dövlət sərhədindəki buraxılış məntəqəsindən Xankəndi istiqamətinə BQXK-ya məxsus iki minik və humanitar yardım aparan bir yük avtomobilinin keçidi də təmin olunub. İki minik avtomobili və bir humanitar yüklü TIR maşını prosedurlara uyğun olaraq yoxlanıldıqdan sonra Xankəndi istiqamətində yola davam edib.

**XQ**

# Qeyri-neft ixracında dinamik artım

## 8 ayda MDB ölkələri ilə dövriyyə 4 milyard dolları ötüb

(əvvəli 1-ci səhifədə)

Bu gün həmin məhsullara dünya bazarlarında getdikcə böyük maraq yaranır. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın avqust ayına əsasən, 2023-cü ilin ötən 8 ayı ərzində Azərbaycanın ümumi ixracının 20,8 milyard dollar, qeyri-neft sektoru üzrə ixracın isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 17,8 faiz artaraq 2 milyard dollar təşkil etməsi də bunu aydın göstərir.

Mərkəzin məlumatında, həmçinin bildirilir ki, cari ilin yanvar–iyul ayları ərzində yeyinti məhsulları üzrə ixrac 520 milyon ABŞ dollarına bərabər olub. Hesabat dövründə elektrik enerjisi ixracı 5,5 dəfə, spirtli və spirtsiz içkilərin ixracı 4,4 dəfə, şəkər ixracı 53,1 faiz, meyvə–tərəvəz ixracı isə 46,6 faiz artıb.

Bu ilin 8 ayında aqrar və aqrar–sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 10,6 faiz artaraq 540 milyon dollar təşkil edib. Qeyri–neft–qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar–sənaye məhsullarının yaratdığı dəyər isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 41,3 faiz artaraq 119 milyon dollar təşkil edib.

Əlbəttə, belə uğurlu göstəricilərin əldə edilməsinə respublikamızda strateji məhsulların ixracında bütün fiziki və hüquqi şəxslərin bərabər hüquqlarının reallaşdırılması və inhisarçılığın qarşısının alınması istiqamətində görülən işlər, daxili bazarın marketinqinin düzgün müəyyənləşdirilməsi, gömrük əlaqələrinin sadələşdirilməsi, xarici ticarətin liberallaşdırılması, eləcə də əlverişli investisiya mühitinin yaradılması və xarici ticarət əlaqələrinin həcminin və coğrafiyasının getdikcə daha da genişlənməsi əhəmiyyətli rol oynayır.

Təbii ki, ixrac imkanlarının genişlənməsi üçün respublikada müxtəlif sahələri əhatə edən istehsalat sahələrinin, yeni investisiyalar cəlb edilməsi üçün gözəl biznes mühitinin və siyasi sabitliyin yaradılması diqqət mərkəzində saxlanılıb.

Respublikada əlverişli biznes mühiti dedikdə şübhəsiz ki, sahibkarlar, iş adamları üçün stimullaşdırıcı biznes və investisiya mühitinin mövcudluğu, bu sahədə dövlət tərəfindən müxtəlif dəstək tədbirlərinin, həmçinin vergi və gömrük güzəştlərinin reallaşdırılması nəzərdə tutulur və bu məsələlərin həlli diqqətdə saxlanılaraq əldə edilən nəticələr iqtisadi inkişafın dinamikasını şərtləndirir.

Azərbaycanda həyata keçirilən layihələr sayəsində son illər qeyri-neft ixracında dinamik artım müşahidə olunur. Məsələn, ötən ilin ilk altı ayında qeyri-neft ixracı 1,5 milyard dollar idisə, bu göstərici 2023-cü ilin müvafiq dövründə 1,8 milyard dollar təşkil edib. Bu da son altı ayda 300 milyon dollarlıq artım deməkdir.

Həyata keçirilən bütün bu tədbirlərin nəticəsidir ki, 2023-cü ilin yanvar-avqust aylarında Azərbaycanla Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələri arasında ticarət dövriyyəsinin dəyəri 4 milyard 261 milyon 917 min dollar (ötən ilin eyni dövrü ilə müqayisədə 17,5 faiz çox) təşkil edib. Həmçinin MDB ölkələri ilə ticarət əməliyyatları ölkənin ümumi ticarət dövriyyəsinin 28,7 faizi səviyyəsinə yüksəlib.



Dövlət Gömrük Komitəsinin yaydığı məlumata əsasən, hesabat dövründə Azərbaycanın ticarət dövriyyəsinin dəyəri Rusiya ilə 2 milyard 786 milyon 710 min dollar (1 il əvvələ nisbətən 26,8 faiz çox), Türkmənistanla 644 milyon 767 min dollar (2,7 dəfə çox), Belarusla 218 milyon 349 min dollar (18,8 faiz çox), Tacikistanla 4 milyon 103 min dollar (7,2 faiz çox) olub.

8 ay ərzində respublikamızdan Rusiyaya 794 milyon 478 min dollar (illik müqayisədə 46,1 faiz çox), Qazaxıstana 75 milyon 39 min dollar (72 faiz çox), Türkmənistana 56 milyon 622 min dollar (4,7 dəfə çox), Özbəkistana 29 milyon 849 min dollar (2,1 faiz çox), Qırğızıstana 27 milyon 323 min dollar (22,3 dəfə çox), Tacikistana 4 milyon 62 min dollar (9 faiz çox) dəyərində məhsul ixrac edilib. Ölkənin ümumi ixracında Rusiya 3,3 faiz, Qazaxıstan 0,3 faiz, Türkmənistan 0,2 faiz, Özbəkistan 0,1 faiz, Qırğızıstan 0,1 faiz və Tacikistan 0,02 faiz paya sahib olub.

Hesabat dövründə neft məhsullarının ixracında da artım qeydə alınıb. Belə ki, 8 ayda respublikamızdan 403 milyon 953 min dollarlıq (ötən ilin müvafiq dövrünün göstəricisindən 64,3 faiz çox) 678 min 402,9 ton neft məhsulları ixrac olunub. Bütün ixracın 1,66 faizi neft məhsulları ixracının payına düşüb.

Azərbaycanın ixrac potensialını ildən-ilə yaxşılaşdırması təsadüfi deyil. Bu, son illər qeyri-neft sektorunda xüsusi fəallığın nəzərə çarpması, iqtisadiyyatının şaxələndirilməsi istiqamətində uğurla həyata keçirilən layihələrin məntiqi nəticəsidir. Bunu belə bir fakt da təsdiqləyir: 2010-cu ildə respublikamızın qeyri–neft sektorunda 18,4 milyon manatlıq məhsul istehsal olunduğu halda, çoxsaylı mənfi şokların təsiri ilə mübarizə aparan qlobal iqtisadiyyatın həssas olduğu indiki məqamda həmin sahədə artım neft–qaz sənayesindəki göstəriciləri üstələyir. Belə ki, mövcud sahədə əlavə dəyərin cari ilin ilk yarısında 6,5 faiz yüksəlməsi, ümumi olaraq isə qeyri-neft sektorunda 3 faizdən çox artımın müşahidə olunması bunun bariz ifadəsidir.

Qeyri-neft sənayesinin inkişafı ölkənin karbohidrogen daşıyıcılarının hasilat və ixracından əldə edilən gəlirlərdən, həmçinin daxili istehsalın və istehlak bazarının idxaldan asılılığını azaldır, ixracın şaxələnməsinə xidmət edir.

**Vaqif BAYRAMOV**
**XQ**

## "Azərişıq" köhnə şəbəkələri yeniləyir

**"Azərişıq" ASC ölkənin bütün regionlarında köhnə, yararsız elektrik şəbəkələrini yeniləyir.**



Qurumdan XQ-yə verilən məlumata görə, yenidənqurma işləri Bakıətrafı Saray və Yeni Yaşma qəsəbələrində də davam edir.

Sarayda yerləşən Köhnə kənd yaşayış massivində yeni evlərin tikilməsi və əhalinin sürətli artımı bu ərazidə abonentlərin fasiləsiz elektrik enerjisi ilə təminatını çətinləşdirirdi. "Azərişıq" hazırda problemin aradan qaldırılması yönündə yenidənqurma işləri aparır.

Səhmdar Cəmiyyət Yeni Yaşmada isə müəllimlər üçün ayrılan "Maarif" bağları adlanan ərazidə abonentləri fasiləsiz, dayanıqlı elektrik enerjisi ilə təmin etmək üçün tədbirləri davam etdirir.

Ərazidə bütün elektrik şəbəkəsi müasirləşdirilir, köhnə dayaqlar və elektrik xətləri yeniləri ilə əvəzlənir. Abonentlər üçün yeni smart sayğaclar quraşdırılır.

Həm Saray qəsəbəsinin Köhnə kənd adlanan ərazisində, həm də Yaşmada yenidənqurma işlərinin tezliklə yekunlaşması nəzərdə tutulub.

## Əhalinin gəlirləri 50 milyard 861 milyon manata çatıb



**Dövlət Statistika Komitəsindən verilən məlumata əsasən, cari ilin 8 ayında ölkə əhalisinin nominal gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 14,3 faiz artaraq 50 milyard 861 milyon manat və ya hər nəfərə orta hesabla 5 min manat olub.**

Əhalinin sərəncamında qalan gəlirlər isə 44 milyard 835 milyon manat təşkil edib.

## I yarımildə 3 milyard dollar xarici investisiya cəlb edilib

**Mərkəzi Bankın məlumatına əsasən, bu ilin 6 ayında xaricdən cəlb olunan investisiyaların ümumi məbləği 3 milyard dollar, xaricə yatırılan sərmayələrin həcmi isə 0,6 milyard dollar olub. Ölkə iqtisadiyyatı qoyulan birbaşa xarici investisiyaların strukturunda neft-qaz sektorunun xüsusi çəkisi 75,9 faiz təşkil edib.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2023-cü ilin yanvar-avqust aylarında xarici ölkələr və beynəlxalq təşkilatların əsas kapitala yönəltdikləri vəsaitin 2 milyard 285 milyon manatı (90,4 faizi) Birləşmiş Krallıq, Türkiyə, ABŞ, Fransa, Yaponiya, Rusiya, İsveçrə və Norveç sərmayədarlarına məxsus olub.



## Buğda istehsalında İsrail texnologiyası

**İsrailin Kənd Təsərrüfatı və Kənd Yerlərinin İnkişafı Nazirliyinin mediada yayılan məlumatına əsasən, dost ölkə Azərbaycanla buğda yetişdirilməsi və istehsalı üzrə müqavilə imzalayıb. Razılaşmanın bu ölkənin adıçəkilən naziri Avi Dixterin respublikamıza səfəri zamanı əldə edildiyi qeyd edilib.**

Müqavilə suvarma, torpağın məhsuldarlığının saxlanılması və bitki mühafizəsi sahələri daxil olmaqla, İsrailin buğda istehsalında tətbiq etdiyi texnologiyanı Azərbaycanla paylaşmasını özündə birləşdirir.

Qeyd edək ki, İsrailin müqaviləni imzalamaqda məqsədi ölkəmizin ərzaq təhlükəsizliyinin reallaşmasına töhfə verməkdir. Oxşar müqavilələrin Avropa və Afrika ölkələrində də imzalanacağı nəzərdə tutulur.

**XQ**

# Ceyrançölün yeni dövranı

## Boz çöllərdə Cənubi Qafqazın ilk mobil suvarma sistemi istifadəyə verilib

**Ölkəmizdə əkinə yararlı torpaqlardan səmərəli istifadə edilməsi və ekoloji təmiz məhsul istehsalının genişləndirilməsində aqroparkların xüsusi əhəmiyyəti var. Son illər aqrar bölmədə fəaliyyət göstərən yeni tipli müəssisələrin mütərəqqi suvarma sistemləri ilə təchizatının yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir.**



İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Ceyrançöl ərazisindəki aqroparkda Cənubi Qafqazda ilk dəfə mobil (hibrid) suvarma sistemlərindən istifadəyə başlanılıb. Yeni texnologiyanın tətbiqi su itkisinin qarşısının alınmasında və suya qənaət edilməsində mühüm rol oynayacaq.

Bu barədə Şəmkir rayonunda "Azərşəkər" MMC-nin Ceyrançöl ərazisində yerləşən aqroparkında "Ehtiyatlara qənaət edən müasir suvarma və əkinçilik texnologiyaları" mövzusunda keçirilən tədbirdə ətraflı məlumat verilib. Xatırladaq ki, İZİA, "Azərşəkər" və "Gilan Pivot" məhdud məsuliyyətli cəmiyyətlərinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə aidiyyəti dövlət qurumlarının əməkdaşları, fermerlər və KİV nümayəndələri iştirak ediblər.

Ölkədə mövcud aqroparkların fəaliyyətinə nəzarəti həyata keçirən İqtisadi Zonaların İnkişafı Agentliyindən bildiriblər ki, tədbirdə "Strip till" texnologiyasının tətbiqinin üstünlükləri, həmçinin ən son suvarma texnologiyası olan mobil və ya hibrid suvarma sistemlərinin üstünlükləri barədə iştirakçılara ətraflı məlumat verilib.

Texnologiyanın təqdimatında mobil suvarma sistemlərinin, eləcə də paralel istifadə olunan "Strip till" əkin texnologiyasının üstünlükləri barədə məlumat verilib, bu texnologiyalarla becərilən qarğıdalı sahəsinə, həmçinin "Mzuri" əkin texnikası ilə aparılan arpa səpininə baxış keçirilib. Bildirilib ki, "Mzuri"nin üstün cəhəti 4 prosesi (dərin yumşaltma, dərinlik boyu gübrə emalı, müxtəlif çeşidli toxumların dəqiq səpini və bərkidici çarxlarla toxumların basdırılması) eyni vaxtda yerinə yetirməsidir. Bu texnikanın istifadəsinin əsas məqsədi suya və yanacağa qənaət, torpağın münbit qatının qorunub saxlanılması və havaya buraxılan zərərli qazların təsirinin aradan qaldırılmasıdır.

Xatırladaq ki, Ceyrançöldəki aqroparkın əkinə yararlı 4 min hektar sahəsinin 1428,6 hektarında pivot, 17,2 hektarında sprinkler, 40 hektarında damlama olmaqla, ümumilikdə, 1485,8 hektarında əkin aparılıb. Bu il aqroparkda 421,6 hektar şəkər çuğunduru, 268 hektar qarğıdalı, 55,7 hektar soya, 341,6 hektar arpa, 24,6 hektar toxumluq xardal və 320 hektar ərzaqlıq buğda əkilib. Mövsüm ərzində zəmilərdən 1732 ton buğda və 1692 ton arpa yığılıb. Buğda və arpa üzrə hektarın orta məhsuldarlığı müvafiq olaraq 5,4 ton və 5 ton təşkil edib. Soya üzrə məhsuldarlıq isə 2,1 ton olub. Arpa biçinindən sonra sahələrdə təkrar əkin işləri həyata keçirilib. Ötən müddətdə 189 hektar ərazidə qarğıdalı əkilib.

Yeri gəlmişkən, Azərbaycanda aqroparklar ölkə Prezidenti İlham Əliyevin 2014-cü il aprelin 16-da imzaladığı "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanına əsasən yaradılıb. Yeni tipli aqrar müəssisələrinin yaradılmasında məqsəd ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi və regionlarda işsizliyin aradan qaldırılmasından ibarətdir. Bu müəssisələr aqrar sahədə inkişafı sürətləndirməklə yanaşı, idxaldan asılılığın azaldılmasına, eləcə də ölkənin ixrac potensialının artırılmasına və milli brendlərin yaradılmasına mühüm töhfələr verir.

Qabaqcıl texnologiyalara və müasir innovativ idarəetmə sisteminə əsaslanan aqroparklarda istehsalçı, emalçı və istehlakçı arasında inteqrasiya münasibətləri formalaşdırılır ki, bu da kənd təsərrüfatında yüksək məhsuldarlığın əldə olunmasına imkan yaradır. Aqroparklar innovativ üsulların geniş tətbiqi hesabına ölkənin əsas strateji məhsullarının istehsalının həcminin artırılması ilə bağlı növbəli və təkrar əkinlər, yüksək reproduksiyalı və keyfiyyətli toxumlardan istifadə, düzgün aqrotexniki qulluq və s. həyata keçirilir.

Hazırda ölkəmizin 32 rayonu üzrə 51 aqropark və iri fermer təsərrüfatı fəaliyyət göstərir. Aqropark və iri fermer təsərrüfatlarının 34-ü bitkiçilik, 14-ü bitkiçilik və heyvandarlıq, 1-i heyvandarlıq fəaliyyəti, 2-si isə çeşidləmə-qablaşdırma, emal və logistika sahələri üzrə ixtisaslaşıb. Ümumi ərazisi 240 min kvadratmetr təşkil edən aqroparkların layihə dəyəri isə 2,4 milyard manatdır.

Ötən müddətdə aqroparklara 1,4 milyard manat özəl sərmayə qoyulub. Eyni zamanda, 25 aqroparkın yaradılması və ya fəaliyyətinin genişləndirilməsi üçün 195 milyon manat güzəştli kredit verilib. Bunun da nəticəsində aqroparkların ərazilərində 2600 hektar fındıq, 2248 hektar zeytun, 1228 hektar qoz, 1010 hektar badam, 388 hektar alma, 355 hektar nar, 152 hektar üzüm, eləcə də 275 hektar müxtəlif növ yeni intensiv və superintensiv meyvə bağları salınıb. Yeri gəlmişkən, aqroparkların ərazilərindəki mövcud fındıq, zeytun və qoz bağları ölkədə sahəsinə görə ən böyük intensiv bağlardır.

Hazırda ölkə üzrə 40 aqroparkda taxıl əkilir və yüksək məhsuldarlıq əldə edilir. Belə ki, 2022-ci il ərzində aqroparkların 41 min hektar sahəsində buğda biçini aparılıb və 152 min tondan çox məhsul istehsal edilib. Bunun da 88,8 min tonu ərzaqlıq, 31,4 min tonu toxumluq, 32 min tonu isə yemlik buğdanın payına düşür. İlkin göstəricilərə əsasən, bu il isə aqroparklarda 145 min tona yaxın ərzaqlıq buğda istehsal olunub. Bu da ölkənin taxılla təminatına və ərzaq təhlükəsizliyinin gücləndirilməsinə mühüm töhfə kimi dəyərləndirilə bilər.

"Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanından irəli gələn yeni dəstək tədbirləri çərçivəsində bu il aqroparklarda pivotaltı sahələrində buğda əkinini 52 faiz və ya 11,3 min hektar artırmaqla 33 min hektara çatdırmaq nəzərdə tutulur. Növbəti 5 il ərzində isə pivotaltı sahələr 100 min hektara çatdırılacaq.

Qeyd etdiyimiz kimi, aqroparklar ölkədə məşğulluq səviyyəsinin artırılmasında da mühüm rol oynayır. Ötən müddətdə yeni tipli bu müəssisələrdə, ümumilikdə, 4 min nəfər daimi, 5 min nəfər isə mövsümi işlə təmin olunub. Gələcəkdə aqroparklarda daha 5 mindən çox iş yerinin yaradılması nəzərdə tutulur.

**Mirbağır YAQUBZADƏ**
**XQ**

# Azərbaycan–Türkiyə hüquqi əlaqələri genişlənir



**Ölkəmizdə səfərdə olan Türkiyənin ədliyyə nazirinin müavini Həsən Yılmaz ilə sentyabrın 18-də ədliyyə naziri Fikrət Məmmədovun görüşü keçirilib.**

Azərbaycan–Türkiyə qardaşlıq və dostluq münasibətlərinin bu il 100 illiyini geniş qeyd etdiyimiz Ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" prinsipi ilə uğurla inkişaf etdiyini bildirən nazir Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən əlaqələrimizin Şuşa Bəyannaməsi imzalanmaqla müttəfiqlik səviyyəsinə yüksəldiyini vurğulayıb, xalqlarımızın daim bir-birinin yanında olduğunu qeyd edib.

Qədim köklərə malik xalqlarımız arasında əlaqələrin bütün sahələrdə uğurla inkişaf etdiyini söyləyən H.Yılmaz bildirib ki, Türkiyə və Azərbaycan dövlət başçılarının şəxsi qardaşlıq münasibətləri əməkdaşlığımızın inkişafına güclü təkan verir.

Görüşdə müttəfiqlik münasibətlərində hüquqi əlaqələrin xüsusi yer tutduğu, Ulu öndərin Türkiyəyə tarixi səfəri zamanı Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair imzalanmış Protokolun qarşılıqlı fəaliyyətin genişlənməsinə təkan verdiyi, müntəzəm qarşılıqlı səfərlərin bu məqsədə xidmət etdiyi vurğulanıb.

Məhkəmə-hüquq və ədliyyə, o cümlədən penitensiar sistemdə müasir çağırışlara uyğun aparılan islahatlar və tətbiq olunan yeniliklər barədə fikir mübadiləsi aparılaraq bu sahədə birgə tədbirlərin və təcrübə mübadiləsinin faydası qeyd edilib, əlaqələrin genişləndirilməsinə maraq göstərilib.

**XQ**

# İtkin düşmüş şəxslərlə bağlı beynəlxalq konfrans



**Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının təşkilatçılığı, xarici ölkələrin sabiq dövlət və hökumət başçılarının, beynəlxalq təşkilatların, o cümlədən humanitar sahə üzrə fəaliyyət göstərən qurumların nümayəndələrinin, beynəlxalq siyasi ekspertlərin iştirakı ilə 18 sentyabr tarixində "İtkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması üçün milli və beynəlxalq səylərin artırılması" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.**

Tədbirdə öncə qonaqlar mövzu ilə əlaqədar hazırlanan videoçarxa baxmış, daha sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin konfrans iştirakçılarına müraciəti oxunmuşdur.

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri Əli Nağıyev beynəlxalq konfransın iştirakçılarını salamlayaraq tədbirin əhəmiyyətinə toxunmuş, mövzunun Azərbaycan üçün vacibliyinə diqqət çəkmişdir. Dövlətimizin başçısının əsir-girov götürülmüş, itkin düşmüş şəxslərlə bağlı məsələyə daima xüsusi həssaslıqla yanaşdığını bildirən Komissiya sədri Birinci Qarabağ müharibəsində itkin düşmüş 3890 nəfər vətəndaşımızın taleyinə aydınlıq gətirilməsi istiqamətində son illərdə görülmüş işlər barədə ətraflı məlumat vermiş, 2021-ci ilin fevral ayından başlayaraq, həmin şəxslərə aid olması ehtimal edilən məzar yerlərində aşkar edilən meyit qalıqlarının eyniləşdirilməsinin intensiv şəkildə həyata keçirildiyini demişdir. O, Prezident İlham Əliyevin müvafiq tapşırığı ilə ayrılmış vəsait hesabına Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi-tibb baş idarəsinin tərkibində yaradılmış və ən müasir avadanlıqlarla təchiz edilmiş genetik laboratoriyada meyit qalıqlarının eyniləşdirilməsi imkanlarından geniş söhbət açaraq, komissiyanın fəaliyyətinə və itkin vətəndaşlarımızın taleyinin müəyyən edilməsi işinə göstərdiyi dəstəyə və diqqətə görə ölkə başçısına dərin təşəkkürünü ifadə etmişdir.

Vurğulanmışdır ki, son günlər ərzində eyniləşdirilməsi aparılan və ictimaiyyətə açıqlanan 15 nəfərdən başqa, Dövlət Komissiyasının səyləri və görülən təxirəsalınmaz tədbirlərlə konfrans ərəfəsində 1-i mülki şəxs və 9-u hərbçi olmaqla, 10 nəfər vətəndaşımızın meyit qalıqları eyniləşdirilmişdir. Xidmət rəisi Əli Nağıyev onların sırasından "Azərbaycanın Milli Qəhrəmanı", vaxtilə təhlükəsizlik orqanlarının əməkdaşı olmuş, Birinci Qarabağ müharibəsində böyük igidlik və şücaət göstərmiş, 1992-ci il yanvarın 26-da rəhbərlik etdiyi kəşfiyyat qrupu ilə Daşaltı kəndindəki döyüşdə yaralanaraq itkin düşmüş Riad Əhmədovun müəyyən olunmasının ciddi ictimai hadisə olduğunu xüsusilə qeyd etmişdir.

Dövlət Komissiyasının sədri Ermənistanın qeyri-konstruktiv və humanizmə zidd addımlarından əl çəkməklə dəqiq mina xəritələrini və məzar yerləri barədə məlumatları təqdim edəcəyi təqdirdə taleyi qeyri-müəyyən olan itkin düşmüş vətəndaşlarımızın axtarışı prosesinin daha sürətlə aparıla biləcəyindən də danışmışdır. Əli Nağıyev rəsmi Yerevanı bu məsələdə əməkdaşlığa səy göstərməyə çağırmış və bildirmişdir ki, Ermənistanın bu humanitar missiyanın həyata keçirilməsində edəcəyi yardım hər iki tərəfdən itkin düşmüş şəxslərin tez bir zamanda müəyyənləşdirilməsinə və xeyli müddətdir davam edən humanitar böhranın aradan qaldırılmasına səbəb olardı.

Komissiya sədri bəzi erməni ideoloqların azərbaycanlılarla ermənilərin birgə yaşamasının qeyri-mümkünlüyünə dair fikirlərinə də münasibət bildirmiş, monoetnik Ermənistandan fərqli olaraq çoxmillətli və çoxkonfessiyalı Azərbaycanda bütün xalqların nümayəndələri ilə yanaşı, ermənilərin də daim sülh və rifah içində yaşadığını nəzərə çatdırmış, ölkəmizin erməni əhalisini azərbaycanlılarla birgəyaşayış mühitini formalaşdırmağa dəvət etmişdir.

Çıxışının sonunda Əli Nağıyev beynəlxalq konsfransın itkin düşmüş şəxslərin taleyinin müəyyən olunması məsələsinə mühüm töhfə verəcəyinə ümidvar olduğunu söyləmiş, tədbirdə iştirak edən müvafiq sahə üzrə ixtisaslaşmış alim və mütəxəssislərin öz bilik və təcrübələri ilə bölüşdükləri üçün onlara minnətdarlığını çatdırmış, gələcəkdə görüləcək işlər sayəsində itkin düşmüş digər vətəndaşlarımızın da taleyinə tezliklə aydınlıq gələcəyinə, bu işdə Dövlət Komissiyasının beynəlxalq humanitar təşkilatlarla birgə fəaliyyətinin daha nəticəyönümlü olacağına inandığını, itkinlərin tapılması məqsədilə qarşıya qoyulmuş vəzifələrin bundan sonra da bütün mümkün imkanlar səfərbər olunmaqla lazımi səviyyədə yerinə yetiriləcəyinə əminliyini bildirmişdir.

Sonra konfrans sözügedən sahədə əldə olunan nailiyyətlər və həllini gözləyən problemlər, itkin düşmüş şəxslərlə bağlı mövcud beynəlxalq çərçivə və silahlı münaqişə tərəfləri olan dövlətlərin qarşılıqlı əlaqələrinin gücləndirilməsi vasitələri, itkin düşmüş şəxslərə aid meyit qalıqlarının yerinin müəyyən edilməsində müasir texnologiyaların tətbiqi, ölkələrarası təcrübə mübadiləsi, hökumətlərlə itkin düşmüş şəxslərin ailələri arasında əməkdaşlıq mövzularında panel müzakirələrlə və çıxışlarla davam etmişdir.

***

Sonra konfrans işini sessiyalarla davam etdirib.

"İtkin düşmüş şəxslərlə bağlı mövcud beynəlxalq çərçivə və silahlı münaqişə tərəfləri olan dövlətlər arasında əməkdaşlığın gücləndirilməsi vasitələri" mövzusunda birinci sessiyada Meksikadan olan müstəqil ekspert Kristofer Ballinas Valdes moderatorluq edib.

İclasda əsas məruzəçi qismində çıxış edən Azərbaycanın xarici işlər nazirinin müavini Fariz Rzayev bildirib ki, ölkəmiz 30 ildir itkin düşən şəxslərin taleyinin müəyyənləşdirilməsi problemindən əziyyət çəkir. "Təəssüf ki, Ermənistan tərəfi bu məsələdə əməkdaşlıqdan yayınır", – deyən nazir müavini insanların qeyri-qanuni şəkildə girov götürülməsini insan hüquqlarına zidd addım adlandırıb. Mina problemi məsələsinə toxunan F.Rzayev bununla bağlı ölkələr arasında məlumat mübadiləsinin aparılmasının vacibliyini vurğulayıb.

Beynəlxalq Qırmızı Xaç Komitəsinin məhkəmə koordinatoru xanım Elif Günçenin moderatorluq etdiyi "İtkin düşmüş şəxslərin problemi ilə bağlı irəliləyişlər və problemlər, o cümlədən məhkəmə ekspertizasından və digər inkişaf etməkdə olan texnologiyalardan istifadə etməklə itkin düşmüş şəxslərin qalıqlarının yerinin effektiv müəyyən edilməsi" mövzusunda ikinci sessiyada çıxış edən Azərbaycan Respublikası Baş prokurorunun müavini–hərbi prokuror Xanlar Vəliyev bildirib ki, işğaldan azad olunmuş ərazilərdə aşkarlanmış kütləvi məzarlıqlardan, ümumilikdə, ən azı, 508 şəxsə aid meyit qalıqları tapılaraq götürülüb.

Həmçinin bildirilib ki, dəfələrlə müraciət olunmasına baxmayaraq, Ermənistan kütləvi məzarlıqların yeri barədə məlumat verməkdən qəsdən yayınır.

Konfransda Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyevin moderatorluq etdiyi "Təsirə məruz qalan ölkələrin nümayəndələrinin iştirakı ilə təcrübə mübadiləsi" mövzusunda üçüncü sessiyada Bolqarıstanın və Xorvatiyanın sabiq prezidentləri Rosen Plevneliyev və İvo Yosipoviçin videomüraciətləri dinlənilib.

İclasda çıxış edən Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupunun rəhbəri İsmayıl Axundov bildirib ki, təxirəsalınmaz tədbirlər nəticəsində mütəxəssislərimiz tərəfindən itkin düşmüş 25 nəfərin identifikasiyası mümkün olub. Onlardan 15 nəferi barədə cari ilin avqust ayında ictimaiyyətə məlumat verilmişdi. Daha 10 nəfərinin şəxsiyyəti müəyyənləşdirilib. Onlardan 9-u hərbçi, 1-i isə mülki şəxsdir.

"Hökumətlər və itkin düşmüş şəxslərin ailələri arasında əməkdaşlıq" mövzusunda sonuncu – dördüncü sessiyada Azərbaycan Qızıl Aypara Cəmiyyətinin nümayəndəsi Şaban Şayev moderatorluq edib. İclasda Azərbaycandan, Bosniya və Herseqovinadan olan ailələrin üzvləri çıxış edib, İtkin düşmüş şəxslər ilə iş üzrə cavabdeh Peru hökuməti nümayəndəsinin və İtkin düşmüş şəxslər üzrə hökumətə məsləhətçı qismində çıxış edən Kolumbiya ailə assosiasiyası nümayəndəsinin videomüraciətləri dinlənilib.

Konfransın bağlanış mərasimində əvvəlcə yekun Bəyannamə qəbul edilib.

**XQ**

**Hələ keçən ilin may ayında Danimarkanın "Maersk" logistika şirkətinin mətbuat xidməti Asiyanı Mərkəzi Asiya vasitəsilə Avropaya birləşdirməklə Azərbaycandan keçən yeni dəmiryol və dəniz marşrutu hazırladığı barədə məlumat yaymışdı. Açıqlamada marşrutun hazırlıqlarına həmin ilin mart ayından başlanıldığı və ilk reysin aprel ayında Çindən yola düşəcəyi bildirilirdi.**

# Dünya nəhəngi "Maersk" Azərbaycanı seçib

## *Danimarkanın logistika şirkətinin yeni marşrutu ölkəmizdən keçəcək*




Xatırladaq ki, həmin vaxt nəzərdə tutulduğu kimi, marşrut fəaliyyətə başlayaraq, konteynerlər Çinlə Qazaxıstan sərhədindəki Horqos yaşayış məntəqəsini keçərək dəmir yolu ilə Aktau stansiyasına, daha sonra isə dəniz yolu ilə Azərbaycana çatdırılmış və buradan Gürcüstanın Poti limanına, həmçinin fider gəmisi ilə Konstantsaya (Rumıniya) yola salınmışdı. Beləliklə, yük adıçəkilən ölkədən dəmir yolu vasitəsilə Avropa dövlətləri ərazisindən keçməklə müxtəlif məntəqələrə çatdırılmışdı.

Şübhəsiz ki, o vaxtdan, təxminən, bir il ərzində dünyanın ən böyük logistika şirkəti uğurla sınaqdan keçirdiyi bu logistika infrastrukturunun mükəmməl həddə gətirilməsi məqsədilə müəyyən layihələr reallaşdırıb və bu günlərdə marşrutun Azərbaycan vasitəsilə ABŞ və Avropanı Mərkəzi Asiya ilə birləşdirdiyini elan edib.

Yeri gəlmişkən, "Maersk" 80 min nəfərə yaxın işçi heyəti olan, baş ofisi Kopenhagendə yerləşən və 135-dən çox ölkədə törəmə qurumları yerləşən Danimarka şirkətidir. Bu böyük nəqliyyat-logistika müəssisəsi konteyner daşımalarında dünya lideridir və qlobal bazarın, təxminən, 20 faizinə nəzarət edir. Şirkət, həmçinin dünyanın bir çox ölkələrində neft və qaz hasilatı, o cümlədən yüzlərlə tankerdən ibarət öz donanmasından istifadə etməklə "qara qızıl"ın nəqli ilə məşğuldur.

"Maersk"in mətbuat xidmətinin bir neçə gün bundan əvvəl yaydığı məlumata əsasən, şirkət Azərbaycan vasitəsilə dünyanın aparıcı istehsalçı ölkələrini cəlbedici Asiya bazarları ilə birləşdirəcək yeni nəqliyyat həllərini artıq hazırladığını fəxrlə bildirib və sözügedən bu nəqliyyat həllinin Uzaq Şərq, Aralıq dənizi və Avropa ölkələrini Mərkəzi Asiya bazarları ilə mükəmməl şəkildə qovuşduracağını əminliklə diqqətə çatdırıb. Mətbuat xidmətinin xəbərində daha sonra vurğulanıb: "Yeni marşrut xətti layihəsi dəniz və dəmir yolu nəqliyyatı üçün kompleks intermodal həlldir və yük daşımaları, xüsusilə, istehlak malları və texnologiyasının Mərkəzi Asiyada davamlı şəkildə genişlənən istehlak bazarlarının səmərəliliyinin artırılmasını şərtləndirir. Bu yeni fərdiləşdirilmiş həll, ilk növbədə, Qazaxıstan və Özbəkistana yönəldilsə də, Türkmənistan, Tacikistan və Qırğızıstan kimi qonşu ölkələrdə gələcək logistika təklifləri üçün əsas amil olaraq mühüm önəm daşıyır".

Hazırda nüfuzlu nəqliyyat-logistika şirkəti "Maersk" adıçəkilən marşrutun əhatə dairəsini genişləndirir və yükləri ABŞ və Uzaq Şərqdən Azərbaycandan keçirməklə Orta Asiya bazarlarına daşıyır. Şirkətin yaydığı məlumata əsasən, Gürcüstanın Poti limanı "Maersk"in qlobal okean şəbəkəsi ilə əsas əlaqədir. Bu limandan yüklər asanlıqla dəmir yolu ilə Bakıya çatdırılır.

Onu da deyək ki, "Maersk" sözügedən marşrutun səmərəliliyi məqsədilə ötən bir il ərzində Çin və Avropanı birləşdirən yenilənmiş dəmir yolu servisini işə salıb. Yükdaşımaların Qazaxıstan, Azərbaycan, Gürcüstan və Rumıniya əraziləri ilə həyata keçiriləcəyi planlaşdırılıb.

Mütəxəssislərin bildirdiklərinə görə, bu marşrutun ünvana çatdırılması, təxminən, 40 gün çəkir. Konteynerlər Çin və Qazaxıstan sərhədindəki Xorqos məntəqəsini keçdikdən sonra dəmir yolu ilə Qazaxıstanın Aktau stansiyasına çatdırılır və oradan Bakıya gedən barjalara yenidən yüklənir. Eyni zamanda, yüklər paytaxt Bakıdan dəmir yolu ilə Poti limanına, Gürcüstanın "APM Terminals Poti" operatorunun terminalına çatdırılır, oradan Rumıniyanın Konstansa limanına gedən gəmilərə yüklənir və daha sonra isə dəmir yolu ilə Avropanın müxtəlif məntəqələrinə daşınır.

Qeyd edək ki, "Maersk" müəllifi olduğu marşrutun səmərəliliyini artırmaq məqsədilə Gürcüstan, Azərbaycan, Özbəkistan və Qazaxıstanda xüsusi avtomobil parkı vasitəsilə əlaqələr yaradıb. Çinin "Juyan" nəqliyyat–logistika şirkəti də Qazaxıstan və Azərbaycan üzərindən Avropaya ilk konteyner qatarını yola salıb. Eyni zamanda, "Maersk"in tabe qurumu olan "Moller-Maersk" də Qazaxıstan, Azərbaycan, Gürcüstan və Rumıniya vasitəsilə Avropanı Çinə birləşdirən marşrut üzrə yenilənən dəmir yolu yükdaşıma xidmətinə başladığını elan edib.

"Maersk" şirkətinin məlumatında deyiir: "Nəqliyyat həlli bütün əməliyyat prosesinin monitorinqinə və idarə edilməsinə cavabdeh olan xüsusi idarəetmə qülləsi komandası tərəfindən dəstəklənir. Bu komanda yüklərin idarə edilməsinə rasional və əlaqələndirilmiş yanaşmanı təmin edir, real vaxt yeniləmələrini reallaşdırır və yol boyu yarana biləcək potensial problemlərin həllni gerçəkləşdirir".

Sonda bir məqamı da xatırlatmaq istərdik. Bu gün mövcud şərait Rusiyanı da öz ixrac-idxal yükləri üçün alternativ marşrutlar axtarmağa vadar edir. Bu marşrutlar arasında ölkəmizin ərazisi şübhəsiz ki, daha sərfəli və cəlbedicidir. Çünki Azərbaycan artıq beynəlxalq aləmdə Şərq–Qərb, Şimal–Cənub nəqliyyat dəhlizləri ilə yanaşı, Orta Dəhliz marşrutu ilə də mühüm mərkəz kimi tanınır. Ölkəmizin tərəfdaşları ilə birlikdə bu nəqliyyat infrastrukturunun tam ötürücülük gücü ilə fəaliyyətini təmin etmək üçün praktik işlər görülür. Hökumət tərəfindən dəhlizlərin inkişafına mühüm vəsait ayrılması, respublikamızda avtomobil və dəmir yollarının müasir səviyyədə qurulmasına xüsusi önəm verilməsi, həmçinin əsaslı təmirinin aparılması bunun bariz ifadəsidir.

Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TBNM və ya Orta Dəhliz) Assosiasiyası hazırda Sinqapurla birlikdə Orta Dəhlizin rəqəmsallaşması konsepsiyasını yaradır. Adıçəkilən assosiasiyanın baş katibi Haydar Abdikerimovun mediaya bildirdiyinə görə, bu gün dəhlizin detalizasiyası üzrə işlər görülür və Sinqapur, Bolqarıstan və Litva kimi ölkələrin bu marşruta qoşulacağı gözlənilir.

**XQ**

# Hirkan Milli Parkı ümumdünya sərvətidir

## Bu günlərdə UNESCO onun bu dəyərini təsdiqlədi

**(əvvəli 1-ci səhifədə)**



Xəzər dənizinin cənub-qərb və cənub sahillərini əhatə edən nadir meşə massivi və planetimizdə bənzərsizliyini qoruyub saxlayan ekosistemlərdən biri olan Hirkan Milli Parkı ölkəmizin Ümumdünya İrs Siyahısına daxil edilən ilk təbiət ərazisidir. Təbii ki, bu gerçəyin layiqli qiymətini alması təkcə ekoloqlarımızı, təbiətsevərlərimizi deyil, bütün xalqımızı ürəkdən sevindirdi və qürurlandırdı. Tarixi qaynaqlar göstərir ki, Lənkəran həmişə öz əsrarəngiz təbiəti ilə səyyahların, qonaqların, tarixçilərin, ekoloqların diqqətini cəlb edib. Bu, hər şeydən öncə, onun əlverişli coğrafi mövqeyindən və iqlim şəraitindən irəli gəlib. Axı, bu yerlərdə necə deyərlər, təbiət öz səxavət süfrəsini açanda xəsislik etməyib, əsrarəngiz gözəlliklərlə bərabər bu torpağa bol-bol nemətlər, zəngin təbii sərvətlər bəxş edib.

Əsrlərin şahidi qocaman Talış dağları bu diyarın qədimliyinin əsas göstəricisidir. Hələ mavi Xəzər! Bürkülü yay günlərində onun laciverd sularına baş vurmaq, qızıl qumlu sahillərdə gəzib dolaşmaq, günəş vannası qəbul etmək kimin ürəyindən keçmir. Bu yerlərdə bir dəfə olmuş xarici qonaq, turist təbii kondisioner kimi sərinlik yayan, bu torpağın rəmzinə çevrilən və dünyanın heç bir yerində təsadüf olunmayan ağaclar şahı Dəmirağacın, şabalıdyarpaq palıdın, Lənkəran akasiyasının və palıdının, Hirkan ağcaqayınının və şümşadının, müxtəlif nadir heyvanların, zəngin bitki örtüyünün məskəni olan qədim Hirkan meşələrinin qoynunda təkrar-təkrar olmaq arzusundadır.

Ölkəmizdə ilk təbiət abidəsinin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi "Heydər Əliyev ili"nə təsadüf etməsi ikiqat sevindiricidir. Çünki Hirkan meşələrinin ayrıca təbiət qoruğu kimi yaradılması məhz Ulu öndərin adı ilə bağlıdır. Sonralar bu diqqət və qayğını Prezident İlham Əliyev ardıcıl ekoloji siyasəti ilə davam etdirdi. Beləliklə, qədim Hirkan meşələrinin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi ölkə başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ekoloji sahədə illər boyu apardıqları məqsədyönlü fəaliyyətinin məntiqi nəticədir.

Hirkan Milli Parkı da həmişə Dövlət qayğısı ilə əhatə olunub. Qoruq 888 hektar sahədə 1936-cı il dekbar ayının 8-də ilk dəfə olaraq Lənkəran Qoruğu adı ilə yaradılıb, sonradan onun sahəsi 15 min hektara qədər artırılıb. 1961-ci ildə o, Qızılağac Dövlət Qoruğunun filialına çevrilib. 1969-cu ildə isə Ulu öndər Heydər Əliyevin tapşırığı ilə Hirkan Dövlət Qoruğu müstəqil qoruq elan edilib

Parkın relikt və endemik bitkilərinin, heyvanat aləminin, zəngin bitki örtüyünün mühafizəsi ilə əlaqədar son illərdə xeyli iş görülüb. Bu park, Talış dağları və meşələri haqqında danışarkən akademik Həsən Əliyevin 1957-ci illərdən başlayaraq, burada apardığı elmi işlərə nəzər salmaq kifayətdir. Keçmiş SSRİ-nin tanınmış təbiət alimləri ilə bu yerlərdə tez-tez olan, geniş tədqiqatlar aparan akademik XVII əsrin əvvəllərində bura səfər edən Almaniyanın Rusiyadakı səfiri Adam Olerinin Muğan səhrası, keçilməz Lənkəran meşələri, Talış dağları barədəki məlumatlarını aşkar edərək sistemləşdirib. Diplomat yazıb ki, buranın füsunkarlığını görmədən, oranı təsəvvür etmək çətindir. Bura elə "cənnət bağı"nın özüdür.

Hirkan meşələrini bir botanika bağına və zooloji parka çevirməyi təklif edən akademik Həsən Əliyev bu yerlərin gələcəyinə böyük inam bəsləyirdi. elmi araşdırmalara, apardığı çoxsaylı tədqiqatlara, müşahidələrinə əsaslanaraq deyirdi ki, Talış meşələri dünyada tayı-bərabəri nadirlərin nadiridir və bunu qoruyub artırmaq yerli sakinlərin və dövlətin borcudur.

Geniş sahəsinə, hər qarış torpağa düşən bitkinin zənginliyinə görə üstün olan Hirkanın özünün ətraf mühitə, təbiətə böyük təsiri var. Burada hər ağac, hər kol can dərmanıdır. Cənub bölgəsinin bu zəngin parkı şəfa qaynağıdır. Azərbaycan təbiətşünasları dəfələrlə Hirkanın təbii gözəliklərindən savayı, onun bitkilərinin min bir dərdin dərmanı olduğunu sübut ediblər. Onlardan biri – Seyid Əli Kazımbəyov "Səidiyyə" əsərinda yazır ki, "taun və vəba xəstəlikıəri bütün ətrafı–Ərdəbil, Rəşt, Qarabağ, Şirvan və qeyri yerləri tutduğu halda Talışa sirayət etmədi". Məlum olmuşdur ki, dünyanın müxtəlif yerlərində baş verən xəstəliklərin əli bu füsunkar diyara çatmır. Səbəbi nədir? Tədqiqatlar nəticəsində bəlli olmuşdur ki, bu yerlərdə bitkilərin biomüxtəlifliyi, yüzlərlə ağac və kolun təbii dərman mənbəyi olması, landşaftın özündə ayrı-ayrı xəstəliklərə qarşı müvazinətin güclü olması və s. əlamətlərdir.




Milli Park flora və faunası ilə zəngindir. Buradakı ağacların əksəriyyətində Hirkan adı çəkilməsi fərdi xüsusiyyət daşıyır, bunların ancaq adıçəkilən əraziyə mənsubluğunu təsdiq edir. Hirkan ağcaqayını, Hirkan armudu, Hirkan ənciri, Hirkan bikəvəri, Hirkan şümşadı və daha onlarca bu ünvanlı ağac və gül kolu... dəmirağac, şabalıdyarpaq palıd, yarpaqvarı qızılağac, qanadmeyvə, yalanqoz... Bütün bunlar qiymətli, nadir ağaclardır və bunlardan hazırlanan qiymətli əşyalar dünyanın məşhur muzeylərində indi də saxlanılır.

Bəs, Milli Parkın heyvanat aləmi? Xallı maral, cüyür, çöl donuzu, bəbir, oxlu kirpi, porsuq, dələ, Hirkan arıquşu... Adlarını çəkdiyimiz heyvanat növləri də məhz Hirkan Milli Parkında yaşayır və bu yerlərin zəngin iqliminə uyğunlaşıb.

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəisi Firudin Əliyev Hirkan təbiət abidəsinin UNESCO-nun İrs siyahısına daxil edilməsi ilə əlaqədar gördükləri işlər barədə bildirdi:**

– Hirkan meşələrinin UNESCO-nun Ümumdünya irs siyahısına daxil edilməsi ilə əlaqədar ötən müddət ərzində onlayn formatda bir çox işçi görüşləri keçirilib. Görüşlərdə yerli ekspertlərlə yanaşı, nominasiya sənədinin hazırlanmasında beynəlxalq ekspertlər də iştirak edib. Sonralar müəyyən səbəblər üzündən nominasiya təklifləri barədə qərarın qəbul edilməsi qeyri-müəyyən vaxta təxirə salınıb.

Ölkəmizin ərazisində geoparkların yaradılması və qlobal geoparklar şəbəkəsinə qoşulmasına dair işlər davamlı şəkildə aparılır. "Xüsusi Mühafizə Olunan Təbiət Əraziləri və Obyektləri haqqında" Azərbaycan Respublikasının qanununda müvafiq dəyişikliklər edilib, "Azərbaycan Respublikasının geoloji parkların ümumi əsasnaməsi" təsdiq olunub.

1 saylı Regional ETSİ-nin rəisi, təcrübəli ekoloq Ceyhun Hüseynov Hirkan meşələrinin UNESKO-nun İrs siyahısına salınması ilə əlaqədar sevincini bizimlə bölüşərək dedi:

– Təbiətin varlığı, onun bütün sərvətləri hamımız üçündür. Odur ki, insanın şüuruna, düşüncəsinə təsir göstərmək, onda təbiətə vurğunluq hissi oyatmaq borcumuzdur. Respublikamızda da həmin vəzifələr ayrı-ayrı müvafiq təşkilatlar və təbiəti sevən insanlar tərəfindən həyata keçirilir.

Hirkan meşələrinin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi bizə qürur hissi yaşatmaqla bərabər, eyni zamanda, təbiətimizin flora və faunasının zənginliyini qorumaq baxımından məsuliyyətimizi qat-qat artırır.

*__Bəxtiyar HÜSEYNOV,__*
*__Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü, yazıçı-ekoloq__*

**Məhərrəm Qasımlı – 65**

# Alim, şair və ozan ömrünün yetkinlik zirvəsi

**Bu günlərdə ölkənin elmi-mədəni ictimaiyyəti görkəmli folklorşünas, Azərbaycan Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, professor Məhərrəm Qasımlının anadan olmasının 65 illiyini sevgi-sayğı ilə qeyd edir.**



65 yaş insan üçün çox olmasa da, Tanrının sənə bəxş etdiyi bu ömür payını mənalı və məzmunlu yaşaya bilmək, Vətən, millət və dövlət üçün faydalı ola bilmək baxımından az zaman da deyil. Bu mənada, haqqında söhbət açmaq istədiyim Məhərrəm Paşa oğlu Qasımlı arxada qoyduğu 65 ildə həm özü, həm də cəmiyyət üçün faydalı və məhsuldar bir ömür yaşaması ilə öyünə bilər. Bu ömür yolunu qısaca xarakrerizə etmiş olsaq, sadəcə, bu kəlmələr kifayət edər: alim, şair və ozan ömrü!

Bir ömürdə 3 missiyanı eyni məsuliyyətlə daşımaq hər kəsə nəsib olan bir hal deyil: Alim Məhərrəm Qasımlını bu gün təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarlarda da müvafiq sahənin adamları nüfuzlu folklorşünas kimi yaxşı tanıyır, tez-tez əsərlərinə istinad edirlər; Şair Orxan Paşa isə poeziya həvəskarlarının şeirlərini sevə-sevə oxuduğu, qoşma və gəraylılarının aşıqların repertuarını bəzədiyi qiymətli söz adamıdır. Bütün bunlarla yanaşı, məncə onu daha çox məşhur edən, sevdirən ozan-aşıq mədəniyyətinin ən yaxşı tədqiqatçısı və təbliğatçısı olmasıdır ki, bu səbəbdən də onu həm də ozan adlandırsaq, yanılmarıq.

Onun həm alimliyinin, həm də şairliyinin mayasında ozan-aşıq sənətinə bağlılığı dayanır. Hərdən adamda elə təsəvvür yaranır ki, alim Məhərrəm Qasımlı olmasaydı, şair Orxan Paşa da olmazdı. Yaxud əksinə, şair-ozan Orxan Paşa olmasaydı, alim Məhərrəm Qasımlı bu qədər şöhrət tapmazdı. Şöhrət demişkən, onun şöhrəti dövlətimiz tərəfindən də rəsmiləşdirilib: 2018-ci ilin avqustunda Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif olunub. Bundan 3 il əvvəl isə Əməkdar elm xadimi fəxri adına layiq görülüb, Dövlət mükafatı laureatıdır.

İlk dəfə aşıq yaradıcılığının nəzəri əsaslarını yaradan folklorşünas alim olaraq qeyri-maddi mədəni irs nümunələrimizin tədqiqatında müstəsna xidmətləri ilə yanaşı, uzun illərdir Azərbaycan Dövlət televiziyasında aşıq sənəti, bütövlükdə, ozan-aşıq mədəniyyəti ilə bağlı apardığı verilişlər onun ziyalı obrazını daha da kamilləşdirir. Bu obrazı daha dolğun əks etdirmək üçün özünün həmin zümrə ilə bağlı fikirlərinə diqqət yetirək: "Əsl ziyalılıq odur ki, sən dərbəndli olmadan tutduğun əməlləri, hərəkət və davranışları görən Dərbənd camaatı elə bilsin sən də Dərbənddənsən, lənkəranlı səni Lənkərandan, gəncəli Gəncədən, naxçıvanlı Naxçıvandan, qarabağlı Qarabağdan, təbrizli Təbrizdən, urmiyalı Urmiyadan, zəncanlı Zəncandan, göyçəli Göyçədən, şirvanlı Şirvandan bilsin. Sevginlə, əməlinlə Vətən boyda görünəsən. Vətənin hər yerindən görünəsən".

Bu kəlmələrlə Məhərrəm müəllim özü də fərqinə varmadan özünün ziyalı obrazını yaradıb. Neçə illərdir ki, hər həftə mavi ekrandan sazın səsi duyulan, saz ruhlu insanlar yaşayan bölgələrdə, ölkələrdə hər evin qonağı olur. Saz-söz vurğunları onun hər verilişini səbirsizliklə gözləyir, qiymətli söhbətlərini heyranlıqla dinləyirlər. Ekran-efir yaradıcılığı, tamaşaçılarla ünsiyyəti onu Azərbaycanın hər evinin sevimlisinə çevirməklə yanaşı, qonşu ölkələrdə də məşhurlaşdırıb.

Məhərrəm Qasımlıya görə, sazın səsi dağların səsidir, "saf suların ağ səsidir", bu səs Koroğlunu oyaq saxlar, çünki "ər səsi, qoçaq səsidir". Deyir, bu səs ulu dərgaha bağlıdır, ona görə də "daim ölümsüzdür – sağların səsidir". Nur içində nurdan gələn bu səs Haqqın səsidir. Bir alim və şair kimi qənaəti də budur: "Bu gün dünənə ona görə işıq tutmalıdır ki, sabah daha aydın görünə bilsin!" Sadəcə bunu deməklə kifayətlənmir, dediklərini əməli işə çevirir. Yaradıcı fəaliyyətinin ana xəttini təşkil edən ozan-aşıq mədəniyyətini araşdırması mədəniyyətimizin bu qədim sahəsinə ayna tutmaqla yanaşı, onun işıqlı sabahının yolgöstərənidir.

"Poeziya bütün başqa göstəriciləri ilə yanaşı, birinci növbədə, istedad və dil hadisəsidir", – deyən Məhərrəm Qasımlı haqlı olaraq bu qənaətdədir ki: "Bizim bu günkü şeir dilimiz folklor və ozan-aşıq ədəbiyyatından süzülüb gəlir". Və bir vətəndaş-alim təəssübkeşliyi və ürəkağrısı ilə qeyd edir ki: "Tarix içindəki ən böyük yanlışlığımız türk dilinin statusunu türk qılıncının statusu səviyyəsinə qaldıra bilməməyimiz oldu".

Müxtəlif ölkələrədə tədqiqatları nəşr edilən, əsərləri Azərbaycan folklorşünaslığının əhəmiyyətli hissəsini təşkil edən, beynəlxalq elmi konfranslarda məruzə və çıxışları böyük maraqla dinlənilən, aşıq sənəti sahəsindəki sistemli elmi-təşkilati fəaliyyəti ilə bir sıra uğurlu layihələrə imza atan, çoxsaylı kitab, monoqrafiya və məqalələri Azərbaycanın elmi və ədəbi xəzinəsini zənginləşdirən, başdan-başa özü bir kitab olan Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlının kitabla bağlı fikirləri də maraqlıdır: "Bizim günlərin təzadlı mənzərəsi: bir yandan "kitab" adı daşıyan cildli, bər-bəzəkli kağız yığınlarının əlindən tərpənmək olmur, o biri yandan da, demək olar ki, oxumağa abırlı bir kitab tapmaq müşkülə çevrilib".

Məqamında və çox sərrast ifadə olunmuş bu fikri ilə isə barışmamaq sadəcə mümkün deyil: "Kitab kimi adamlar azaldıqca, adam kimi kitablar da yoxa çıxır".

Tanınmış tənqidçi-ədəbiyyatşünas alim Qurban Bayramov yazır: "Orxan Paşa ictimai mühitimizi düşündürən, ona nigarançılıq gətirən, qayğılandıran problemləri, həmçinin sevinc və qürur dolu halları poetik tərzdə, səmimiyyətlə, inandıraraq ictimailəşdirməyi bacarır və bu, onun bədii mətnlərinin poetik yaddaş səviyyəsində yaradıcılıq məziyyətidir..."

Ədəbiyyatşünas alimin bu fikirlərini təsdiqləyən onlarla şeirindən nümunə gətirmək olar Orxan Paşanın. Hər bəndi, hər misrası xalq yaradıcılığından, folklorumuzdan güc alan şeirləri könüloxşayan gözəl poeziya nümunəsi olmaqla yanaşı, həm də öyüd-nəsihətdir, hikmətdir.

Azərbaycan folklorşünaslığında özünəmxsus yeri və rolu olan, ilk dəfə aşıq yaradıcılığının nəzəri əsaslarını yaradan görkəmli alim, Əməkdar elm xadmi, professor, aşıq sənətinin yorulmaz tədqiqatçısı və təbliğatçısı Məhərrəm Qasımlını – xalq yaradıcılığı və aşıq şeiri formalarının kamil bilicisi, könüloxşayan poeziya nümunələri müəllifi şair Orxan Paşanı – dəyərli ozanımızı 65 illik yubileyi münasibəti ilə təbrik edir, Azərbaycan elminin və mədəniyyətinin daha da inkişafı naminə yorulmaz və səmərəli fəaliyyətində daha böyük uğurlar arzulayırıq.

*__Musa NƏBİOĞLU,__*
*__Əməkdar mədəniyyət işçisi__*

# Gəncəlilər belarus dostlarının qonağı olublar

**Gəncə Şəhər İcra Hakimiyyətinin və Gəncə Avtomobil Zavodu İstehsalat Birliyinin nümayəndə heyəti Belarusun Qomel şəhərinin 881-ci ildönümü münasibətilə bu şəhərdə keçirilən tədbirlərdə iştirak edib.**

Ənənəvi olaraq sentyabrın 15–17-də təşkil olunan bayram tədbirləri hər il Belarusun Milli həmrəylik günlərinə təsadüf edir və ayrı-ayrı ölkələrdən minlərlə qonaq dəvət olunur. Qomel Şəhər İcraiyyə Komitəsinin dəvəti ilə bu dəfə Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Adil Tağıyev və Gəncə Avtomobil Zavodunun direktoru Kamran Nəzərov "Şəhər günləri" tədbirlərində iştirak ediblər. Onlar, eyni zamanda, şəhər icraiyyə komitəsinin sədri Vladimir Privalovla görüşüb, Gəncə şəhər rəhbərliyinin və ictimaiyyətinin təbriklərini, xoş arzularını çatdırıblar. A.Tağıyev görüşdə Azərbaycan–Belarus arasında qardaşlıq münasibətlərinin və iqtisadi-ticari əlaqələrin çox yüksək səviyyədə olduğunu qeyd edib.

Bildirilib ki, ölkələrimiz arasında ticarət dövriyyəsi hər il artır və müəssisələrimiz arasında birgə əməkdaşlıq münasibətləri yüksələn xətt üzrə inkişaf edir. A. Tağıyev Gəncə ilə Qomel şəhərlərinin qardaşlaşması ilə bağlı niyyət protokolunun imzalandığını və bununla da müxtəlif sahələr üzrə əməkdaşlıq məsələlərinin müzakirə edildiyini qeyd edib. Başçının müavini Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovun salamlarını və bayram təbrikini çatdırmaqla bərabər, Qomel şəhərinin icraiyyə komitəsinin sədri Vladimir Privalovu Gəncəyə dəvət edib.

Gəncə Avtomobil Zavodunun direktoru Kamran Nəzərov görüşdə bildirib ki, rəhbərlik etdiyi müəssisə Belarus şirkətləri ilə birgə əməkdaşlıq çərçivəsində müxtəlif model yük avtomobilləri və traktorlar, taxılyığan kombaynlar, avtokranlar, ağır yükdaşıyan dartıcılar, maye qazla işləyən avtobuslar və müasir elektrobusların yığımını həyata keçirir.

**Hamlet QASIMOV,**
**"Xalq qəzeti" nin bölgə müxbiri**



Üzeyir Hacıbəyli – 138

# Azərbaycanda Üzeyir Musiqi Günü şənlikləri

## Bəstəkarın şərəfinə XV Beynəlxalq Musiqi Festivalı da başlanıb

**18 Sentyabr Üzeyir Musiqi Günündə ölkəmizdə dahi bəstəkarın xatirəsi dərin ehtiramla yad edilib, gün ərzində müxtəlif şənliklər keçirilib. Həmin gün Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı sentyabrın 28-dək davam edəcək Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalı da start götürüb.**



Bu il 18 sentyabr adını Azərbaycanın musiqi mədəniyyəti salnaməsinə qızıl hərflərlə yazdırmış Üzeyir Hacıbəylinin anadan olmasının 138-ci ildönümüdür. Mədəniyyət tariximizin bu əlamətdar gününün tədbirlər silsiləsi ənənəvi olaraq I Fəxri xiyabanda Üzeyir bəyin məzarının ziyarət olunması ilə başlanıb. Mərasimdə mədəniyyət naziri Adil Kərimli, nazirliyin məsul əməkdaşları, tanınmış mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Nazir mərasimə toplaşanları Milli Musiqi Günü münasibətilə təbrik edərək bildirib ki, 18 sentyabr mədəniyyətimizin ən əlamətdar günlərindən biridir: "Bu gün dahi bəstəkar Üzeyir Hacıbəylinin doğum günüdür. 18 sentyabr müstəqillik illərində böyük musiqi xadiminin şərəfinə ölkəmizdə Üzeyir Musiqi Günü kimi qeyd olunur. Milli musiqi bayramı sayılan bu gün Üzeyir Hacıbəylinin anadan olmasının 110 illiyi münasibətilə Prezident Heydər Əliyevin 1995-ci il 18 sentyabr tarixli fərmanı ilə təsis edilib. Bununla bağlı ölkəmizdə hər il silsilə tədbirlər keçirilir, bəstəkarın mədəniyyətimiz qarşısında misilsiz xidmətləri yada salınır. 2009-cu ildən Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə dahi bəstəkarın adı ilə şərəflənən ənənəvi beynəlxalq musiqi festivalı da keçirilir. Bu gün artıq 15-ci festifal başlanır. Festival çərçivəsində müxtəlif tədbirlər təşkil ediləcək, bir sıra ölkələrdən ifaçı və kollektivlər çıxış edəcək".

Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadə dahi bəstəkarın musiqi tariximizdəki rolunu belə dəyərləndirib: "Nə qədər ki, Azərbaycan xalqı var, dahi bəstəkarın ölməz irsi hər zaman yaşayacaq".

Sonra mərasim iştirakçıları I Fəxri xiyabanda uyuyan Azərbaycan musiqisinin korifeylərindən Qara Qarayev, Fikrət Əmirov, Bülbül, Rəşid Behbudov, Niyazi və Müslüm Maqomayevin də məzarlarını ziyarət ediblər.

Mərasim iştirakçıları, həmçinin Ümummilli lider, mədəniyyətimizin böyük hamisi Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini də ehtiramla anaraq məzarları üzərinə tər çiçək dəstələri düzüblər.

Üzeyir Musiqi Günü şənlikləri ənənəvi olaraq Azərbaycan Milli Konservatoriyasından başlanıb. Əvvəlcə rektor, Xalq artisti Siyavuş Kərimi çıxış edərək Üzeyir Hacıbəylinin adı ilə bağlı olan Milli Musiqi Gününün önəmindən, dahi bəstəkarın yaradıcılığından, Azərbaycan musiqisinin inkişafında xidmətlərindən danışıb: "Fikrimcə, dünyada ən yaxşı 5 musiqi mədəniyyəti varsa, onlardan biri Azərbaycan xalqına məxsusdur. Musiqimiz səsləndirildiyi hər bir ölkədə böyük maraqla qarşılanır. Bu musiqini professional səviyyəyə məz böyük Üzeyir bəy yüksəldib".

Mədəniyyət nazirinin müavini Murad Hüseynov Üzeyir Hacıbəylinin doğum günü şərəfinə təsis olunan Milli Musiqi Gününün hər il təntənə ilə qeyd olunduğunu bildirib, bayram münasibətilə musiqisevərləri təbrik edib.

Şənlik musiqi proqramı ilə davam edib. Azərbaycan Milli Konservatoriyasının tələbələrindən ibarət "Buta" xalq çalğı alətləri orkestri (bədii rəhbər və dirijor Aysel Bağırova) tərəfindən Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasından "Müqəddimə" təqdim edilib. Orkestrin müşayiəti ilə Əməkdar artist Təyyar Bayramov, xanəndələr Arzu Əliyeva və Aytən Məhərrəmovanın ifasında "Qarabağ şikəstəsi" səsləndirilib.

***

**Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında da bəstəkarın xatirəsi ehtiramla anılıb, şərəfinə konsert proqramı səsləndirilib.**

Akademiyanın rektoru, Xalq artisti Fərhad Bədəlbəyli dahi Üzeyir bəyin mədəniyyət tarixindəki rolundan danışıb, onun Azərbaycan musiqi mədəniyyəti tarixində yeni yol açdığını, milli bəstəkarlıq məktəbinin özülünü qoyduğunu vurğulayıb: "Azərbaycanın zəngin musiqi mədəniyyəti var. Biz də Üzeyir bəyin ənənələrinə sadiq qalaraq musiqi irsimizi yaşatmalı və inkişaf etdirməliyik".

Sonra Müdafiə Nazirliyinin Nümunəvi və Əlahiddə Hərbi Orkestrinin və Azərbaycan Dövlət Xor Kapellasının ifasında klassik musiqi nümunələri təqdim olunub. Əməkdar artist Xəyyam Mustafazadə, solistlər Aynur İsgəndərli, Kənan Qədimov və başqa sənətçilərin ifasında Ü.Hacıbəylinin "Koroğlu" operasından "Uvertüra" və "Rəqs", "Ey Vətən", M.Maqomayevin "Odlar yurdu", F.Bədəlbəylinin "Anamız Azərbaycan", R.Axundzadənin "Qələbə marşı" əsərləri və "Heyratı" zərb muğamı səsləndirilib.

***

**Silsilə tədbirlər Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrının qarşısında, Üzeyir Hacıbəyovun Ev Muzeyində və "Fəvvarələr" meydanında davam etdirilib.**

Yağışlı-yağmurlu payızın sərin nəfəsi duyulsa da, açıq havada keçirilən tədbirlərə minlərlə tamaşaçı toplaşıb. Üzeyir musiqisinə olan maraq və sevgi insanların Azərbaycanın incəsənətinə doğma münasibətini əks etdirib. Şənliklərin iştirakçıları beynəlxalq festival tədbirlərinə də qatılmaq arzusunda olduqlarını bildiriblər.

Göründüyü kimi, dahi bəstəkarın sənət yolu bu gün də uğurla davam etdirilir. Onun banisi olduğu bəstəkarlıq məktəbi yetirmələrinin sayəsində milli musiqimizin dünyada şöhrəti daha da artıb. Azərbaycan sənətçilərinin nüfuzlu beynəlxalq festival və müsabiqələrdə qazandıqları mükafatlar bunu bir daha təsdiq edir.



***

**Dünən dahi bəstəkarın şərəfinə Azərbaycanda Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalı da başlayıb.**

Xatırladaq ki, Mədəniyyət Nazirliyi beynəlxalq festivalın saytını (https://uhf.culture.az) hazırlayaraq istifadəyə verib. Musiqisevərlər sayt vasitəsilə musiqi bayramının tarixi, festivalın proqramı, Üzeyir Hacıbəylinin həyat və yaradıcılığı haqqında ətraflı məlumat ala bilərlər. Qeyd edək ki, festival günlərində Bakı ilə yanaşı, Gəncə və Şəmkirdə də ABŞ, Fransa, Gürcüstan, Xorvatiya, Rusiya, Almaniya, Sinqapur və digər ölkələrdən musiqiçilərin iştirakı ilə maraqlı konsertlər, ustad dərsləri və s. təşkil olunacaq.

Dünən axşam Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalı çərçivəsində Heydər Əliyev Sarayının səhnəsində Arif Məlikovun "Məhəbbət əfsanəsi" baleti nümayiş olunub.

İlk azərbaycanlı musiqişünas-alim, böyük bəstəkar və ictimai xadim olan Üzeyir Hacıbəyliyə bir çox ilklər mənsubdur. O, Azərbaycan musiqi tarixində ilk operanı yazıb, ilk musiqili komediya və bir sıra digər janrlarda ilk nümunələrin yaradıcısı olub. Azərbaycan musiqisinin dərinliklərini və istiqamətlərini araşdıraraq əsaslandırıb. Üzeyir Musiqi günü və XV Beynəlxalq Musiqi Festivalı çərçivəsində keçirilən rəngarəng tədbirlərdən də görünür ki, dünya durduqca bu böyük azərbaycanlının sənəti yaşayacaq, öz xalqına mənəvi zənginlik və şöhrət gətirəcək.

***

**Azərbaycan musiqişünaslığında özünəməxsus yeri olan dahi bəstəkar Üzeyir Hacıbəylinin xatirəsi Avstriyada da anılıb.**

Üzeyir Musiqi Günü münasibətilə ölkəmizin Avstriyadakı səfirliyinin və Mədəniyyət Mərkəzinin təmsilçiləri dahi Azərbaycan bəstəkarının Vyanada ucaldılmış abidəsini ziyarət ediblər. Vyanadakı Dunay Parkında yerləşən abidə önünə gül dəstələri qoyulub.

Qeyd edək ki, Vyanadakı Dunay Parkında Üzeyir Hacibəylinin abidəsi 2006-cı ildə ucaldılıb. Şəhərin əsas istirahət məkanlarından biri olan bu parkda dahi bəstəkarın abidəsinin müəllifi görkəmli heykəltəraş Ömər Eldarovdur.

*Ramilə QURBANLI,*
*Fidan HÜQUQQIZI,*
*Elşən AĞALAROV (foto)*
*XQ*

# İnsanlıq və humanistlik mücəssəməsi

**Həmişəyaşar əsərləri ilə dünya mədəniyyətinə tükənməz xəzinə bəxş etmiş cahanşümul dahimiz Üzeyir bəy Hacıbəyli həm də qeyri-adi xeyirxahlığı və humanistliyi ilə ölməzlik qazanıb, qəlblərdə özünə əbədi abidə ucaldıb. Onun haqqında çox yazılsa da, sənəti və sənətkarlığı, insanpərvərliyi bütünlüklə tədqiq olunmayıb.**



Ü.Hacıbəyli yaradıcılıqda böyük qüdrət sahibi olduğu kimi, bir insan kimi də qeyri-adi cəhətlərə malik idi. Sənətkar istedadı ilə insani keyfiyyətləri bir ahəng təşkil edib, biri digərini tamamlayıb. Akademik Mustafa Topşubaşov, Xalq şairi Rəsul Rza, şair-tərcüməçi Vladimir Qafarov və başqaları Üzeyir bəy haqqında ürək sözlərini böyük məhəbbətlə qələmə alıblar.

Biologiya elmləri namizədi Məmməd Abbasov isə ona həsr etdiyi "Böyük insan" adlı xatirəsində yazırdı: "Yaxşı yadımdadır, 1943-cü ilin yanvar ayında hərbi hospitalda müalicə olunduqdan sonra yenidən cəbhəyə gedirdim. Yolum Tbilisi şəhərindən keçirdi. Burada bir gün qalası oldum. Vaxtdan istifadə edib Tbilisidə hərbi hospitalda yatan uşaqlıq dostum, böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin oğlu Ərtoğrolun yanına getdim. Onunla bir saatadək söhbət etdik...Əsasən, Ərtoğrol danışırdı. Deyirdi ki, Üzeyir bəy peyğəmbərdir. Onun kimi insan az-az tapılar. Atam tutulandan sonra dostlarının, qohumlarının çoxu bizdən üz döndərdi. Bizə himayə duran, köməklik göstərən yalnız Üzeyir bəy Hacıbəyli oldu. O, heç nədən çəkinmədən, qorxmadan həmişə ailəmizə maddi və mənəvi yardım göstərirdi."

Onun tələbələri, dostları, tanışları, müəllimləri, hətta tanımadığı adamlar belə Üzeyir bəyin qayğıkeşliyindən, yaxşılıqlarından danışırlar. Vaxtilə doğma Şuşa şəhərində Üzeyir bəy Hacıbəyliyə dərs demiş Mirzə Mehdi Həsənzadəyə, xanəndə İslam Abdullayevə, Keçəçi oğlu Məhəmmədə, tələbələrinə və başqalarına şəxsi pulundan kəsdiyi təqaüd, etdiyi yardımlar indi də o insanların özləri və yaxınları tərəfindən unudulmur.

Deyirlər ki, bir gün Üzeyir bəy konservatoriyadan evə gələrkən yolda əl açıb dilənən bir qadına rast gəlir. O, qadına yaxınlaşaraq, dilənməklə əldə etdiyi qazancla maraqlanır. Qadın ayda 150 manat qazandığını və ailəsini dolandırdığını söyləyir. Azərbaycan qadınının dilənməklə pul qazanmasından narahat olan Üzeyir bəy ona deyir ki, türk qadınına yaraşmaz ki, yolda otursun, əl açaraq pul qazansın. Mən sənə ayda 300 manat təqaüd verəcəm, bir şərtlə ki, səni bir də əl açan görməyim. Üzeyir bəy qadını evlərinə gətirir, həyat yoldaşı Məleykə xanımla tanış edir. Ona söyləyir ki, hər ay bu evə gələrsən və Məleykə xanımdan təqaüdünü alarsan.

Dahi bəstəkarın tələbələrindən Qara Qarayev, Fikrət Əmirov, Soltan Hacıbəyov, Cövdət Hacıyev, Süleyman Ələsgərov, Əşrəf Abbasov, Hacı Xanməmmədov, Məmməd Cavadov, Cahangir Cahangirov, Səid Rüstəmov, Ədilə Hüseynzadə, Şəfiqə Axundova, Ağabacı Rzayeva, Hökümə Nəcəfova və başqaları bəyin onlara göstərdiyi atalıq qayğısından, xeyirxahlığından dönə-dönə söz açırdılar və hər dəfə də kövrəlirdilər. Fikrət Əmirov yazırdı ki, Üzeyir bəydə Antey qüdrəti vardı. Biz hamımız bu dahi insanın "şinel"indən çıxmışıq.

Üzeyir bəy tələbələrinə maddi və mənəvi dəstək göstərməklə yanaşı, əyninin paltosunu, ayaqqabısını da çıxarıb onlara verərdi. Məmməd Cavadov xatirələrində yazırdı ki, bir gün Aydın adlı tələbə yoldaşımızın ayaqqabısının nimdaş olduğunu görən böyük ustadımız öz ayaqqabısını çıxarıb ona verdi. Özü isə evə zəng çalaraq, ayaqqabı göndərilməsini xahiş etdi. O, öz əsərlərinə görə əldə etdiyi qonorarın bir hissəsini uşaq bağçalarına, İkinci Dünya müharibəsində cəbhəyə, əsgərlərə yardıma, ictimai fondlara sərf edirdi.

**Məmməd Cavadov daha sonra yazır: "1943-cü ilin 15 martı idi. Üzeyir bəy bir neçə tələbəni yanına çağırıb dedi:**

– Uşaqlar, eşitdiyimə görə, Azərbaycanın qocaman xanəndəsi Keçəçi Məhəmməd xəstələnib. Gedin, onu yoluxun və mənə bir xəbər gətirin. Xəstəyə mer-meyvə almaq üçün cibindən pul da çıxarıb verdi. Biz götürmək istəmədik. Ay müəllim, bizdə pul var, – dedik. Bizim bu sözümüzdən qeyzlənən Üzeyir bəy dedi:

"Siz tələbəsiniz, pulunuzu özünüzə xərcləyin."

Böyük xanəndəmiz doğrudan da xəstə idi. O, zəif səslə dedi: "Sağ olsun Üzeyir bəy, məni yada salıb, sizi göndərib. Lakin vəziyyətim ağırdır. Əgər mümkündürsə, Üzeyir bəyə deyin, mənə həkim də yollasın". Biz bu xəbəri müəllimimizə çatdıran kimi, Üzeyir bəy dərhal Keçəçi Məhəmməd üçün həkim də göndərdi".

Dahi sənətkarla bağlı maraqlı xatirələri olan böyük yazıçımız, ictimai xadim, akademik Mirzə İbrahimov bu əvəzsiz insan barədə belə yazırdı: "Sonralar bir sahədə, bir yerdə onunla işlədiyimiz, vacib məsələləri həll etdiyimiz zaman mən Üzeyir bəyin nə qədər alicənab, insanpərvər, mehriban, sadə təbiətli, müdrik, eyni zamanda, inamından, idealından dönməyən bir adam olduğunu gördüm. Üzeyir bəy Hacıbəyli genişürəkli insan idi."

Azərbaycan Milli Elmlər Akademiyasında 1945-ci ildə Üzeyir bəy Hacıbəylinin yaratdığı və direktoru olduğu İncəsənət İnstitutunda onun müavini vəzifəsində çalışmış Qəzənfər Əlizadə isə öz xatirələrində yazırdı: "Üzeyir bəy özündən çox bizim qayğımıza qalırdı. Bilmirdik atadır, qardaşdır, qohumdur, tanışdır, dostdur, yoxsa idarə müdiri, rəhbər."

Üzeyir Hacıbəylinin Ev Muzeyinin yaradıcısı, uzun illər onunla birlikdə çalışmış və şəxsi katibi olmuş baldızı oğlu, "Şöhrət" ordenli professor Ramazan Xəlilov deyirdi ki, Üzeyir bəylə təmasda olarkən mən onda dərin insaniyyətlik kəşf etmişəm. Üzeyir bəyi xeyirxahlığın və humanistliyin dahi müəllimi adlandırardım. R. Xəlilov söhbətlərində dönə-dönə vurğulayardı: " Tale mənə elə bir ömür bəxş edib ki, həyatım boyu çox insanlarla ünsiyyətdə olmuşam, amma Üzeyir bəy kimi ikinci bir insan qarşıma çıxmayıb. O, yeganə idi".

Sözün əsl mənasında, böyük insan olan Üzeyir bəy dünyaya, sanki, yaxşılıq, xeyirxahlıq etmək üçün gəlmişdi. Mərhum Ramazan Xəlilov danışırdı ki, bir gün artırmada dayanıb muzey tərəfə baxırdım. Gördüm ki, yaşlı bir kişi muzeyin divarını öpür. Cəld onun yanına gedərək bunun səbəbini soruşdum. O, ahıl insan mənə dedi ki: "Bu ev pirdir. Burada peyğəmbər kimi insan yaşayıb. Mən onun pulu ilə böyümüşəm. Bura mənim üçün müqəddəs bir ocaqdır."

Üzeyir bəyin muzey kimi fəaliyyət göstərən evinin qarşısında böyük sənətkarın sağlığında uşaq evi fəaliyyət göstərib. Üzeyir bəy bütün bayramlarda, xüsusilə də özünün çox sevdiyi Novruz bayramında uşaqlara çoxlu hədiyyə, pal-paltar, oyuncaq, ərzaq, şirniyyat göndərərdi. Bundan əlavə də həmin evin müdirinə pul verərdi ki, uşaqlar üçün bayram plovu bişirilsin. Valideyn himayəsindən məhrum olmuş bu uşaqlar da Üzeyir bəyə xüsusi hörmət və ehtiram bəsləyərdilər. Üzeyir bəy evdə olanda uşaqların otaqlarında xüsusi sakitlik hökm sürərdi . O, işdə olanda isə uşaqların səs-küyündən qulaq tutulardı.

Elə adam tapılmazdı ki, Üzeyir bəyə müraciət etsin və xahişi cavabsız qalsın. O, saysız-hesabsız insanlara əl tutmuş, onların ehtiyacını ödəmişdir. Kiminə pulla köməklik edib, kiminə musiqi aləti alıb bağışlayıb, kimini işlə təmin edib, kiminə geyim verib, kiminin təhsil almasına yardım göstərib.

Belə insanlardan biri də nəğməkar şairimiz İslam Səfərli idi. 1946-cı ildə Üzeyir bəy Hacıbəyli Naxçıvanda seçiciləri ilə görüşə getdiyi zaman onunla tanış olmuşdu. Deməli, Üzeyir bəyin qaldığı "Qonaq evi"nə əsgər paltarında cavan bir oğlan gələrək yazdığı şeirləri bəstəkara göstərib. Bu, müharibədən yenicə qayıtmış İslam Səfərli idi. Söz sərrafı olan böyük sənətkar şeirləri oxuyur və bəyənir. Gənc oğlana Bakıya gəlməyi tövsiyə edir. Bildirir ki, o, mütləq ali təhsilə yiyələnməlidir. Gənc şair Bakıya getmək üçün maddi durumunun olmadığını söyləyir. Bunu eşidən Üzeyir bəy gənc oğlana zərfin içində pul verərək, onu Bakıda gözləyəcəyini deyir.

İslam Səfərli Bakıya gəlir. Birbaşa Üzeyir bəy Hacıbəylinin yanına gedir. Üzeyir bəy onu görüb çox sevinir və Azərbaycan Dövlət Universitetinin rektoru Abdulla Qarayevə telefon açaraq bu istedadlı gəncin universitetə qəbul olunmasını xahiş edir. Qəbul imtahanlarının vaxtından çox keçməsinə baxmayaraq, A. Qarayev Üzeyir bəy Hacıbəylinin sözünü yerə salmır. Deyir ki, Üzeyir bəy, gözüm üstə, sizin sözünüz bizim üçün qanundur, göndərin, gəlsin. Beləliklə, İslam Səfərli universitetə imtahansız qəbul olunur. Təqaüdünü isə hər ay Üzeyir bəy verir. Görkəmli şair bu yaxşılığı ömrünün sonuna qədər unutmur. Yeri gəldikcə, bu barədə həvəslə söz açardı.

Qəzəlxan şairimiz Əliağa Vahidə ev verdirən də bu dahi insan olub. Ramazan Xəlilov danışırdı ki, bir gün Üzeyir bəylə köhnə məhəllələrin birindən keçirdik. Bir də gördük ki, Əliağa Vahid kiçik bir daxmanın yanında oturub. Ona yaxınlaşdıq. Üzeyir bəyi görən kimi, şair cəld ayağa qalxdı. Bəstəkar soruşdu ki, Vahid, burada nə edirsən? Vahid zirzəmini göstərərək dedi ki, Üzeyir bəy, mən burada yaşayıram. İçəri çox isti və rütubətlidir, nəfəs almaq olmur. Ona görə də çıxıb havada otururam. Üzeyir bəy evə gələn kimi, lazımi yerlərə zəng edərək, Vahidin mənzil şəraitinin ağır olduğunu söylədi və şairə yeni tikililərdə ev verilməsinə nail oldu.

2005-ci ildə, 89 yaşında dünyasını dəyişmiş gözəl qadın bəstəkarımız, Əməkdar incəsənət xadimi Ədilə xanım Hüseynzadə Üzeyir bəyi peyğəmbər adlandırar, onun insanpərvərliyindən, səxavətindən danışdıqca kövrələrdi.

Üzeyir bəy Hacıbəylinin xeyirxahlıq etdiyi insanlardan biri də gözəl səsə malik Fatma Mehrəliyeva olub.

Deyilənə görə, Üzeyir bəy kin saxlamağı sevməzdi. Özünün etdiyi xeyirxahlığı da tez unudardı. Hamıya yaxşılıqda bulunmağı məsləhət görərdi. Pislik etmək çox asandır deyərdi. Çalışın, sizə pislik edənə yaxşılıq əlinizi uzadın. Bunun özü də elə həmin adam üçün bir cəza deməkdir.

*Səadət QARABAĞLI,*
*üzeyirbəyşünas*

BEYNƏLXALQ HƏYAT

# Qarabağdakı separatçı rejimin keçmiş rəhbəri Ukraynanın hədəfində

## Erməni mediası Kiyevə qarşı “savaş açıb”

**Azərbaycandan sonra Ukrayna da Qarabağdakı separatçı rejimin keçmiş rəhbəri Arayik Arutyunyanı axtarışa verib. Onun nədə təqsirli hesab edildiyinə aydınlıq gətirəcəyik. Ancaq əvvəlcə bildirək ki, 2020-ci ilin mayından separatçıbaşı postuna yiyələnmiş A.Arutyunyan barəsində 2020-ci ilin oktyabrında Azərbaycan Cinayət Məcəlləsinin 100.1, 100.2 (Təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və ya aparma), 116.0.1, 116.0.6, 116.0.7, 116.0.8-1 (Silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 117.2 (Silahlı münaqişə zamanı cinayətkar əmr vermə), 120.2.1, 120.2.4, 120.2.12 (Qəsdən adam öldürmə), 186.3 (Əmlakı qəsdən məhv etmə), 214.2.1, 214.2.3 (Terrorçuluq), 218.3 (Cinayətkar birlik (təşkilat) yaratma), 279.3-cü (Qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri yaratma) maddələri ilə cinayət işi başlanılıb.**

Araikin nə üçün Kiyevin qəzəbi ilə üzləşməsinə gəlincə, onun Rusiya–Ukrayna müharibəsində birincini aşkar şəkildə müdafiə etdiyi vurğulanmalıdır. Məlum olduğu kimi, Arutyunyan Rusiya Prezidenti Vladimir Putinə separatçı Donetsk və Luqansk bölgələrinin “müstəqilliklərinin” tanıması ilə bağlı təbrik məktubu göndərmişdi. Heç şübhəsiz, bu “təbrik” Kreml rəhbərinin analoji addımı Qarabağda atmaqda həvəsləndirmək məqsədini daşımışdı.

Əlqərəz, Ukrayna Təhlükəsizlik Xidməti Arayikin adını Ukraynanın “Sülhməramlı” saytının “Rusiya təcavüzünün ortaqları” məlumat bazasına əlavə edib. Ukrayna mətbuatının yazdığına görə, o, “Ukraynanın suverenliyinə və ərazi bütövlüyünə qəsd etməkdə”, “Rusiya-faşist işğalçılarının və terrorçularının şəriki” kimi tanınır.

Əlbəttə, A.Arutyunyan müharibə canisidir və tutduğu əməllərə görə mütləq qanun qarşısında cavab verəcəkdir. Diqqət çəkən məqam onun Ukrayna tərəfindən, belə demək mümkünsə, “persona non-qrata” elan edilməsindən sonra Ermənistan mediasında Ukrayna əleyhinə fikirlərin tirajlanmasıdır. Bu fikirlərdən gəlinən qənaət isə belədir ki, Kiyev rəhbərliyinin Rusiya ilə apardığı mübarizə yersiz və mənasızdır. Deməli, Ukrayna imkan verməli imiş ki, rus qoşunları gəlib ölkəni tutsunlar.

***

Erməni mediası və ekspert dairələri Ukraynanın Rusiyaya qarşı əks-hücumunun alınmadığını, boşa çıxdığını bildirib ölkəni, sanki, məsxərə predmetinə çevirməkdədirlər. Onlar, hətta, Kiyevə nə qədər ki, gec deyil, Moskvanın şərtlərini qəbul etmək “tövsiyəsi” də ünvanlayırlar. Ən maraqlısı və təzadlısı isə budur ki, Ukraynanın müharibə nəticəsində tamamilə acınacaqlı və dözülməz duruma düşdüyünü iddia edən erməni başbilənlər Qərbin ölkəyə dəstəyinin də səmərə vermədiyini, ümumən Qərbə bel bağlamağın düzgün olmadığını əsaslandırmağa çalışırlar.

Belədə sual yaranır: İndiki Ermənistan hakimiyyəti kimə bel bağlayaraq kimə qarşı çıxır? Cavab birmənalıdır – baş nazir Nikol Paşinyan administrasiyası Qərbə güvənib Rusiyanı saymazdan gəlir. Nəinki saymazdan gəlir, eyni zamanda, Moskvanı Cənubi Qafqaz siyasi akvatoriyasından çıxarmaq kimi son dərəcə təhlükəli oyuna baş vurub. İrəvan hazırda Ukrayna müharibəsi fonunda, faktiki olaraq, bölgədə Kremlə qarşı ikinci cəbhə açıb. Bunun müqabilində Arayik müdafiə olunur və Ukrayna rəhbərliyinin ona qarşı mövqeyinə qəzəb və hiddət püsgürülür.

Təsəvvür edin, Ermənistan mediası Ukraynanı Rusiyanın mülki hədəflərinə hücumda günahlandırır. Belə absurd iddia yəqin ki, ancaq erməni yastığının altından çıxa bilər. Aydındır ki, necə deyərlər, ayının min oyunu bir armudun başındadır. Armud isə Qarabağ avantürasıdır. Erməni mediası bildirir ki, A.Arutyunyanın axtarışa verilməsi, onun adının “qara siyahı”ya salınması rəsmi Kiyevin Ermənistana və “Artsax”a münasibətinin növbəti sübutudur. Belədə nəticəyə gəlinir ki, əslində, Ukrayna SSRİ dağılandan sonra başlanmış Qarabağ münaqişəsində həmişə Azərbaycanın tərəfində olub.

Onu da təsəvvür edin ki, Kiyevin Bakını diplomatik səviyyədə dəstəklədiyini yazan erməni mediası bir qədər də “irəli gedir” və bildirir ki, sən demə, İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan Ordusunun tərkibində ukraynalı muzdlular da iştirak edib ermənilərə qarşı döyüşüblər. Hər halda, bunu erməni beyin mərkəzlərinin gün üzü görməmiş cəfəngiyyatı kimi də qiymətləndirmək mümkündür. Görəsən, belə beyin qıcqırması keçirənlər nə üçün bu vaxtadək susurdular? Gözləyirdilər ki, Arayik axtarışa verilsin, sonra danışsınlar?

Nəhayət, erməni mediasının, belə demək mümkünsə, Arutyunyan sevdalı anti-Ukrayna ritorikasındakı sonuncu məqama diqqət yetirək. Sən demə, N.Paşinyanın həyat yoldaşı Anna Akopyanı Kiyevə göndərməsi Ukrayna ilə dostluq dialoqu imiş. Ancaq qarşı tərəf Arayiki cinayətkar kimi tanımaqla, İrəvana adekvat olmayan cavab verib.

***Ə.RÜSTƏMOV***
***XQ***

“Ucar Tikinti Quraşdırma” QSC səhmdarlarının nəzərinə!

4 noyabr 2023-cü il saat 11.00-da “Ucar Tikinti Quraşdırma” QSC səhmdarlarının növbəti illik ümumi yığıncağı Ucar şəhəri, Dədə Qorqud küçəsindəki ofisdə keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** QSC-nin 2022-ci ilin yekunlarına aid maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.

**2.** Təşkilati məsələ–QSC-nin idarəetmə orqanlarının seçilməsi.

**3.** QSC-nin səhmlərinin alqı-satqısı barədə.

**4.** Digər məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

Ümumi yığıncağın gündəliyindəki məsələlərə dair materiallarla iş günləri saat 9.00-dan 18.00-dək QSC-nin rəhbərliyinə müraciət etməklə tanış olmaq mümkündür.

***İdarə heyəti***

İdman

# Ən güclü ağırlıqqaldıranımız Dadaş Dadaşbəyli Ər-Riyadda 3 medal qazanıb

## *Dünya çempionatında tarixi nəticə*

**Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda keçirilən dünya çempionatında uzun fasilədən sonra 3 medal qazanan Azərbaycan ağırlıqqaldıranı Dadaş Dadaşbəyli Vətənə qayıdıb. İdmançını Heydər Əliyev Beynəlxalq Aeroportunda yaxınları, federasiya rəsmiləri və idman ictimaiyyətinin nümayəndələri qarşılayıblar.**




**Dadaş Dadaşbəyli jurnalistlərə müsahibə verərək yarış təəssüratlarını bölüşüb:**

– “Qazandığım nailiyyət Azərbaycan ağır atletikasında son illərin ən böyük uğurudur. Dünya çempionatı karyeram ərzində iştirak etdiyim ən güclü turnirdir. Bu yarışdan medalsız dönmədiyimə görə çox sevinirəm. Bu, ölkəmiz üçün, xüsusən də ağırlıqqaldırma üçün böyük uğurdur.

İdmançı başda Gənclər və İdman Nazirliyi olmaqla, Azərbaycan Ağır Atletika Federasiyasına, məşqçilərə, bu uğurun əldə edilməsində əməyi keçən hər kəsə minnətdarlığını bildirib. Turnirə çox ciddi hazırlaşdığını, təlim-məşqlərdə böyük səy göstərdiyini vurğulayan atlet bundan sonra əsas hədəfin Olimpiya Oyunlarında iştirak etmək olduğunu deyib:

– “Dünya çempionatının mükafatını qazanmağı qarşıya məqsəd qoymuşdum. Aylarla evə getməyib fasiləsiz məşqləri davam etdirirdim. Rəqiblərimin də çox güclü olması məni qətiyyən qorxutmurdu. Sona qədər mübarizə apararaq medal əldə etdim. İndi əsas hədəf Paris Olimpiadasında iştirak etməkdir. Bunun üçün bütün səylərimi toplayacağam.

**Ağırlıqqaldırma üzrə Azərbaycan millisinin baş məşqçisi Emil Əliyev Dadaş Dadaşbəylinin böyük potensiala malik olduğunu vurğulayıb:**

– “Dadaş Azərbaycanda ağırlıqqaldıranların hazırkı lideridir. Çox güclü idmançıdır. Qarşıya qoyduğu hədəfə çatmaq üçün öz üzərində səylə çalışır. Güclü potensiala malikdir. Onun rəqibləri arasında Olimpiya və dünya çempionu olan idmançılar var idi. Şübhəsiz, belə idmançılarla mübarizə aparmaq çox çətindir. Bütün bunlara baxmayaraq, təmsilçimiz qarşıdakı çətinlikləri dəf edərək tarixi nəticəyə imza atdı. Əminik ki, idmançımız gələcəkdə də ona bəslənilən ümidləri doğruldacaq. Sevinirik ki, dünya çempionatında öz sözümüzü dedik. Bundan sonrakı sınaqlarda da yeni nailiyyətlər əldə etmək üçün böyük səylə çalışmalıyıq”.

Qeyd edək ki, 109 kq çəki dərəcəsində çıxış edən idmançı birdənqaldırmada 180, təkanlaqaldırmada 223 kiloqramı başı üzərinə qaldırıb, hər iki hərəkətdə üçüncü yeri tutub. Toplam 403 kq (180+223) nəticə göstərən Dadaş Dadaşbəyli dünya çempionatının yekun sıralamasında da 3-cü nəticə göstərib.

Xatırladaq ki, sonuncu dəfə ağırlıqqaldırma üzrə dünya çempionatında Azərbaycana medalı 2015-ci ildə Boyanka Kostova (qızıl medal) qazandırmışdı.

***Leyla AZAD***
***XQ***

# Paşinyançılar mer seçkisində Rusiyayönümlü qüvvələri üstələsələr də...

## Ölkədə vəziyyət “rusca”dır

**Ermənilər tarix boyu yaşadıqları ərazilərdə başqa xalqlardan çox şey oğurlayıblar. Xüsusən, bütün qonşularının musiqisinə, ədəbiyyatına, folkloruna daha çox şərik çıxıblar. Azərbaycan rəvayətlərini, nağıllarını oğurlayıb şeirə çevirən haylardan biri də Hamo Sahyan idi. Şəxsən mənim uşaq yaşlarımdan bildiyim iki kiçik nağılı ( “Sən maralla mən maral...” və “Bir quyruq maya qoysam da...”) o təmsil kimi qələmə almışdı.**

İkinci təmsildə deyilir ki, Birəbitdən quşu (ona çəpər sərçəsi də deyirlər) bulaqdan su içmək istəyəndə görür ki, Ay “suya düşüb”. Səs-küy qaldırır ki, kömək edin, Ayı göyə qaldıraq. Heç kəs kömək eləmir. Özü Ayı sudan çıxartmaq istəyəndə dimdiyi hansısa otun kökünə ilişir. Dartır, dartır, birdən otun kökü qırılır və cırtdan quş quyruğu üstündə daşa dəyir. Zarıyanda görür ki, Ay göydədir. Fəxr edir: “Bir quyruq maya qoysam da, Ayı göyə çıxartdım”. Nikol Paşinyanın bu ilin aprelində keçirmək istəyib bacarmadığı, sentyabrın 17-də isə çoxsaylı ermənilərin dediyi kimi, saxtakarlıqla dolu olan mer seçkisində qalib gəlməsi elə Birəbitdən quşunun “zəfər”inə bənzəyir.

“Novosti Armenia” hələ apreldə keçirilməli olan mer seçkiləri barədə yazmışdı ki, ağsaqqallar iclasa gəlmədiyinə görə seçki baş tutmayıb. Qeyd edək ki, qanuna əsasən, seçkilər yolu ilə formalaşan Ağsaqqallar Şurası meri seçir. Sentyabın 17-də keçirilmiş seçkiyədək şurada hakim “Mənim addımım” alyansının 57, “Çiçəklənən Ermənistan” partiyasının 5, “Luys” blokunun isə 3 mandatı var.

Avqustun 18-də isə Ermənistan mətbuatı yazdı ki, növbədənkənar İrəvan Ağsaqqallar Şurası (Şəhər Şurası) seçkiləri sentyabrın 2-3-də keçiriləcək. Yenə baş tutmadı. Üstəlik, müxaliflər bütün dünyaya səs saldılar ki, Nikol Paşinyan İrəvan meri vəzifəsində dostu olan komediya aktyorunu görmək istəyir. Qərəz, bu il avqustun 16-də Ermənistan hakimiyyəti İrəvan Şəhər Şurasının buraxılması haqqında qərar qəbul etdi. Buna səbəb şuranın paytaxtın yeni merini seçə bilməməsi idi.

“İrəvan şəhərində yerli özünüidarəetmə haqqında” qanuna əsasən, paytaxt merini Ağsaqqallar Şurası seçir. Şuranın üzvləri 65 nəfərdən ibarət olur və ümumşəhər seçkiləri, əsasən, partiya prinsipi üzrə formalaşır. Əgər seçkilərin yekunu üzrə partiyalardan biri yerlərin 50 faizindən çoxunu əldə edərsə, o zaman siyahıya rəhbərlik edən partiyanın namizədi İrəvanın meri hesab olunur.




Erməni mətbuatı yazır ki, İrəvanın sabiq meri Taron Marqaryan iyulun 9-da vəzifəsindən imtina edib. Səbəb isə paytaxtda onun istefası tələbi ilə keçirilən etiraz aksiyaları idi.

Axır ki, bu dolambac yollardan keçən şura seçkisi sentabrın 17-də baş tutdu. Ermənistan Mərkəzi seçki komissiyası İrəvan meriyasına (Ağsaqqallar Şurasına) keçirilən seçkilərdə səslərin elektron hesablanmasını başa çatdıranda məlum oldu ki, Nikol Paşinyan seçici fəallığının heç otuz faizə çatmadığı səsvermə prosesində rusiyayönümlü siyasi qüvvələri üstələyib. Belə ki, 825 minə yaxın seçici olan ölkədə seçki məntəqələrinə cəmi 234 mindən çox seçicinin gəldiyi səsvermədə birinci yerib tutan partiyanın göstəricisi də çox cüzidir. Hakim “Mülki müqavilə” partiyası 28, 46 faiz səslə birinciliyi qazanıb.

Yeri gəlmişkən, Nikol Paşinyanın rəhbərlik etdiyi partiyanın paytaxt ağsaqqallarını seçən səsvermədə bu qədər aşağı göstəriciyə imza atmasının əsas səbəblərindən biri də Azərbaycan əsgərlərinin ayaq səsləridir. Belə ki, beş il əvvəl həmin seçkidə Paşinyanın partiyası 81 faizdən çox səs qazanmışdı. İkinci Qarabağ müharibəsindəki rüsvayçı məğlubiyyət onun nüfuzuna, həqiqətən, sarsıdıcı zərbə vurmuş və göstəricisi 81-dən 28-ə düşmüşdür.

İşğalçı ölkə mətbuatının yazdıqlarına görə, Mərkəzi seçki komissiyasının hesabatında göstərilən rəqəmlərin çoxu saxtadır. Xüsusən, seçkidə iştirak edənlərin sayı həddən artıq şişirdilib. Bir adamın dörd-beş yerdə səs verdiyi söylənilir. Şahidlər bildirirlər ki, bülletenləri nümayişkəranə sürətdə zərfdən çıxarır və hakim partiyanın namizədi Taron Marqaryanın adının qarşını işarələyərək, qutuya atırdılar.

Müxalif müşahidəçinin sözlərinə görə, bir seçici taksi xidmətinin avtomobilləri və mikroavtobuslarla müxtəlif məntəqələrə gətirilirdi. Şahidlər bildirirlər ki, törədilmiş saxtakarlıqlar nə erməni xalqının xeyirinədir, nə də Ermənistan dövlətinin. Odur ki, bu faktlardan sonra saxtakarların həyatı cəhənnəmə çevriləcək. “Bizim böyük komandamız var və bütün saxtakarlıqları ortaya çıxaracağıq” – deyən müxalifət fəalı bildirib ki, Ermənistanı iğtişaşlar bürüyəcək.

Daha bir maraqlı məqama da diqqət yetirək: “Novosti Armenia” yazır ki, sabiq prezident Serj Sarkisyan xanımı Rita Sarkisyanla birlikdə səs vermək üçün seçki məntəqəsinə gəlib. Lakin seçicilərin adlarını barmaq izləri ilə təsdiq edən aparat Sarkisyanı “tanımayıb”.

Bütün eybəcərliklərinə baxmayaraq, bu seçkinin nəticələri rəsmiləşdirildi. Kimsə soruşur ki, bəs bu nəticələrin bizə faydası olacaqmı? Əvvəla, dövlət başçımızın da dediyi kimi, biz heç bir məsələdə Ermənistanın daxili işlərinə qarışmamışıq və qarışmayacağıq. Sadəcə öz ərazi bütövlüyümüzün tam bərpası üçün lazım olan bütün addımları atacağıq. İkinci, Nikol Paşinyan iqtidarının bəd əməlləri olsa da, onların uğuru “Daşnaksütyun”un da, revanşistlərin də, digər işğalçılıq, terrorçuluq və təxribatçılıq kimi fəaliyyəti olan qüvvələrin qələbəsinə nisbətən məqbuldur. Üçüncü, seçkinin nəticələrindən sonra Ermənistanda xaos və anarxiyanın başlanacağını deyənlər də var. Bu isə Cənubi Qafqaza sülh gətirilməsi üçün aparılan siyasətə mənfi təsir göstərə bilər.

Amma bir fakt da var ki, Ermənistanda deyilən hansısa söz, verilən anons və ya söylənilən proqnoz çox vaxt reallığa çevrilmir. Bu ölkə Allahın ümidinə qalıb. Əhali bədbəxt, dövlət girinc vəziyyətdədir. Çıxış yolunu tapmağa isə ermənilik xəstəliyi mane olur.

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

Ekspert rəyi



**Fikrət SADIXOV,**
**professor, siyasi şərhçi**

– İrəvan meri uğrunda keçirilən seçkilərdə hakim partiya kifayət qədər səs toplaya bilmədi. Bu, ona dəlalət edir ki, Ermənistanın baş naziri Nikol Paşinyanın ölkə daxilində ciddi problemləri yaranıb.

Qeyd etmək lazımdır ki, Paşinyanın üzləşdiyi problemlər onun özünün səhv, yalnış daxili və xarici siyasət xətti həyata keçirməsi ilə əlaqədardır. Bunu, əlbəttə ki, sıravi seçicilər görür, müqayisə edir və nəticə çıxarırlar. Bəli, hər şey göz qabağındadır: baş nazirin əhali arasında dəstəyi günbəgün azalır.

Paşinyanın reytinqinin aşağı düşməsinin səbəblərindən biri də elə budur. İrəvandakı 17 sentyabr seçkiləri N.Paşinyanı ölkədəki siyasi və sosial sferadakı acı reallıqla üz-üzə qoyur.

Ermənistan hökumətinin başçısı indi ya seçkilərin nəticələri ilə razılaşmalı, ya da orada hansısa bir kolalisiya yaradılmalıdır ki, öz aralarında mer seçsinlər.

Ermənistanın hazırkı siyasi reallığına nəzər yetirəndə görürürk ki, artıq hakim partiya bir sıra istiqamətlərdə siyasi rəqiblərinə uduzur. Paytaxtda kifayət qədər səs toplaya bilməyən iqtidar bundan ciddi nəticə çıxarmalıdır.

Bir daha vurğulamaq istəyirəm, məhz Paşinyanın atdığı mənasız və məntiqsiz siyasi addımlar ölkədə belə bir acınacaqlı vəziyyətə gətirib çıxarıb.

İrəvanda meriyanın rəhbəri olmaq üçün kimin daha çox səs toplaması, kimin rəqabətdə uduzması bizi o qədər də maraqlandırmır. Yəni, bu, ermənilərin öz daxili işidir. Bizi daha çox maraqlandıran hadisələrin siyasi cəhətidir. Hər halda fakt budur ki, Paşinyanın və onun tərəfdarlarının reytinqi xeyli aşağı düşüb.

Xalq qəzeti

XQ

xalqqazeti.az

№ 202 (30318) 19 sentyabr 2023-cü il, çərşənbə axşamı

Mədəniyyət

# Xınalıq və Köç yolu da ümumdünya irsidir



**Azərbaycanın “Xınalıq və Köç yolu mədəni landşaftı” adlı nominasiya ərazisi UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Bu haqda qərar 2023-cü ilin 18 sentyabr tarixində UNESCO-nun Ümumdünya İrs Komitəsinin Səudiyyə Ərəbistanının Ər-Riyad şəhərində keçirilən 45-ci sessiyasında qəbul edilib.**

Dövlət Turizm Agentliyi tərəfindən hazırlanan nominasiyaya əsasən, Ümumdünya İrs Ərazisi Xınalıq kəndi də daxil olmaqla, yerli əhalinin istifadə etdiyi ətraf yaylaq (Quba və Qusar) və Mərkəzi Aran bölgəsinə düşən qışlaq ərazilərini (Abşeron və Hacıqabul), həmçinin onların arasında uzunluğu 200 km-dən çox olan tarixi Köç yolunu (Quba-Şamaxı-Qobustan) əhatə edir.

UNESCO-ya təqdim edilən sənədin əsasını Xınalığın köçəri mədəniyyəti təşkil edir. Əks etdirdiyi ümumbəşəri dəyərlər nəzərə alınmaqla, unikallığı ilə seçilən bu zəngin irs – “Xınalıq və Köç yolu mədəni landşaftı” adlı nominasiya sənədi 2021-ci ildə Ümumdünya İrs Komitəsinə təqdim edilib.

Qeyd edək ki, bir gün öncə UNESCO-nun Ümumdünya İrs Komitəsinin 45-ci sessiyasında Hirkan meşələri Azərbaycanın ilk təbiət irsi ərazisi olaraq UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib.

**XQ**

İdman xəbərləri

# Dünya çempionatı: Gümüş medal, Olimpiadaya lisenziya



**Azərbaycanın sərbəst güləşçisi Maqomedxan Maqomedov (97 kq) Serbiyanın paytaxtı Belqradda keçirilən dünya çempionatının yarımfinalında gürcüstanlı Givi Matçaraşviliyə 6:1 hesabı ilə qalib gələrək finala çıxıb. İdmançımız finala yüksəlməklə, həm də Paris Olimpiadasına lisenziya qazanıb.**

Komandamızın digər üzvü Osman Nurmaqomedov (92 kq) isə gümüş medal qazanıb.

Qeyd edək ki, dünya çempionatı sentyabrın 24-də başa çatacaq.

# Avropa turnirində 3 mükafat

**Azərbaycan cüdoçuları Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda təşkil olunan açıq Avropa turnirini 3 medalla başa vurublar.**



Komandamızın üzvlərindən ən yaxşı nəticəni Nəriman Mirzəyev (73 kq) qazanıb. Cüdoçumuz bütün rəqiblərini məğlub edərək qalib adına layiq görülüb. İslam Rəhimov (66 kq) gümüş, Ruslan Nəsirli (100 kq) bürünc mükafata yiyələniblər.

# Taekvondoçularımız Gürcüstanda 12 medal qazanıblar

**Gürcüstanda taekvondo üzrə “Batumi Açıq” turnirində Azərbaycan təmsilçiləri uğurla çıxış edərək 3 yaş qrupu üzrə 5 qızıl, 3 gümüş və 4 bürünc medal qazanıblar.**




Masallı Regional Taekvondo Mərkəzinin komandasının üzvü Pünhan Heydərli (33 kq) uşaqlar arasında qalib olub. Yalnız finalda uduzan Hüseyn Sadıqlı (33 kq) yeniyetmələrin yarışında ikinci, Murad Cahangirov (41 kq) üçüncü yeri tutublar.

“Alpman” klubunun taekvondoçuları 3 qızıl və 2 bürünc medal qazanıblar. Uşaqlar arasında Sübhan Rzayev (30 kq), yeniyetmələrdə Aziza Məmmədova və Səidə Həsənova (47 kq) qızıl medal alıblar. Murad Həsənzadə (25 kq) və Orxan Ağazadə (41 kq) bürünc medalla kifayətləniblər.

“Alov” klubunun yetirmələri Günər Kərimli (27 kq, uşaqlar) ikinci, Mehdi Xudiyev (45 kq, yeniyetmə) üçüncü pillədə qərarlaşıblar.

Digər medalları “Azəri” klubundan İbrahim Qədimov (54 kq, qızıl) və Ülvi Məmmədov (36 kq, gümüş) komandamızın aktivinə yazdırıblar.

***Leyla SABİRQIZI***
***XQ***

Texnologiya yenilikləri

# Bulud texnologiyaları nəyə xidmət edir?

**Bakıda “Azərbaycanda bulud texnologiyaları sahəsində trendlər” mövzusunda tədbir keçiriləcək. Tədbir İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin dəstəyi, “Sabah.Hub” və “Elcore” şirkətinin sponsorluğu ilə “Startup Grind Baku” tərəfindən təşkil olunacaq.**



Azərbaycanda bulud texnologiyalarının inkişafı özündə informasiya texnologiyalarının genişlənməsi və modernləşdirilməsini nəzərdə tutan dövlət proqramları və strateji yanaşmaların bir nəticəsidir. Bu, şirkətlərə və təşkilatlara qurumlararası əməkdaşlıq və texnologiya təminatını artırmağa imkan verir.

Bulud texnologiyaları, infrastrukturun və proqramların təminatını artıraraq və istifadəçilərə çoxsaylı mobil və digər cihazlar üzərindən giriş imkanı verərək, iş proseslərini sürətləndirir və əlaqələri gücləndirir.

Mövzunun müzakirəsini “Elcore” şirkətinin biznesin inkişafı üzrə meneceri Ramiz Aliyev, “Ericsson” şirkətinin bulud dəstəyi və inteqrasiya üzrə mühəndisi Malik Məmmədli və “AzIntelekom” şirkətinin kommersiya departamentinin direktoru Fərrux Fərəcullayev həyata keçirəcəklər.

Panel sessiyasında kloud texnologiyalarında olan ən son trendlər barədə məlumat veriləcək, həmçinin iştirakçıların sualları cavablandırılacaq.

***AYTƏN***
***XQ***

Maraq dünyamız



# Pişik üçün lift

**Yeni Zelandiyada yaşayan milyonçu blogger Liam Tompson pişiyi üçün evdəki pilləkənlərdən düşməyə kömək edən qurğu yaradıb.**

O, bu addımı sevimli pişiyi yaşlandığı üçün atıb. Gəzməyə çətinlik çəkən 20 yaşlı pişik üçün sahibi Liam lift hazırlayıb. Onun bu cihazı sosial şəbəkələrdə hər kəsin marağına səbəb olub.

İnsanların ev heyvanlarından imtina etməsi və nəzarət edə bilməməsi bütün dünyada çox sayda pişiklərin tələf olması ilə nəticələnir.

Pişiklər ilk dəfə Yaxın Şərqdə eramızdan əvvəl 7500-cü ildə əhilləşdirilmişdir. Eramızdan əvvəl 3100-cü ildə Qədim Misirdə pişiklərə ehtiramla yanaşılmağa başlanmışdır. Bu heyvanları müqəddəs hesab edən misirlilər ölümdən sonrakı həyatda da bərabər olmaq üçün onları mumiyalayırdılar.

Heç təsadüfi deyil ki, pişiklər ölülər dünyasının qoruyucuları hesab olunurdu. Antik Misirdə pişiyə bağlılıq o qədər güclü idi ki, pişiyi ölən evdə yas qurular, ev sakinləri yas əlaməti kimi qaşlarını qırxardılar.

***F. SALMAN***
***XQ***

Ekologiya

# Qlobal yangın fəlakəti

## Hər il Hindistandan böyük ərazidə meşə yanır



**Avstraliya, İspaniya, Fransa və Böyük Britaniyadan olan alimlər qrupu meşə yanğınlarının qlobal miqyasda iqlim və ekologiyaya təsirini öyrənib. Onların hesablamalarına görə, hər il yanğın Yer kürəsində 3,98 milyon kvadratkilometri əhatə edir ki, bu da Hindistanın ərazisindən (3,2 milyon kv. km) çoxdur.**

Tədqiqat işi Annual Review of Environment and Resources (ARER) elmi jurnalında dərc olunub.

Komanda yanğınların gözlənilməz yerlərdə və qeyri-adi vaxtlarda başladığına dair sübutlar tapıb. Yanğın nümunələrindəki bu dəyişikliklər insanların həyatı üçün təhlükə yaradır, eyni zamanda, ekosistemi dəyişdirir.

Peyk məlumatlarına əsasən, 1979-cu ildən 2020-ci ilə qədər yanğın mövsümünün illik uzunluğu 14 gün, gecə vaxtı baş verən yanğınların sayı isə 2003-cü ildən 2020-ci ilə qədər 7,2 faiz artıb.

***XQ***

Sağlamlıq

# Gündə 5 qara gavalı...

**Rusiyalı dietoloq İrina Mansurova insanların ən çox qəbizliyi aradan qaldırmaq üçün istifadə etdikləri gavalının digər faydalı xüsusiyyətləri barədə açıqlama verib.**



Bildirib ki, gavalı dəmir və kaliumla zəngindir. Bu da dayaq-hərəkət, sümük, ürək-damar xəstəliklərinin profilaktikası üçün çox vacibdir.

Qanazlığı, xüsusilə, dəmir defisitli anemiyası olanlar gündə 5 ədəd gavalı yeməlidir. Çünki onun 100 qramında 2 mq dəmir var.

Gavalı, həmçinin damarları təmizləyir, qaraciyərə faydalıdır. Eyni zamanda, qanda şəkəri stabilləşdirir.

Həkim, həmçinin bildirib ki, həzm problemi, ishal və öd daşı olanlar gavalıdan ehtiyatla istifadə etməlidirlər.

***Z.HÜSEYNLİ***
***XQ***

# Bölgələrdə leysan gözlənilir...

**Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, sentyabrın 19-da Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Lakin gecə və səhər bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi səhər şimal-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 15-18° isti, gündüz 19-23° isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunu olacaq. Nisbi rütubət 65-75 faiz olacaq.

Azərbaycanın bəzi rayonlarında arabir leysan xarakterli yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 12-17° isti, gündüz 19-24° isti, dağlarda gecə 2-7° isti, gündüz 7-12° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

Hadisə



# Sel körpüləri dağıdıb

**Astara rayonunun bir neçə kəndinə sel gəlib. Şəxsi evlərə, həyətyanı sahələrə su dolub. Təsərrüfatlara ciddi ziyan dəydiyi bildirilir.**

Dünən aldığımız son məlumata görə, sel bir neçə kənddə körpüləri aparıb, gediş-gəliş çətinləşib. Xatırladaq ki, sel Xaçmaz və Zaqatalada da körpüləri dağıdıb. Hər 3 rayonda gediş-gəlişi bərpa etmək üçün operativ tədbirlər görülüb.

***R.SƏADƏT***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4926
SİFARİŞ 2397
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00